Hər kəs ədalətli olacaq

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | İctimai-siyasi, hüquq qəzeti | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 4 (6047) 2 fevral 2024-cü il | Qiyməti 40 qəpik

# RAUF CABBAROVA VƏ ŞİMŞƏYƏ BU YAZINI OXUMAĞI QADAĞAN EDİRƏM






Bax: səh-3

## Baş nazirdən dəmiryol keçidlərinin istismarı ilə bağlı qərar



**Nazirlər Kabineti "Dəmiryol keçidlərinin istismarı Qaydaları"nı təsdiq edib.**

Adalet.az xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.

Bu Qaydalar ümumi istifadəli dəmiryol nəqliyyatında və qeyri-ümumi istifadəli dəmiryol nəqliyyatında dəmiryol keçidlərinin təhlükəsiz istismarına dair tələbləri müəyyən edir. Dəmiryol keçidlərindən istifadə edən bütün nəqliyyat vasitələrinin sürücüləri, həmçinin piyadalar yalnız qatara (hərəkət tərkibinə) yol verməklə dəmiryol keçidlərindən keçə bilərlər. Dəmiryol keçidlərindən istifadə edən bütün nəqliyyat vasitələrinin sürücüləri, həmçinin piyadalar dəmiryol keçidinə yaxınlaşdıqda yol nişanlarını, işıqforları, nişanlama xətlərini, şlaqbaumun vəziyyətini və keçid növbətçisinin göstərişlərini əsas tutmalı, yaxınlaşan qatarın (hərəkət tərkibinin) olmadığını yəqin etməli, "Yol hərəkəti haqqında" qanunda nəzərdə tutulmuş tələblərə riayət etməlidirlər.

## DİN-dən kibercinayətkarlıqla bağlı xəbərdarlıq

Bax:səh-2

## Aqil Abbas: Biz sanksiya tətbiq eləsək, çöldə qalarlar

**"Sanksiyadan qorxmaq lazım deyil, onsuz da 30 il qırğında olmuşuq".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin iclasında deputat Aqil Abbas deyib

Deputat hesab edir ki, bu, əslində inkişafdır, insanlar daha ağıllı düşünməyə məcbur olur: "Biz sanksiya tətbiq eləsək, çöldə qalarlar. Rusiya Fransanı vurub Afrikadan çıxardı. Qaldı Qazaxıstan, ordan da yol bağlıdır. Uranı gəmi ilə daşımaq olmaz. Biz sanksiya tətbiq etsək, nə olar?! İt hürər, karvan keçər. Fransa gəlib öz gözü ilə görsün ermənilər burda necədir. Görsünlər, biz Şuşada kilsəni necə təmir edirik. Biz Allahın evinə əl vurmarıq. Amma mənim əlimdə olsa, təmir eləmərəm, xaraba qalar".

## E-Polis mobil tətbiqi istifadəyə verildi

**Daxili İşlər Nazirliyinin (DİN) E-Polis tətbiqi istifadəyə verilib.**

Adalet.az xəbər verir ki, tətbiq vasitəsilə məhkumluq, nəqliyyat vasitəsinin zədələnməsi, axtarışda olması və yüklü olması, icbari sığorta və vətəndaşın olduğu yer üzrə arayışlar üçün müraciətlər etmək və onları rəqəmsal formada əldə etmək mümkündür.

Həmçinin, proqram vasitəsi ilə borcla bağlı ölkədən çıxışa STOP qoyulmasını, işğaldan azad edilən ərazilərə buraxılış icazəsinin mövcudluğunu da yoxlamaq olar.

Qeyd edək ki, tətbiq artıq "Play Store" mobil mağazasına yerləşdirilib.

## *MSK sədri prezident seçkiləri üzrə qeydiyyatdan keçən müşahidəçilərin sayını açıqladı*

**Fevralın 7-nə təyin olunan növbədənkənar prezident seçkiləri üzrə 85 min müşahidəçi qeydiyyatdan keçib.**

Adalet.az xəbər verir ki, bunu Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov jurnalistlərə açıqlamasında deyib.

Qeyd edək ki, fevralın 7-də Azərbaycanda növbədənkənar prezident seçkiləri keçiriləcək. Seçkilərdə hakim Yeni Azərbaycan Partiyasının prezidentliyə namizədi İlham Əliyev, namizədliyi özü tərəfindən irəli sürülən Zahid Oruc, Milli Cəbhə Partiyasının prezidentliyə namizədi Razi Nurullayev, Böyük Quruluş Partiyasının prezidentliyə namizədi Fazil Mustafa, Böyük Azərbaycan Partiyasının prezidentliyə namizədi Elşad Musayev, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının prezidentliyə namizədi Qüdrət Həsənquliyev və namizədliyi özü tərəfindən irəli sürülən Fuad Əliyev mübarizə aparacaq.

Aqil ABBAS
aqilabbas@rambler.ru



# AXIR Kİ MƏN EVİMƏ GETDİM

## (Bu filmə baxmağa dəyər)

*Mənim haqqımda demək olar ki, televiziya kanallarımızın əksəriyyətində sənədli filmlər çəkiblər. Hamısı mənə doğmadı, əzizdi. Amma ANS-in Mirşahinin təşəbbüsü ilə 2009-cu ildə çəkdiyi "Evə gəl" filmi mənim üçün tamamilə başqa bir tərəfdən dəyərlidir.*

*Mənim həyatıma həsr olunmuş bu filmin sonu Evoğlu kəndinin üstündə Ağdama gedən, amma 27 il bağlı qalan təmas xəttində qurtarır.*

*Və mən 2009-cu ildə təmas xəttindəki yolu bağlayan daş-çınqıl təpəsinin üstündən sıçrayıb keçirəm və üz tuturam Ağdama. Sonra da çevrilib müraciət edirəm ki, gəlin gedək də.*

*Hətta bir dəfə Mirşahinlə razılaşmışdıq ki, keçib gedək Ağdama, nə olar-olar. Sonra bizdən asılı olmayan səbəblərdən bu fikrimizdən daşınmalı olduq.*

Bax:səh-2

## GÜNÜN LƏTİFƏSİ

Aqil Abbas nəşriyyatda Vasif Quliyevlə qarşılaşır:

**- Salam ay Vasif, belə tələsik hara gedirsən?**

Vasif Quliyev:

**- Gedirəm**



**iynə vurdurmağa.**

Aqil müəllim:

**- Poliklinkaya?**

Vasif Quliyev:

**- Yox ey, özümə...**

# Bir qrup gəncə Prezident mükafatı verildi



**Prezident İlham Əliyev 2024-cü il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında Sərəncam imzalayıb.**

Adalet.az xəbər verir ki, Sərəncama əsasən, elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən aşağıdakı şəxslərə 2024 cü il Gənclər üçün Prezident mükafatları verilib:

**Abdullayeva Gülnar Rizvan qızı**
**Ağamirova Rəvanə Seymur qızı**
**Ağazadə Taryel İsa oğlu**
**Allahverdiyev Ayxan Elman oğlu**
**Baxışova Rzayeva Kimyəxanım Ziyad qızı**
**Məhərrəmova Zərifə Hüseyn qızı**
**Məmmədov Ulucay Akif oğlu**
**Məmmədova Dinara Bəxtiyar qızı**
**Məmmədova Fatimə Nizami qızı**
**Mirələmli Pərviz Atamalı oğlu.**

# "Ermənistan Azərbaycana qarşı iddialara son qoyduğu halda sülhə nail oluna bilər"

**Azərbaycan ilə Ermənistan arasında artıq de-fakto sülh mövcuddur və iki ölkənin sərhədində bir neçə aydır sülh şəraiti hökm sürür. Amma bu prosesin məntiqi sonluğa çatdırılması üçün sülh müqaviləsi imzalanmalı və Ermənistanın Azərbaycana qarşı ərazi iddialarına son qoyulmalıdır.**

Trend xəbər verir ki, bu fikri Azərbaycan Prezidenti İlham Əliyev fevralın 1-də Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonq ilə görüşdə deyib.

Ermənistanın müstəqillik haqqında Bəyannaməsində Azərbaycanın Qarabağ bölgəsinin Ermənistanla birləşdirilməsinə və Azərbaycanın ərazi bütövlüyünün pozulmasına birbaşa çağırışların olduğunu vurğulayan dövlətimizin başçısı bildirib ki, bu sənədə istinadlar da Ermənistanın Konstitusiyasında əksini tapıb. Prezident İlham Əliyev, həmçinin Ermənistanın digər normativ-hüquqi sənədlərində Azərbaycana qarşı ərazi iddialarının, Ermənistanın qoşulduğu bir çox konvensiyalarda və digər sənədlərdə Azərbaycanın Qarabağ üzərində suverenliyini tanımayan çoxsaylı qeyd-şərtlərin mövcudluğunu diqqətə çatdırıb.

"Ermənistanın beynəlxalq məhkəmələrdə Azərbaycana qarşı irəli sürdüyü iddiaların əsasını da Ermənistan tərəfindən Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün tanınmaması, Qarabağın Azərbaycandan ayrılması kimi məsələlər təşkil edir", - deyən Azərbaycan Prezidenti qeyd edib ki, bu iddialara son qoyulduğu, Ermənistan Konstitusiyasında və digər normativ hüquqi sənədlərdə dəyişikliklər edildiyi halda sülhə nail oluna bilər. Ermənistanda bunun tez bir vaxtda həyata keçirilməsinin vacibliyini bildirən dövlətimizin başçısı vurğulayıb ki, hazırda Ermənistanda bu mövzuda ölkədaxili müzakirələrin başlanması müsbət addım kimi qiymətləndirilir və bu, sülh prosesinin tezliklə yekunlaşdırılması üçün yaxşı imkan yarada bilər.

Prezident İlham Əliyev Avropa Şurası Parlament Assambleyasında anti-Azərbaycan xarakteri daşıyan və Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin ratifikasiya edilməməsi ilə bağlı azlıq olan bir qrupun təşəbbüsünün dialoqa xidmət etmədiyini vurğulayaraq bildirdi ki, bu, ümumiyyətlə, parlament platformasının ənənələri ilə ziddiyyət təşkil edir. Azərbaycan nümayəndə heyətinin hüquqlarının bərpa edilməli olduğunu deyən dövlətimizin başçısı diqqətə çatdırdı ki, Azərbaycan nümayəndə heyətinin hüquqları bərpa olunmayacağı təqdirdə, Azərbaycan tərəfindən də Avropa Şurası və Avropa İnsan Haqları Məhkəməsində iştirak məsələsinə yenidən baxılacaq.

## *Spiker: "Müəyyən qüvvələr ərazi bütövlüyümüzün bərpası ilə barışa bilmir"*

**"Avropada müəyyən qüvvələr Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə heç cür barışa bilmir".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin dünən keçirilən iclasında spiker Sahibə Qafarova deyib.

MM sədri bildirib ki, narahatlıq doğuran əsas məsələ Cənubi Qafqazda yaranan yeni reallığın bəziləri tərəfindən qəbul edilməməsidir.

## *DİN-dən kibercinayətkarlıqla bağlı xəbərdarlıq*

**Daxili İşlər Nazirliyi kibercinayətkarlıqla bağlı vətəndaşlara müraciət edib.**

DİN-dən Adalet.az-a verilən məlumata görə, müraciətdə deyilir: "Kibercinayətkarlıqlarla üzləşməmək üçün vətəndaşlarımızı aşağıda qeyd edilənlərə riayət etməyə, internet resurslarında ayıq-sayıq olmağa çağırırıq.

- Mobil və şəhər nömrələrindən zəng edən şəxslərə bank kartlarınızdakı məlumatları, yeni kart sahibinin adı, soyadı, kartın son istifadə tarixi, CVV nömrəsi və təsdiq kodunu ("3D secure") təqdim etməyin. Hətta bu bank əməkdaşı olsa belə;
- Sosial media və elan saytları üzərindən satışa çıxardığınız məhsulları guya almaq məqsədilə özünün ölkədə olmadığını, həmçinin uzaq məsafədə olduğunu əsas gətirərək ödənişi onlayn yolla edəcəyini bildirən şəxslərə bank kartı məlumatlarını təqdim etməyin;
- İşə qəbul olunmağınızı əsas gətirərək guya "sağlamlıq haqqında arayış" üçün əvvəlcədən hansısa məbləğ tələb edən şəxslərə ödəniş etməyin;
- "Yüksək gəlirli onlayn iş imkanı" kimi zahirən cazibədar, sadə tapşırıqlar qarşılığında yüksək ödəniş vədlərinə etibar etməyin. Saxta sayt və ya hesablar üzərindən göndərilən iş təkliflərinə inanmayın. Üzvlük və ya başlanğıc üçün ödəniş etməyin;
- Xarici nömrələrdən, həmçinin virtual nömrələrdən zəng edən şəxslərə bank kartı məlumatlarını təqdim etməyin;
- Alqı-satqı saytlarında hər hansı bir mənzili, avtomobili (telefon, geyim əşyaları, mebel və s.) dəyərindən çox aşağı qiymətə elana qoyan şəxslərə alacağınız əmlaka və məhsula baxış keçirmədən beh verməyin;
- Sosial şəbəkələrdə keçirilən yarışların qalibi olduğunuz, o cümlədən hədiyyə qazanmağınız barədə mesaj alsanız hədiyyənin çatdırılması (karqo) üçün ödəniş etməyin;
- "Haker", "baxıcı", "faizə pul", "profillərin izlənilməsi" və bu kimi digər səhifələrə müraciət etməyin, hesablarına pul köçürməyin;
- Saytların domen adlarına diqqət edin. Məşhur şirkətlərin domen adlarına bənzər fişinq məqsədləri üçün yaradılmış saytlara qarşı diqqətli olun;
- Sosial şəbəkələrdəki tanımadığınız, etibar etmədiyiniz səhifələrdən alış-veriş etməyin".

Göstərilən hallarla rastlaşdıqda şübhəli linklərə daxil olmamaq, yönləndirilən saxta veb səhifələri açmamaq, orada ödəniş etməmək, dərhal DİN-in "102" Xidmətinə və Nazirliyin sosial şəbəkə hesablarına müraciət etmək tövsiyə olunur.

## *Elşən Musayev: "AŞPA aşpaz funksiyasını yerinə yetirir"*

**"AŞPA-da 4 il boyunca nümayəndə heyətinin üzvü olmuşam".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin dünənki iclasında deputat Elşən Musayev deyib. "Onların mətbəxinə, hansı xislətə sahib olduqlarına şahidəm" deyən E.Musayev qeyd edib ki, onlar idarə etmir, idarə olmurlar: "Ora Mark kimi deputatlara görə riyakarlar məclisinə çevrilib, pis aurası var. AŞPA bu gün aşpaz funksiyasını yerinə yetirir, o aşpazların qazanında ədalətdən başqa hər şey qaynayır. Biz 23 il ondan ədalət üçün istifadə etməmişik, sözümüzü demək üçün istifadfə etmişik. Deyirlər, Avropa dolayı yol ilə müdaxilə etməyə çalışır. Yüz dəfə demişik, yenə deyirik, bizə heç kim diktə edə bilməz. Bir də kimsə bizə dil uzadsa, ağzının payı veriləcək, dili uzandığı yerdən kəsiləcək".

## *Dövlətə vəsait ödəməklə daha az hərbi qulluq etmək olar*

**"Bir sıra dünya ölkələrində, həmçinin qardaş Türkiyədə hərbi xidmətə çağırışla başlı müəyyən modellər tədbiq edilir".**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin düənki iclasında deputat Elnur Allahverdiyev "Hərbi vəzifə və hərbi xidmət haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin müzakirəsi zamanı deyib. Onun sözlərinə görə, dövlətə vəsait ödəməklə daha az hərbi qulluq etmək olur: "Məsələn, hərbi xidmət 1 ildirsə, ödəniş etməklə 2 ay, 6 ay etmək olar. Bunu edərək təhsilə də fayda vermək olar". Deputat qeyd edib ki, hər kəs hərbi xidmət keçməlidir, ancaq təhsil almış gənclər sonra təhsilə, karyeraya adaptasiya olmaqda çətinlik çəkirlər: "Fikrimcə, həmin gənclər 2-6 ay hərbi xidmət proqramı keçməklə tamamlaya bilərlər. Əvvəllər olduğu kimi, universitetlərdə hərbi kafedraları bərpa etsək, daha əlverişli olar".


*AQİL ABBAS*


# AXIR Kİ MƏN EVİMƏ GETDİM

## *(Bu filmə baxmağa dəyər)*

***Mənim haqqımda demək olar ki, televiziya kanallarımızın əksəriyyətində sənədli filmlər çəkiblər. Hamısı mənə doğmadı, əzizdi. Amma ANS-in Mirşahinin təşəbbüsü ilə 2009-cu ildə çəkdiyi "Evə gəl" filmi mənim üçün tamamilə başqa bir tərəfdən dəyərlidir.***

***Mənim həyatıma həsr olunmuş bu filmin sonu Evoğlu kəndinin üstündə Ağdama gedən, amma 27 il bağlı qalan təmas xəttində qurtarır.***

***Və mən 2009-cu ildə təmas xəttindəki yolu bağlayan daşçınqıl təpəsinin üstündən sıçrayıb keçirəm və üz tuturam Ağdama. Sonra da çevrilib müraciət edirəm ki, gəlin gedək də.***

***Hətta bir dəfə Mirşahinlə razılaşmışdıq ki, keçib gedək Ağdama, nə olar-olar. Sonra bizdən asılı olmayan müəyyən səbəblərdən bu fikrimizdən daşınmalı olduq.***

***Mən 27 il hər Qarabağa səfərimdə mütləq o təmas xəttinə gedir, ordan saatlarla Ağdama tərəf boylanır və hətta özümü saxlaya bilməyib ağlayırdım. İndi şükürlər olsun ki, həmin yolu su yoluna döndərmişəm.***

***2009-cu ildə mən təmas xəttini keçəndə arxamca gələn olmamışdı. Amma 2012-ci ildə "Dolu" filmi çəkiləndə yenə həmin təmas xəttindən üz tutduq Ağdama. Onda Komandirin arxasınca yüzlərlə insan çəkinmədən təmas xəttini keçdi, halbuki ermənilərlə bir atəş məsafəsindəydik.***

***Və mən bir gün bu yolun açılacağına və Ağdama gedəcəyimizə Allaha inandığım qədər inanırdım.***

***2020-ci ilin noyabr ayında Möhtərəm Cənab Prezident İlham Əliyevin sərkərdəliyi ilə şəhid və qazilərimiz bu yolu açdılar. Özü də təkcə bu yolu yox, bütün Qarabağa gedən yolları. Onda da yol açılan kimi azad olunmuş şəhərimizə ilk gedən özüm oldum.***

***Neçə müddət idi ki, "Evə gəl" verilişini axtarırdım, təəssüf ki, ANS həmin filmi Youtube kanalına yerləşdirməmişdi. Kimə müraciət elədim, filmi tapa bilmədi. Neçə dəfə filmi çəkən Elçin bəyin də yanına getdim, o da and içdi ki, film onda yoxdur.***

***Nəhayət, bu günlərdə redaksiyaya adının çəkilməsini istəməyən bir dost gəldi. Dedi ki, o film məndə var, çünki xoşuma gələn filmləri televiziyada gedən kimi dərhal yazıram. Və filmi çıxarıb verdi mənə.***

***Filmi Vahid Mustafayevdən icazəsiz sayta yerləşdirdiyimə görə ondan üzr istəyirəm.***

***Buyurun, filmə baxın.***

***Filmi saytımıza yerləşdirdik. Bağışlayın, bizdən asılı olmayan səbəblərə görə blokladılar.***

## *XİN Çexiya Deputatlar Palatasının sədrinə cavab verdi*

**Çexiya parlamentinin Deputatlar Palatasının sədri Marketa Pekarova Adamova saxta erməni rəvayətlərinə əsaslanaraq məsələləri şərh etməsəydi daha yaxşı olardı.**

Adalet.az xəbər verir ki, bu barədə Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə paylaşım edib. O bildirib ki, Çexiya parlamentinin Deputatlar Palatasının sədri Ermənistanın öz konstitusiyasında və qanunvericiliyində qonşularına qarşı ərazi iddialarını nə vaxt aradan qaldıracağını soruşmalı idi.

Xatırladaq ki, Marketa Pekarova Adamova Ermənistana səfər edib, Ermənistan parlamentinin sədri Alen Simonyanla görüşüb.

## *Siyavuş Novruzov: "Bələdiyyə sədrləri birbaşa seçicilər tərəfindən seçilsin"*

**"Qanunvericilik planı hərtərəfli hazırlanıb". Adalet.az xəbər verir ki, bunu Milli Məclisin 2024-cü il yaz sessiyasının qanunvericilik işləri planı haqqında Milli Məclisin qərar layihəsinin müzakirəsində deputat Siyavuş Novruzov deyib. Onun sözlərinə görə, rəhbərlik etdiyi Regional komitəyə 1360 müraciət daxil olub, 960-ı həll olunub.**

Bu ilin sonunda bələdiyyə seçkilərinin olcağını deyən S.Novruzov seçkilərin şərtlərinin sadələşdirilməsini təklif edib. Bildiri ki, orada saylar həddindən artıq çoxdur:

"Başqa ölkələrdə əhali sayı çox olmasına baxmayaraq, 800 bələdiyyə fəaliyyət göstərirsə, bizdə mindən çoxdur. Bələdiyyə sədrləri birbaşa seçicilər tərəfindən seçilsin. Biz bunun öz əksini tapmamığı istəyirik". Deputat qeyd edib ki, digər məsələ sənədlərin çoxluğudur: "Bir nəfər 60 səhifədən çox sənəd verməlidir ki, qəbul olsun. Prezidentliyə verilən sənədlə bələdiyyə seçkilərinə verilən sənəd eynidir".

"İşğaldan azad olunmuş ərazilərdə də bələdiyyələr formalaşdırmalıyıq, bunun üçün addımlar atmalıyıq", - deyə Siyavuş Novruzov vurğulayıb.

# MESSİ BAKIYA GƏLƏCƏK

*Tanınmış bir iş adamı, futbolumuzun, xüsusilə də "Qarabağ"ın fanatı və "Qarabağ" üçün onun ən kasıb vaxtlarında əlindən gələni əsirgəməyən bir dostum bu günlərdə zəng etmişdi. Xeyli dərdləşdik. Xüsusilə, futboldan danışdıq.*

*1996-cı il idi. "Qarabağ" Çexiyada "Yablonets" komandası ilə Avropa çempionatları çərçivəsində oynayacaqdı. Oyun isə 23 iyula Ağdam şəhərinin işğal gününə düşmüşdü. 22-si gecə onunla məni Çexiyanın AFFA-sının prezidenti, şəhərin meri və Çexiyanın daxili işlər naziri yeməyə dəvət etdilər. Yaxşı bir ziyafət verdilər. Onlar da, biz də babat vurduq və söhbəti fırladıq işğal olunmuş Qarabağa, Ağdama. Və dedik ki, sabah qonağınız "Qarabağ" komandasının təmsil etdiyi Ağdam şəhəri 1993-cü ildə Ermənistanın silahlı qüvvələri tərəfindən işğal olunub. Söhbət uzandı, biz onlara çox şeyi inandıra bildik. Və xahiş elədik ki, bəlkə sabah stadionda bunu elan edəsiniz? Əslində futbola siyasət qatmaq qadağandı, amma onlar da babat vurduqlarından razılaşdılar.*



*Və ona da icazə aldıq ki, sabah Elbrus Abbasovun (baş məşqçi idi) oğlu və mənim oğlum oyun zamanı üçrəngli müqəddəs bayrağımızı stadion boyu gəzdirsinlər.*

*Və oyun başlayana qədər inanmadıq ki, onlar bunu edərlər. Nəhayət, oyun başladı. Bir dəqiqə sonra hakim oyunu dayandırdı və stadionda elan elədilər: "Qonaqlarımız "Qarabağ" komandasının təmsil etdiyi Ağdam şəhəri 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub". Və bir dəqiqəlik sükut elan etdilər.*

*Onu da qeyd edim ki, futbola siyasət qatdıqlarına görə, "Yablonets" komandası 62 min İsveçrə frankı cərimə edildi. Amma biz bunu bacardıq.*

*Bir detalı da yazmasam olmaz. Birinci hissə qurtarıb, uşaqlar da bayraq gəzdirməkdən yorulublar və 3:0 uduzuruq. Biz də oturmuşuq şərəf tribunasında və hamıya pivə paylayırlar. Özü də bizdən fərqli olaraq pivəni noxudla, balıqla deyil, ləbləbi ilə içirlər. Mənim də pivədən zəhləm gedir, içmirəm, amma buna baxmayaraq 4-5 dəqiqədən bir pivələri təzələyirlər. Bu vaxt oğlum Toğrul ağlaya-ağlaya qalxdı mənim yanıma ki, ata, uduzuruq. Mən də başladım onu danlamağa ki, ə, yekə kişisən, uduzuruq-uduzuruq də, niyə ağlayırsan? Sonra özümü saxlaya bilməyib necə hönkür-hönkür ağladımsa, indi şərəf tribunasında oturanlar məni sakitləşdirməyə çalışır. Mən uduzmağımıza ağlamırdım, məni ağladan 10 yaşlı körpəmin göz yaşları idi. Həmin oyunda 5:0 uduzduq.*

*Niyəsini də yazım. Yablonets şəhəri 50 minlik şəhər idi, yəni Ağdam boyda. Ağdamda iki otel vardı, əslində biri Qonaq evi idi, hörmətli qonaqlar orda qalırdı, məsələn, Rəşid Behbudov, Səttar Bəhlulzadə, Tofiq Bayram. Amma Yablonetsdə həmin vaxt gərək ki, beş otel vardı, onun da ikisi beşulduzlu idi. Ağdamda "Lenin yolu" adlı 7-8 min tirajla bir qəzet çıxırdı, Yablonetsdə gündəlik 30 min tirajla iki qəzet. Bizdən o qəzetlərə də müsahibələr almışdılar.*

*"Qarabağ"ın futbolçularının çoxu zirzəmilərdə, yataqxanalarda yaşayırdı, amma Yablonets komandasının bazasında, bizi aparmışdılar gəzdik, hər futbolçunun ikiotaqlı mənzili vardı. Bundan başqa, məşq üçün üç böyük stadion vardı, hətta birinin üstü də örtülü idi ki, yağış-qar yağanda orda məşq etsinlər.*

*Düzdür, Yablonets şəhəri mənim üçün Ağdamdan gözəl deyildi, amma Avropa şəhəri idi.*

*O da yadımdadır, axşam dostumdan xahiş elədim ki, futbolçuların hərəsinə 50-100 dollar pul ver, qoy burdan evlərinə xrustal alsınlar, Bakıda həmin xrustallar 400-500 dollardı. Amma dostum bildirdi ki, bu, mümkün deyil, uduzan komandaya pul vermək kurallara ziddir. Yekəlik olmasın, cibimdə 1000 dollar pul vardı, keçdim futbolçular çörək yeyən yerə, çıxarıb 800 dollarını atdım stolun üstünə ki, bölüşün, hərəniz evə bir hədiyyə aparın. 200 dolları da saxladım ki, oğlum yanımdadı, birdən nəyəsə ehtiyac olar.*

*Qayıdanda Lvovdan Bakıya birbaşa reys olmadı, məcbur olub Moskvaya, ordan Bakıya uçduq. Hələ o da yadımdadır ki, təyyarədə şair göyçaylı Mahir Qarayevlə bir yerdə oturmuşduq. Söhbət nədən getdisə məlum oldu ki, Mahirin qol saatı yoxdur, qolumda çox bahalı bir İsveçrə saatı vardı, çıxarıb bağışladım şairə.*

*Bir məsələni də yazım, biz Yablonetsə uçanda pulumuz yox idi. Getdim AZAL-ın o vaxtkı prezidenti Ədalət müəllimin yanında və bildirdim ki, "Qarabağ" Avropa oyunlarına gedir, bilet pulumuz çatmır. Onda Sabir İlyasov onun müavini idi (deyəsən, indi də müavindir) onu çağırdı və dedi ki, "Qarabağ"a təyyarə biletlərini əlli faizlə verin. Və uzun müddət, sağ olsun Sabir İlyasov, bizə xaricə uçuşlara bileti 50 faizlə verdi.*

*"Qarabağ"la bağlı xatirələrim çoxdur, zaman gəldikcə yazacam, çünki bunu məndən başqa yazan olmayacaq. Qoy Azərbaycan xalqı bilsin ki, "Qarabağ" bugünki halına çatanacan hansı məhrumiyyətlərdən keçib.*

*Qayıdaq əsas məsələmizə. Dostum zəng edəndə dedi ki, Messi ilə möhkəm dostdur. Hətta Messi onun 70 illiyində ona təbrik teleqramı göndərib və deyəsən, bir də hədiyyə göndərib. Əsas məsələ nə teleqramdadı, nə də hədiyyədədi, dostum bildirdi ki, Messi ilə telefon danışığı edib və onu Azərbaycana dəvət edib. Messi də razılaşıb, özü də iki günlüyə. Yəni biz tezliklə dünya futbolunun ulduzu Messini Azərbaycanda görə biləcəyik*

*Dostumun adını hələ yazmıram, icazə versə, növbəti nömrədə yazaram. Amma və yəqin ki, "Qarabağ" klubunun köhnə futbolçuları onu xatırladı.*

# SOYUN "QƏBƏLƏ"Nİ, SOYUN, DAĞILSIN



*Bilmirəm bu komandanın nə günahı var. Və kimlər bu komandanın nəinki dağılması, hətta "Xəzər Lənkəran" kimi məhv olması üçün əlindən gələni əsirgəmir.*

*Azərbaycanda ən gözəl baza və ən gözəl futbol akademiyası "Qəbələ"dədir.*

*Stadion şəhərin demək olar ki, ortasındadı. Hasardan hoppansan stadiona düşərsən. Həm də beynəlxalq standartlara cavab verən bir stadiondur. Bundan başqa üç dənə də məqş stadionu var. Yəni Qəbələdə 4 stadion var.*

*Akademiyasında da mütxəlif rayonlardan gəlmiş, istedadlı və işıqlı uşaqlar futbolun sirlərini öyrənirlər. Demək olar ki, "Qəbələ" öz yerli oyunçularını özü yetişdirir. Yetişdirir və gətirir komandaya. Elə ki həmin futbolçular parladı, pullu komandalar daraşırlar "Qəbələ"nin futbolçularına. Ölkədə elə bir klub yoxdur ki, orda "Qəbələ"nin yetişdirdiyi futbolçu olmasın. Deyəsən təkcə "Qarabağ"da yoxdur.*

*"Qəbələ"nin maddi problemləri olduğu üçün məcburdur futbolçularını satsın.*

*Mən region komandalarının tərəfini tuturam. Çünki yaxşı bilirəm ki, regionlarda futbol inkişaf elməsə, ölkə futbolu da yerində sayacaq, necə ki, yerində sayır.*

*Komandanın sabiq baş məşqçisi, özü də İngiltərədə təhsil almış Ramiz Məmmədovla həm gənclik dostuyam, həm də bir elin oğluyuq. Tez-tez məni Qəbələyə futbola dəvət edirdi. Yolun uzaq olmasına baxmayaraq, heç vaxt Ramizin dəvətini rədd etməmişdim. "Qəbələ"nin oyununa baxmaqdan ləzzət alırdım. Sonra Ramiz getdi, yerinə ayrı baş məşqçi və məşqçilər gəldi. Amma yenə mən adətimdən çəkilmədim və hərdən "Qəbələ"nin oyununu izləmək üçün bu şəhərə gedirdim.*

*"Qəbələ" bir vaxtlar ölkənin ən perspektivli komandası idi. Həmişə liderlər qrupunda olurdu, Ölkə kubokunu alırdı, Avropa çempionatına gedirdi. Görünür komandanın uğurları kimlərinsə xoşuna gəlmədi və " Qəbələ"nin başı bəlalı günləri başladı.*

*İndi sonuncu yerdə gedir, belə getsə Premyer liqadan çıxacağı labüddür. Beləliklə, hər cür şəraiti, bazası, akademiyası, dörd stadionu olan bir klub tamamilə dağılacaq. Amma hələ gec deyil, "Qəbələ"nin rəhbərliyi papaqlarını qabaqlarına qoyub komandanı bu durumdan çıxarmaq üçün yaxşı-yaxşı fikirləşməlidirlər.*

*Komandanın prezidenti Fariz Nəcəfov İkinci Qarabağ Müharibəsində döyüşüb, qazi olub və müzəffər Ordumuzun qələbəsində bir qıça da olsa əməyi var.*

*Fariz müəllim, indi də döyüş vaxtıdır. Və yenə səndən və klubundan qələbə gözləyirik. Komandanı toparla.*

*Klubun baş məşqçisi Elmar Baxşıyev, sən də ruhdan düşmə. Sənin bacarığına və istedadına inanıram.*

*Hava açılandan sonra söz verirəm gələcəm "Qəbələ"nin oyunlarını canlı izləməyə, onda da möhkəm dərdləşərik. Mən "Qarabağ"ın hər oyunundan əvvəl "Qarabağ" üçün dualar edirəm. Sizin üçün də dualar edəcəm.*

*Qəbələnin iş adamları, klubunuzu tənha buraxmayın.Və qoymayın kimlərsə bu komandanı "Xəzər Lənkəran"nın gününə salsın.*

---

Azərbaycanda VAR sistemi tətbiq olunandan sonra dedik ki, day hakimlər qələt eləməz, qələt eləsələr də VAR onların qələtini düzəldər. Amma gözlədiyimiz kimi olmadı. VAR bəzən hakimdən də böyük qələt edir, qələt, yəni səhv.

Çox zaman deyəsən VAR da tıxaca düşür. Bir dəqiqə, dəqiqə yarıma həll edəcəyi məsələ beş-altı dəqiqə çəkir.

Görünür bizim hakimlər, xüsusilə də VAR-da olan hakimlər dünya futbolunu izləmirlər. Bu günlərdə Türkiyəyə hakimlərin konfransına nəsə öyrənməyə yox, Antalyaya istirahət eləməyə gedibmişlər.





# RAUF CABBAROVA VƏ ŞİMŞƏYƏ BU YAZINI OXUMAĞI QADAĞAN EDİRƏM

Avropa futbolunu izləyirik, qol olan zaman VAR ondan bir qədər əvvəlki epizodları da izləyir: autu və ya qoldan əvvəlki cərimə, kobudluq olubsa ona da diqqət yetirir. Təəssüf ki, bizdə elə deyil. "Zirə" ilə "Sabah"ın oyununda həm Rauf Cabbarov, həm də VAR hakimləri çox kobud səhv buraxdılar. Birinci səhvi Rauf Cabbarov elədi. Gözünün qabağında top "Sabah"ın oyunçusuna dəyib qapı xəttindən çıxır. Amma küncdən zərbə vermək əvəzinə topu "Sabah"ın qapıdan başlayacağına işarə edir. "Zirə"nin oyunçularının etirazını da qulaqardına vurur. Təbii ki, VAR bu məsələyə qarışa bilməzdi.

Və "Sabah"ın qapıçısı dərhal topu oyuna daxil edir, hücumçu da "Zirə"nin qapıçısı ilə təkbətək çıxır və cərimə meydançasında onu yıxırlar. Özu də 94-cü dəqiqənin gərək ki, 48-ci saniyəsində, yəni artırılmış vaxtdan 48 saniyə sonra. Və penalti. Burda hakimin qərarı düzdür.

Amma VAR-dakılar hara baxırdı? Penaltidən 10 saniyə əvvəl Rauf Cabbarovun kobud səhv etdiyini görmürdümü? Görürdü, amma özünü görməməzliyə vururdu. VAR sistemi iki ildir tətbiq olunur, amma təkmilləşmək əvəzinə günbəgün geri gedir.

Hakimlər Komitəsinin sədri, adını da unutmuşam Şimşəkdi, yoxsa İldırımdı, nəyə sədrlik edir? Elə oyun olmaz ki, hakimlər kobud səhvlərə yol verməsinlər. Bu isə bir oyunun taleyini həll edir.

Deyirlər, "Zirə" 7 oyundu qol vura bilmir. "Zirə" neyləsin, hakim qarşı tərəfdən oynayırsa.

Belə getsə, bir gün Rəşad Sadıqov bu haqsızlıqlara dözməyib basıb hakimi döyəcək və nəticədə Rəşad müəllimi gözünə döndüyüm AFFA futboldan uzaqlaşdıracaq.

Hörmətli Rəşad müəllim, sən Qurban Qurbanovun tələbəsisən, onun kimi təmkinli ol, hövsələdən çıxma. Bir gün haqq-ədalət yerini tapacaq, sənə düşmənçilik edən hakimlər və o düşmənçiliyin arxasında duran qüvvələr özləri futboldan gedəcəklər.

Rəşad Sadıqov və "Zirə"yə uğurlar arzulayıram.

## DTX rəsmisi: “Qurumlarda kibertəhlükəsizlik departamentləri yaradılır”

**”Dünyada cərəyan edən proseslər və sürətlə davam edən rəqəmsallaşma kibertəhlükəsizlik mütəxəssislərinə olan tələbi də artırır. Belə ki, artıq hər bir dövlət və özəl qurumun özünün informasiya təhlükəsizliyini təmin etməsi üçün kibertəhlükəsizlik mütəxəssisinə ehtiyac yaranır. Sevindirici haldır ki, qurumlarda artıq kibertəhlükəsizlik departamentləri yaradılır”.**

AZƏRTAC xəbər verir ki, bunu Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) Kibertəhlükəsizlik əməliyyatları mərkəzinin rəhbəri Davud Rüstəmov Azərbaycan Kibertəhlükəsizlik Mərkəzinin ikinci məzun günündə çıxışı zamanı deyib.

Davud Rüstəmov qeyd edib ki, hazırkı dünyada kibertəhlükəsizliyin təmin edilməsi, dövlət sərhədlərinin qorunması qədər önəmli bir hal alıb.

”Azərbaycan dövləti də bu istiqamətdə böyük işlər görür. Əvvəllər biz bu sahədə təhsil almaq üçün xaricə yollanırdıq, lakin bu gün Azərbaycan hökumətinin yaratdığı əlverişli şərait nəticəsində, məhz Azərbaycan Kibertəhlükəsizlik Mərkəzində (AKM) İsrailin ”Technion” Universitetinin mütəxəssisləri bizim yerli kibertəhlükəsizlik məzunlarını hazırlayırlar. AKM-nin iki məzunu Dövlət Təhlükəsizlik Xidmətinin kibertəhlükəsizlik əməliyyatları mərkəzinə işə cəlb olunub. Ümid edirəm ki, gələcəkdə ölkəmizdə kibertəhlükəsizlik üzrə mütəxəssislərin sayı daha da artacaq”, - deyə D.Rüstəmov əlavə edib.

## Hakan Fidan: "Bu, böyük bir fəlakətin xəbərçisidir"

**”Beynəlxalq ictimaiyyəti aclıq və epidemik xəstəliklər nəticəsində girov götürülən 2 milyon insanın müxtəlif üsullarla məhv edilməsinin qarşısını almaq üçün tədbirlər görməyə dəvət edirəm”.**

Adalet.az xəbər verir ki, bu barədə Türkiyənin xarici işlər naziri Hakan Fidan Tiranada Albaniyanın Avropa və Xarici İşlər naziri İqli Həsəni ilə görüşündən sonra keçirilən birgə mətbuat konfransında danışıb.

Qəzzada davam edən faciəyə diqqət çəkən Fidan on minlərlə günahsız fələstinlinin qətliamının davam etdiyini bildirib.

”Minlərlə insanı güllə və bombalardan itirdiyimiz halda, indi Qəzzada İsrailin girov saxladığı milyonlarla fələstinlinin aclıq və epidemiyalarla qətlə yetirilməsi təhlükəsi ilə üz-üzəyik. Bu, böyük bir fəlakətin xəbərçisidir”, - o deyib.

## "İsrail qoşunlarını Qəzzadan çıxarmayacaq"

**İstailin baş naziri Benyamin Netanyahu bəyan edib ki, radikal HƏMAS qruplaşmasına qarşı məqsədlərə çatmayana qədər, İsrail hərbi qüvvələrini Qəzza bölgəsindən çıxarmayacaq.**

HƏMAS-la girovların dəyişdirilməsi ilə bağlı verilən xəbərləri şərh edən baş nazir, bütün hallarda İsrailin Qəzza bölgəsində apardığı əməliyyatların davam etdiriləcəyini bildirib. ”Mən, məsələyə aydınlıq gətirərək bildirirəm ki,məqsədlərimizə çatmayanadək müharibəni davam etdirəcəyik. Bu isə o deməkdir ki, HƏMAS ləğv edilməli, girovlar azad edilməli və Qəzza bölgəsinin bundan sonra İsrailə təhlükə yaratmayacağı barədə zəmanət verilməlidir”-deyə Netanyahu bəyan edib. Baş nazir, həmçinin anklavdan hərbi qüvvələrinin çıxarılmasından və hazırda İsrail həbsxanalarında olan HƏMAS qruplaşmasının üzvlərinin azad edilməsi məsələsinə baxılmasından imtina etdiklərini bildirib.

**Rüstəm Hacıyev**

## *Şəhidlər ölməz, Vətən bölünməz!*



**Bu gün Füzuli rayonunun Böyük Bəhmənli kəndində anadan olmuş Elçin Səmənd oğlu Məmmədovun şəhadətə qovuşdüğu gündür.**

O, 1994-cü ildə yanvarın əvvəllərində ”Horadiz əməliyyatında” iştirak edərək 22 kəndin və Horadiz şəhərinin azad edilməsində qəhrəmancasına döyüşmüşdür. Sonra isə Ağdərə istiqamətində gedən döyüşlərdə Azərbaycan oğlu olaraq böyük igidlik göstərmişdir.

30 yanvar 1994-cü ildə Ağdərədə şəhid olmuşdur. Amma o, itgin kimi tarixə qovuşmuşdur. Bu gün onu anadan olduğu kəndə- Böyük Bəhmənlidə kənd camaatı, ziyalılar və məktəblilər yad etmiş, xatirələr danışmış və ruhuna dualar oxumuşlar. Bir fikir ifadə olunmuşdur ki, Elçin kimi oğullar heç vaxt unudulmayacaq. Yəni şəhidlər ölməz, Vətən bölünməz!!!

## *Üç adamlıq liftə altı nəfər minir*



**Son vaxtlar Bakıda yüksək mərtəbəli binalarda olan liftlərin qırılması zamanı ölən və yaralananlar olur.**

Özü də bu hadisələrin bir neçəsi yeni tikilmiş binalarda baş verib.

Hansı ki, o liftlər təzə quraşdırılıb. Qəza baş verən binanın məsul şəxsi deyib ki, lift yenidir və texniki qüsuruolmayb. Sadəcə olaraq lift 4 adamlıqdır. Amma qəza olanda liftə 8 nəfər minib. Təəssüf ki, göründüyü kimi, həmin hadisə sakinlərin günahı və səhlənkarlığı üzündən baş verib.

Bizdə bir ənənə halını alıb, lift gələn kimi onu gözləyənlərin hamısı minmək istəyir. Tay düşünən yoxdur ki, birdən lift qırılar və facıə baş verər! ”Azərbaycan” nəşriyyatındakı lift 3 nəfərlikdir. Amma buna baxan kimdir. Lift gələn kimi 3 nəfər əvəzinə, 5 adam və bir az da çox insan minir. İradını bildirirsen, vecinə almır və deyir ki, əşi, heç nə olmaz! Bəs lift qırılb, onun içindəkilər öləndə və xəsarət alanda kim cavab verəcək?!

## *Sərnişin daşıyan sürücülər...*



**Hər gün Bakıdan bölkələrə, oradan da paytaxta yüzlərlə sərnişin daşıyan avtobus və mikroavtobuslar hərəkət edir.**

Heç kimə sirr deyil ki, o sürücülərin hamısı peşəkar deyil. Elə ona görə də bir çox halda respublikanın avtomobil yollarında bu avtomobillərin iştirakı ilə qəzalar baş verir.

Təbii ki, bu hadisələrin və yol- nəqliyyat qəzalarının qarşısını almaq üçün mütamadi olaraq yol polisi qabaqlayıcı tədbirlər həyata keçirir. Öncə bütün stasionar postlarda sərnişin daşıyan sürücülərlə maarifləndirici söhbətlər aparılır, onlara hər şey izah olunur. Və nəzərlərini çatdırılır ki,hər hansı sürücü sükan arxasında yuxulayarkən hərəkəti dayandırmalı və avtomobili ya yolun kənarındakı təhlükəsiz yerdə, ya da stasionar postda saxlayıb dincəlməli, bundan sonra sükan arxasında əyləşib, hərəkətini davam etdirməlidir!!!

## *Qəzet köşkü yoxdur...*



**Böyük Bəhmənli kəndi Füzuli rayonunun ən iri yaşayış məntəqələrindəndir.**

Demək olar ki, bu kəndin hər cür infrastrukturu var. Gözəl asfalt yolları, təbii qazı, su, işıq sistemi, məktəbləri, müasir tələblərə cavab verən klubu, uşaq bağçası... Bir sözlə, hər şey çox gözəldir. Amma təkcə bir şey çatışmır- qəzet köşkü! Ötən əsrin 90-ç illərindən sonra bu kəndə qəzet gəlib çıxmır. Kəndin ziyalıları isə sözün həqiqi mənasında qəzetə ” tamarzı” dılar. Onlar deyirlər ki , bizim kənddə hər şey var, bir qəzet kö?kü yoxdur. O da olsa, lap yaxşı olar! Ona görə də üzümüzü əlaqədar qurumlara tutub deyirik: bizim kəndimizdə də qəzet köşkü açın! Bax bu bizim ürəyimizcə olar.

## *Türkiyədə su, ölkəmizdə od qiymətinə*



**Dünyanın hər yerində bahalıqdır.**

Amma tay bizdəki kimi yox. Bəziləri irad tutacaq ki, niyə elə deyirsiniz? Bəlkə düz demirik? Bax elə dərmandan başlayaq. İndi imkanlı adamlar dərmanı ölkə aptekərindən deyil, Türkiyədən gətirdir.Ya da yolu o ölkəyə düsəndə elə özü dərmanın alır.

Burada 50 manata satılan dərmanı, Türkiyədən uzaqbaşı 20 manata almaq olur. Hələ onun keyfiyyətindən danışmaq istəmirik. Hansı ki, dövlətimiz ölkəmizə dərman gətirən firmalara hər cür şərait yaradıb. Bizim iş adamlarına da Allah insaf versin, bu qədər pul qazanırlar gözləri yenə doymur! Təbii ki, bizdə də dərmanlar ucuz satıla bilər, amma bəzi dərman oliqarxları imkan versə. Buradan belə bir məntiqi nəticə çıxır ki, bu gedişlə ölkəmizdə çətin ki, dərmanların qiyməti ucuzlaşsın. Çünki dərman firmaları arasında sağlam rəqabət yoxdur. Kim güclüdür bazarda o hökmranlıq edir. Belə olan halda heç dərman məhsulları ucuzlaşa bilər?!

## *Ya qərar ləğv olunmalıdır, ya da küçə ticarəti*



**Kim deyirsə ki, Bakıda küçə ticarətinin qarşısı alınb, sadəcə olaraq bu fikir özünü və başqalarını aldatmaqdan savayı bir şey deyil.**

Bu gün paytaxtımızın bütün rayonlarında küçə ticarəti var. Hətta Nəsimi. Nizami, Suraxanı rayonlarında lap tüğyan edir. Belə də olanda küçə və prospektlərdə anti-sanitariya yaranır və müxtəlif xəstəliklərin inkişafı üçün münbit şərait yaranır. Bu isə insanların narazılığına səbəb olur. Bakıda isə küçə ticarətinə qarşı mübarizəni yerli icra orqanlar və polis aparmalıdir. Çünki küçə ticarətinə qarşı qərarda belə yazıb.Amma çox təəssüf ki, bu gün Bakıda nə yerli icra orqanları, nə də polis bu vəzifəni yetərincə həyata keçirə bilmir. Paytaxda isə günbəgün küçə ticarəti ” çiçək” ləyir. Bəs belə isə çıxış yolu nədən ibarətdir? Əgər Bakıda küçə ticarəti baş alıb gedirsə, onda o qərarın heç bir qüvvəsi qalmır. Ona görə də məlum qərar ləğv olunsa, yaxşıdır. Əgər qərar icra olunmursa,onda qoyun küçə ticarəti elə beləcə tügyan eləsin!

**EMİL FAİQOĞLU**

# Ermənilərin «mənəvi dəyərləri»nə qoşa qapaz: «Bu zərbəni «türk agent»i vurur»

**Hazırda sosial şəbəkələrin erməni seqmentində 10 ballıq zəlzələ effekti yaradan mövzunun müzakirəsi gedir.**

Ermənistanda xaçların və abidələrin yaz ayından etibarən yığışdırılması, indi isə ermənilərin Sünik adlandırdığı Zəngəzurda prosesin genişlənməsi ermənilərdə soyuq duş effekti yaradıb. Ermənilər dövlətlərarası və respublika əhəmiyyətli avtomobil yollarında qeyri-qanuni ucaldılmış (quraşdırılmış) xatirə daşlarının, xaçların və xaçkarların demontajını (sökülməsi) günahını Paşinyan hökumətində görürlər. Onların fikrincə, Azərbaycanla sülh müqaviləsi imzalamağa çalışan Paşinyanın bu hərəkəti ”Əliyevin xoşuna gəlməsi” üçün mesajdır. Demək olar ki, ermənilər baş nazir Paşinyanı ”türk oğlu deyə ”təhqir” edir, onun bir türk agenti olmasını da istisna etmirlər.

Üstəlik, Ermənistan parlamentinin sədri Alen Simonyanın Ağrıdağla bağlı açıqlaması da yanan bu ocağın üstünə necə deyərlər, yağ tökdü. Bilirsiniz də, Ermənistanın dövlət gerbində Türkiyəyə qarşı ərazi iddiası var. Qardaş ölkənin Ağrı dağı Ermənistanın gerbinə ”simvol” kimi daxil edilib.

Simonyan həmin simvolu nəzərdə tutaraq, deyib ki, gec-tez Ermənistanın himni dəyişdirilməlidir, dövlətimiz və erməni musiqisi ilə əlaqəli, himn qaydalarına uyğun olmalıdır: ”Mənim fikrimcə, himni möhtəşəm, misilsiz və maksimum erməni musiqisi ilə əvəz etmək lazımdır, xaricdən gələn mövcud himnin dəyişdirilməsi zərurətdir.




Gerbin dəyişdirilməsi məsələsini də müzakirə etməliyik, Ermənistan su altında qala bilməz, bu, (Nuhun tufanı - red.) bəşəriyyətin cəzası idi, şir Feysbuk smaylıki kimi təsvir edilə və Ermənistanı qoruyan qılınc zəncirlənə bilməz”.

Yəqin ki, Xocalı qatili Serj Sarkisyanın prezident olarkən törətdiyi cinayətləri unutmamısınız. İrqi, dini, milli ayrıseçkilik edərək yüzlərlə azərbaycanlının işğəncələrə məruz qalması, məhv edilməsi məhz onun faşist fəaliyyətinin nəticəsi olub. O hətta gənc nəsli də dəfələrlə özü kimi qaniçən olmağa çağırışlar etmişdi. Yadınıza gələr: 2010-cu ildə Ermənistandakı bayram tədbirlərinin birində o vaxtkı Ermənistan prezidenti Serj Sarksyan erməni gənclərə təxminən belə bir tövsiyyə etmişdi: ”Biz Qarabağı aldıq, sizində borcunuzdur ki, Araratı (Ağrı dağı) bütünlüklə ərazimizə daxil edəsiniz”.

Bəli, 2010-cu ildə verilən o qanlı tövsiyyə, 2016, 2017, 2020- ci illərdə öz qanlı nəticəsini göstərdi. 2010 -cu ildə 12-13 yaşlı şagirdə, yaxud yeniyetmə və gəncə verilən tövsiyyə onların məhv edilməsinə gətirib çıxartdı.Minlərlə erməni gənci torpağa qarışdı.

**Yəqin ki, Paşinyan erməni gənclərin ölməsini istəmədiyini bu yolla dayandırmaq istəyir...**

**Əntiqə Rəşid**

# Daşlarla son görüş

## Dəyərli sinif yoldaşlarıma ithaf edirəm...




**”İrəlilədikcə bu daşlara hopmuş xəyallarım,xatirələrim mənimlə birgə gedirdilər. Addım səslərini duya bilirdim. Qarşısında dayandığım bu xarabalıq isə doğma 5 nömrəli məktəbim idi. On il qapısından sevinclə, həyəcanla, bəzən də həvəssiz addım atdığım məktəbim! Aç qollarını doğma məktəb! Aç, qucaqla, bağrına bas şagirdini!”**

Bu sətrlər Ağdam azad olunandan sonra ilk dəfə gedərkən yazdığım ”Daşlara hopan müəllim ömrü” hekayəmdəndir...İndi isə” Aç qollarını,bağrına bas şagirdlərini” deyirəm..Axı bu dəfə 45 ildən sonra sinif yoldaşlarımla birgə gəlmişəm ziyarətinə....

Həmin məqaləmin sonunda ömrümün daşlaşmış bir vərəqi yazmışdım...İndi isə ömrümün daşlaşmış sonuncu vərəqi yazıram...Çunki artıq bu daşlarla da vidalaşıb gəldik...

*”Bir səhər yuxudan durub*
*Özün uşaq görəsən.*
*Görəsən hamı evdədi,*
*Ölənləri sağ görəsən.”*

Olduqca sadə dildə yazılan, lakin ruhu mürəkkəb şəkildə dalğalandıran misralarla başlamaq istədim yazıma. Ramiz Rövşənin ötüb keçən günləri, xatirələri, həyatımızda silinməz izlər qoyan insanların nəfəsinin dəyərini birləşdirdiyi o evdən danışmaq istəyirəm çünki Hamının bir ”bizim ev”-i var. Hansı ki o ev haqqında danışanda ürək döş qəfəsinə sığmır, hansı ki o evdən danışanda daxildə yatan ən balaca yanımız yuxudan oyanır. Uşaqları sakitləşdirmək də heç asan deyil!

Biz böyüklərə ayrılığı, ağrını, kədəri, ölümü rahatlıqla başa sala bilərik. Sıra uşaqlara gələndə isə dilimiz topuq vurmağa başlayır; onların anlaşılmaz baxan gözləri, təsəlli axtaran ürəkləri işimizi çətinləşdirir və nitqimiz sanki öz qabiliyyətini itirir.

Bu gün mən və mənim uşaqlığım bu çıxılmaz küçənin astanasında, bütün çılpaqlığı ilə görünən ayrılığın yasını tutmağa başlamışıq. Reallıqla xəyalların, yuxularla kabusların, məntiqlə qəlbin savaşını veririk. O dayanmadan öz xatirələrini danışmaq istəyir, mənsə çarəsizliyin verdiyi xəyal qırıqlığı ilə onu dinləməyə çalışıram.

Mən artıq o daşların son günlərini,







anlarını yaşadığını anlayıram. O isə həmin daşlardan sıxılmadan, yorulmadan hər gün bir otağı inşa edir, əşyalarını yerləşdirir. Hətta qonaqları qarşılamağa başlayır, səsləri canlandırır, sonra donaraq üzümə baxır:

**- Bizim bu evin qapısı hanı?**

**- Niyə çılçıraqlarımızın yeri boş qalıb?**

**- Mən gedəndə burada pərdələrimiz vardı, axı indi heç pəncələrimiz görünmür?!**

**- Bəs mama, papa, onların səsi niyə eşidilmir? Qonaq gediblər harasa?**

Yaxşı ki bu suallar uzanmadan, o özünü yenə xəyalların isti qucağında tapır. Mənə də susmaq qalır.

Bilirsiniz, ümidlə yaşamaq və ”onsuzda bir gün qayıdacağam”- deyib sağollaşmamaq insanı xəyallarda diri sax-



layır. Gördüyümüz, qarşılaşdığımız həqiqətlər isə insanı sarsır, üsyan etdirir, kədərə boğur və sonda yaşadığımız o xəyal qırıqlığı çarəsizliyi qulağımıza fısıldayır:

”Burada daha heç nə əvvəlki kimi olmayacaq.”

Sonra daha da qəddarlaşır:

”Burada daha bu ev də olmayacaq”

Hər daşı bir arzuyla qoyulan bu evlər böyük bir tarixə şahidlik edib, bir buldozer zərbəsiylə dağılacaq.

Şikayətim yoxdur əlbət, nə buldozerçidən, nə də buldozerdən. Bəlkə yerində daha böyük gözəlliklər ucalacaq. Xatirələrin üstündə daha fərqli xatirələr qol-budaq atacaq.

Biz sadəcə özümüzlə dərdləşirdik.

Bizim ev...necə içdən səslənir..Mən sinif yoldaşlarımdan...Kəmalədən,Cəmilədən,Şamildən,Pərvanədən,Şahindən,Rövşəndən,Naibədən,Mətanətdən,Təranədən,Nazimdən şanslıydım...Çünki bizim evimizin daşlarına üzümü sürtüb dərləşə bildim,vidalaşa bildim...Sanki onlar evlərini tapmadıqları üçün onlardan utandım...Amma onlar uşaqlıqda o qədər bizdə olmuşdular ki...Bizim evimizi məktəbimizdən bircə hasar ayırırdı...Arxaya çönəndə onların da mənimlə bərabər bizim evlə vidalaşdıqlarını gördüm...

”Saç ağarır qoy ağarsın! Qoy var olsun ellərimiz. Yenə şirin diləklərdə, Ürəklərdə yaşariq biz

Gəl əzizim, keçənləri Yada salaq dönə-dönə Ötən günə gün çatarmı Calasan da günü günə...” - B. Vahabzadə

**Aybəniz Rüstəmova**
**47 saylı məktəbin müəllimi**

## *Əfsanəvi pilotun nəticəsi Moskvaya atom bombası atılmasını təklif edib*

**Bir zamanlar əfsanəyə çevrilmiş sovet təyyarəçisi, Sovet İttifaqı Qəhrəmanı Valeri Çkalovun nəticəsi Darya Boqdanova hesab edir ki, Ukrayna müharibəsinin bitməsi üçün Moskvaya atom bombası atılmalıdır.**

Darya əlavə edib ki, hətta bu zərbənin sponsorluğunu da üzərinə götürə bilər.

Xirosima və Naqasakiyə atılan atom bombalarının o vaxtki münaqişəni dayandırdığını misal gətirərək, o, Moskvanın vurulmasının da ”münaqişənin gözəl bir şəkildə sonunu gərirəcəyini” bəyan edib.

Hazırda İsrail vətəndaşı olan Darya Boqdanova, nüvə partlayışından sonra, insanların taleyini düşünmədiyini və hətta anası və nənəsinin də bundan zərər çəkəcəyini vecinə almadığını bildirib. ”Moskvalılara da hava həyəcanı siqnallarını eşitmək mane olmaz”- deyə Darya bəyan edib.

”Ot kökü üstə bitər” deyiblər, amma deyəsən bu dəfə ot başqa yeri üstə bitib.

## *Yaponiyanın baş naziri Kim Çen I ilə görüşmək istəyir*

**Yaponiyanın baş naziri Fumio Kisida bəyan edib ki, mümkün qədər tez bir vaxtda KXDR-nın rəhbəri Kim Çen I ilə görüşmək lazımdır.**

”Mən Kim Çen I-ya Yaponiya- Şimali Koreya problemlərinin həll olunması və hər iki ölkə üçün yeni dövrün başlaması məsələləri ilə bağlı yüksək səviyyədə görüş təklifləri göndərirəm”- deyə Kisida bildirib.

Bu barədə məlumat verən Kyoda agentliyi qeyd edir ki, bu məqsədlə müxtəlif kanallar vasitəsi ilə iş aparılır. Lakin gələcək danışıqlara təsir edilməməsi üçün görüşün bütün detalları açıqlanmır.

## *Almaniyada miqrantların ölkədən çıxarılmasını tələb edirlər*



**Almaniya Fesrrativ Respublikası aktiv şəkildə, ölkədə qalmaa hüquüu olmayan miqrantlarln çıxarılmasını tələb etmək imkanlarından istifadə etməlidir. Bu barədə ”Neue Osnabrücker Zeiting” mətbu orqanına müsahibəsində Sosial Demokrat Partiyasının həmsədri Lars Klinqbay bildirib.**

”Hazırda Federal qurumların belə bir imkanları var və onlar bu imkanlardan istifadə etməlidirlər. Dövlət hərəkət etməlidir və ölkədən deportasiya olunmalı xariciləri qovmalıdır”- deyə Klinqbay bildirib.

**Rüstəm Hacıyev**

# Xoşbəxt gələcəyimizə, işıqlı sabahlarımıza səs verək

**7 fevral 2024-cü il Azərbaycan xalqının tarixinə əlamətdar günlərdən biri kimi yazılacaq. Həmin gün ölkəmizdə növbədənkənar prezident seçkiləri keçiriləcək. Seçkilərdə fəal iştirak etmək hər birimizin vətəndaşlıq borcudur. Bu gün həqiqətən prezidentliyə real namizəd kimi cənab İlham Əliyevin alternativi yoxdur. Məhz İlham Əliyevin illərlə göstərdiyi uğurlu fəaliyyət, xalq və dövlət quruculuğu üçün gördüyü böyük işlər onu əvəzolunmaz şəxsiyyət səviyyəsinə yüksəldib, millətin məhəbbətini, sevgisini və etimadını qazanıb. Elə buna görə də, xalq İlham Əliyevin əbədi prezident seçilməsini istəyir.**

Prezident İlham Əliyev təkcə Azərbaycan xalqının deyil, bir çox dünya xalqlarının sevimlisidir. Sözsüz ki, belə uca zirvələrə yüksəlməsində onun hansı ailədə böyüməsinin də xüsusi əhəmiyyəti var. Prezident İlham Əliyevin Ulu Öndər Heydər Əliyev kimi dühanın ailəsində böyüməsinin böyük şəxsiyyət kimi yetişməsindəki rolu danılmazdır. 2003-cü ildə xalqın böyük dəstəyi ilə Prezident seçilən İlham Əliyev demişdir: ”Mən hər bir vətəndaşın Prezidenti olacağam”. Prezident arxada qalmış 20 il ərzində sözünə sadiq qaldı, hər bir vətəndaşın sevimlisi oldu. Elə bu sadiqliyin nəticəsidir ki, bu gün təkcə böyüklər deyil, hətta azyaşlı uşaqlar da İlham Əliyevə ”mənim Prezidentim” deyə müraciət edirlər.

Xalqların taleyinə, bəşəriyyətin gələcəyinə təsir edən həlledici amillərin sırasında liderlik böyük önəm daşıyır. İllərin, əsrlərin təcrübəsi göstərir ki, tarixi-siyasi, coğrafi şəraitdən, siyasi sistemin xüsusiyyətlərindən asılı olmayaraq, liderlik fenomeni xalqların gələcək taleyində, dövlətin, dövlətçiliyin inkişafında başlıca rol oynayır. Liderlik təkcə öz tərəfdarlarını və yaxud da təmsil etdiyi xalqı arxasınca aparmaq deyil, o həm də tarix yazan, tarixin gedişatına həlledici təsir göstərən bacarıqlı şəxsiyyətdir. İlham Əliyev bu xüsusiyyətlərə malik olan Liderdir.

2003-cü il oktyabr ayının 15-də xalqın böyük dəstəyi ilə Prezident seçilən İlham Əliyev Ulu Öndər Heydər Əliyevin siyasi kursunu 20 ildir ki, uğurla və ləyaqətlə davam etdirir. Prezident İlham Əliyevin rəhbərliyi altında həyatımızın bütün sahələrində uğurlu islahatlar həyata keçirilir. Bölgələrimiz durmadan inkişaf edir, rayonlarımız, şəhərlərimiz getdikcə abadlaşır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında erməni işğalından azad olunmuş ərazilərimizdə bu gün abadlıq və quruculuq işləri aparılır. Azərbaycan dünyanın ən inkişaf etmiş ölkələri ilə yanaşı addımlayır.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında daim inkişaf edən ordumuz ən müasir silahlarla təmin olunurdu. Prezident həmişə çıxışlarında bəyan edirdi ki, ordumuzu gücləndirməkdə başlıca məqsədimiz işğal altındakı torpaqlarımızı azad etmək və ölkəmizin ərazi bütövlüyünə nail olmaqdır. Prezident onu da bəyan edirdi ki, biz Qarabağ probleminin qan tökülmədən, sülh yolu ilə həll olunmasının tərəfdarıyıq. Amma işğalçılıq siyasəti yürüdən Ermənistan isə danışıqlar prosesini uzatmağa can atır, sülhə gedən yolları bağlayırdı. Bu addımı ilə müharibəni qaçılmaz edirdi.

Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında ən böyük qələbəsini 27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində başlanan və 44 gün davam edən Vətən müharibəsində qazandı. Azərbaycanın ərazi bütövlüyü bərpa olundu. Azərbaycan xalqının iftixar və qürur dolu yeni qəhrəmanlıq salnaməsini yaratdı. İlham Əliyev 44 günlük Vətən müharibəsinin Baş qəhrəmanına, qalib Sərkərdəsinə çevrildi. Uğurla başlayan Zəfərlə başa çatan Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə möhtəşəm tarixi qələbə qazanan Azərbaycan ərazi bütövlüyünü təmin etməklə yanaşı, həm də tarixi ədalətin bərpasına nail oldu. 30 ilə yaxın xəyal olunanlar gerçəkləşdi. İlham Əliyev son 200 il ərzində ilk dəfə torpaqlarımızı azad edən Müzəffər Sərkərdə olduğunu bir daha təsdiq etdi.

19-20 sentyabr 2023-cü ildə ordumuzun Qarabağda uğurla həyata keçirdiyi antiterror tədbirləri nəticəsində Ermənistan silahlı qüvvələrinin tör-töküntülərinə və bölgədəki separatçılara sarsıdıcı zərbə vuruldu. Bu zərbə qarşısında duruş gətirə bilməyən düşmən ağ bayraq qaldırıb təslim oldu. Qarabağda separatizmə son qoyuldu. Uğurla başa çatan əməliyyatdan sonra Xankəndi, Ağdərə, Xocalı, Xocavənd, Əsgəran və başqa yaşayış məntəqələri işğaldan azad olundu.

Prezident İlham Əliyev 15 oktyabr 2023-cü ildə xalqın böyük dəstəyi ilə Prezident seçildiyinin 20 ili tamam olan gün Xankəndi şəhərinə səfər etdi. Burada Azərbaycan bayrağını dalğalandırdı. Bu addımı ilə Prezident tarix yazdı. Azərbaycanın 30 ilə yaxın müddətində pozulmuş ərazi bütövlüyünü bərpa etdi. Xalqın böyük sevgisini qazanmış İlham Əliyev 20 ildir ki, Azərbaycana rəhbərlik edir. Bu illər, Azərbaycan tarixinə ”Möhtəşəm 20 il” kimi düşüb. Hələ bu möhtəşəmliyin, əzəmətin ardı yazılır. Hələ İlham Əliyevin rəhbərliyi altında indən sonra Azərbaycan xalqının tarixinə daha şərəfli, daha layiqli səhifələr yazılacaq. Bu gün hamımız böyük inamla Prezident İlham Əliyevə Qalib xalqın Qalib Lideri deyirik. Deyilən bu sözlər hamımızın qəlbindən, ürəyindən süzülüb gəlir. Bu gün İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsidir ki, başımızı uca tuturuq. Bütün seçiciləri Prezident İlham Əliyevə səs verməyə çağırıram. Xalqımız bilsin ki, İlham Əliyevə səs verməklə sağlam, firavan və xoşbəxt gələcəyimizə səs verəcək. Çiçəklənən, daim inkişaf edən Azərbaycan naminə ən düzgün seçimi edəcək. Gəlin xoşbəxt gələcəyimizə, işıqlı sabahlarımıza səs verək!

**Sədaqət Əzimova**
**Əməkdar müəllimi, YAP-ın üzvü,**
**növbədənkənar prezident seçkilərinin**
**təbliğatçısı və müşahidəçisi**

# AŞPA 8372 bosniyalı müsəlmanın qatili Serbiyanı niyə qovmadı? Hanı təzminat?

**1991-ci ildə başlayaraq keçmiş Yuqoslaviyada baş verən vətəndaş müharibəsi başladı. Serb ordusu qarışıqlıqdan istifadə edərək Bosniya və Herseqovinanın Srebrenitsa şəhərində 1995-ci il iyulun 11-də böyük bir qətliama imza atdı.**

II Dünya müharibəsindən sonra Avropada ən böyük insanlıq faciəsi olaraq xarakterizə edilən Srebrenitsa soyqırımı 8372 günahsız bosniyalı müsəlmanın qətlə yetirilməsi ilə nəticələndi.

Öldürülən bosniyalılar kütləvi məzarlıqlarda basdırıldı. Cəsədləri kütləvi məzarlıqlarda aşkarlanan faciə qurbanları şəxsiyyəti müəyyən edildikdən sonra hər il iyulun 11-də Potoçari Memorial Qəbiristanlığında keçirilən mərasimlə dəfn olundu.

Qətllər general Ratko Mladiçin tabeçiliyində olan və ağır silahlarla təchiz edilmiş serb ordusu tərəfindən törədildi. Soyqırım zamanı qadın və uşaqların da qətlə yetirildiyi sənədlərlə sübuta yetirildi. Serb ordusuyla yanaşı "Əqrəblər" adı ilə tanınan Serbiya xüsusi təhlükəsizlik dəstələri də qətliamın törədilməsində iştirak etdilər. BMT-nin Srebrenitsaya 400 silahlı Hollandiya sülhməramlısı yerləşdirməsinə baxmayaraq soyqırımın qarşısını almaq mümkün olmadı.

Serbiyada son illərdə bu qətliamın baş verdiyini inkar edənlərin sayı çoxalır, bəziləri isə qətliamı törədənləri qəhrəman sayırlar. 25 aprel 2013-cü ildə, Serbiya Prezidenti Tomislav Nikolits qətliam üçün üzr istədi: "Mən diz çökür və Serbiyanın Srebrenitsada baş verən qırğın üçün bağışlanmasını xahiş edirəm. Mən bəzi şəxslər tərəfindən bizim dövlətimiz və xalqımızın adından edilən bu cinayətlər üçün üzr istəyirəm".

Üzürü günahından betər bu açıqlamadan sonra düşünmək olar ki, Serbiya hökuməti bosniya müsəlmanlarına təzminat ödəyəcək.

Hətta 15 yanvar 2009-cu ildə Avropa Birliyinin Parlamenti böyük səs çoxluğu ilə (556 leyhinə, 9 əleyhinə və 22 tərəfsiz) 11 iyulun Avropa Birliyində Srebrenitsa soyqırımı günü kimi yad edilməsi ilə bağlı qətnamə qəbul etdi. Bosniyalı serb siyasətçiləri belə bir qərarın Bosniya Serb Respublikası tərəfindən qəbuledilməz olduğunu əsas gətirərək qətnaməyə etiraz etdi. Hələ ki, AŞPA-dan, AŞPA-dan bu məsələ ilə bağlı heç bir addım atılmayıb.






Nədəndirsə, bilmirəm AŞPA-nın "ədalət prinsipləri" "əzilən" tərəf yalnız xaçpərəstlər olanda işə düşür. Məsələn, "əzilən" ermənilərə (halbuki, heç bir erməninin burnu qanamayıb) görə mütləq Azərbaycan cəzalanmalıdır. O zaman Srebrenitsadakıserblər tərəfindən soyqırıma məruz qalan 8372 günahsız müsəlmanın qanı niyə batırılır? "Ədalət prinsipləri"niz müsəlmanları görəndə şahə qalxmadı?Hə axı siz əvvəlllərdə müsəlman öldürüləndə "görməmisiniz". 1994-cü ildə, təxminən yüz gün ərzində 800 min tutsi və huduların öldürməsi hadisəsidir. Soyqırımı həyata keçirən Hutu hökumətinin o dövrdə ən yaxın müttəfiqi Fransa olması səbəbiylə Ruanda soyqırımından ən çox məsul tutulan ölkədir.

Əlcəzair soyqırımı isə sır Fransanın əməlidir. 1954-62-ci illərdə davam edən müstəqillik mübarizəsi əsnasında Əlcəzair qiyamını örtbasdır etmək üçün 1.5 milyon insan qətli olaraq qəbul edilib.

Yeri gəlmişkən, 1999-cu ildən Serbiyanın nəzarətindən çıxarılaraq BMT-nin himayəsində olan Kosovo 2008-ci il fevralın 17-də müstəqilliyini elan edib. Bu qərardan dərhal sonra ABŞ və bəzi Avropa dövlətləri Kosovonun müstəqilliyini tanıyıb. Ancaq dünya birliyinin bu məsələdə rəyi haçalanıb. Kosovonun müstəqilliyinə ilk etirazlardan biri Azərbaycanın paytaxtından gəlib.

Həmin gün - fevralın 17-də brifinq keçirən Azərbaycan Xarici İşlər Nazirliyinin sözçüsü dövlətin mövqeyini belə açıqlayıb: "Kosovonun müstəqilliyini elan etməsi beynəlxalq hüquq normalarına zidd və qanunsuzdur".

Bunun ardınca - fevralın 26-da prezident İlham Əliyev Azərbaycan sülhməramlılarının Kosovodan geri çağırılması üçün Milli Məclisə müraciət göndərib.

Kosovoda Türkiyə taborunun tərkibində fəaliyyət göstərən 34 nəfərlik sülhməramlı Azərbaycan taqımı Milli Məclisin martın 4-də keçirilən iclasının qərarıyla geri çağırılıb. Aprelin 15-də taqım Azərbaycana qayıdıb.

**Bax, bütün bunların əvəzinə Azərbaycanı hər zaman dost, qardaş saymalı olan Serbiya hökuməti ən ağır zərbəsini Azərbaycana belə vurdu... Namərdcəsinə! Səlibçilərin qatilliyi, terrorçuluğu kütləvi insan qanı axıtmaq prinsipləri məhz namərdliklərindən irəli gələn vərdişdir.**

Əntiqə Rəşid

---

**Ötən gün könlümə heyva düşdü. Yaxınlığımızdakı meyvə, tərəvəz , göy-göyərti "polkası"ndan həmin meyvədən 2-3 kq almaq üçün yaxınlaşdım. Əlimdə 3 manat tutdum ki, təxminən 3 kq heyva alaram. Satıcıdan qiyməti soruşanda, necə deyərlər gözüm kəlləmə çıxdı. 1 kq (4 heyva) 2 manat 80 qəpik.**



# 4 heyva 2.80, 10 yumurta 3 manat: Qiymətlərin "əl yandırması" səbəbləri...

Təxminən dekabr ayının əvvəlində həmin heyvadan 5 kq almışdım, qiymət də 1 manata. Aradan nə keçdi bilmirəm, cəmi 1 ay 10 gündən sonra bu heyvaya nə oldu ki, qiyməti 2 dəfədən qalxdı. Əslində son 1-2 ayda fantastik şəkildə qiyməti qalxan digər meyvə- tərəvəz, ərzağın qiyməti hamıda böyük ruh düşkünlüyü yaradıb. 1 kq düyünün qiyməti 3 manat, 60 qəpik, 1 kq xurmanın 8-20 manat arası , yemək hazırlamaq üçün yağ: Ankor: 1 kq 19.95 qəpik, Gerda: 1 kq 20.50 qəpik, 10 yumurta isə 3 manat...Uzunçuluq etmək istəmirəm, qiymətlərin hansı səviyyədə olduğunu hamınız bilirsiniz...

Azərbaycan vətəndaşı olaraq ərzağın və digər məhsulların günbəgün artan qiyməti məni bərk narahat edirdi və bu kimi malların qiymətinin belə sürətlə qalxmasına anlam verə bilmirdim. Nəhayət, iqtisadçı alim, millət vəkili Vüqar Bayramov narahatçılığımıza son qoydu.

O bildirib ki, Azərbaycanın qeyri-neft ixracatı 2023-cü ilin 11 ayında əvvəlki ilin uyğun dövrü ilə müqayisədə 10.5 faiz artaraq 3.033 milyard dollara çatıb:"Qeyri-enerji ixaracatının 33.1 faizi Rusiyanın, 24.0 faizi Türkiyənin, 9.9 faizi Gürcüstanın, 5.1 faizi İsveçrənin, 3 faizi Qazaxıstanın, 2.5 faizi Türkmənistanın, 2.4 faizi Ukraynanın, 2 faizi Birləşmiş Ərəb Əmirliyinin payına düşüb". Bu xəbər yeni ilin demək olar ki, hələlik ən yaxşı xəbəridir. Daha sonra iqtisadçı alim qeyd edir ki, bu dövrdə bir sıra qeyri-neft məhsullarının ixracatında artım qeydə alınıb:"Belə ki, meyvə ixracı 22 faiz, təzə tərəvəz - 4,2 faiz, meyvə və tərəvəz şirələri - 38,7 faiz, meyvə və tərəvəz konservləri - 23 faiz, təbii üzüm şərabları və üzüm suslosu - 13,7 faiz, marqarin, qida üçün yararlı digər qarışıqlar - 40,3 faiz, polipropilen - 73,6 faiz, polietilen - 32,6 faiz, sement klinkerləri - 17,6 faiz, pambıq ipliyi - 35,6 faiz, bentonit gili - 2,6 faiz artıb. Bütün bunlarla yanaşı bəzi ixrac məhsullarımızda azalma qeydə alınıb. Həmin dövrdə kartof ixracı 9 faiz, şəkər - 30,5 faiz, bitki yağları - 28,7 faiz, çay - 62,2 faiz, tütün - 63,4 faiz, pambıq lifi - 9,1 faiz, emal olunmamış alüminium - 19,6 faiz, mineral gübrələr - 9,6 faiz, qara metallardan çubuqlar - 18,6 faiz, qara metallardan borular - 15,1 faiz, qara metallardan yarımfabrikatlar - 57,9 faiz azalıb.

**Bir sözlə, V.Bayramovun sözündən belə anlamaq olar ki, Azərbaycanda ərzağın, meyvə-tərvəzin qiyməti ona görə əl yandırır ki, bu məhsulların ixracı kəskin artıb. Yəni, vətəndaşın tələbatı yüksək olan bu mallar elə yüksək qiymətlə də xaricə satılır. Yəni xaricə mal satıb ciblərini dolduranların canı sağ olsun, Azərbaycan xalqı ucuz qiymətə meyvə-tərəvəz, digər ərzaqlar alıb yeməsə də olar! Zatən, aya 400-500 manata fəhlə işləyənlərin heç mövsümündə də meyvə-tərəvəz almaq imkanı yox dərəcəsində olur. Alqışlayıram, qoy məhsulumuzdan ruslar yesin, ərəblər yesin, biz yeməsək də, olar, indiyənə qədər yemədik, öldük ki?**

Əntiqə Rəşid

---

# Mkrtçyan: Qarabağlı erməni uşaqlar yay tətilini Macarıstanda keçirəcək

**Təəssüf ki, 30 il Qarabağdan köçkün düşən uşaqların heç biri xarici bir ölkədə istirahətə, yaxud, yay tətilinə aparılmayıb.**





Adalet.az xəbər verir ki, amma hazırda Qarabağı könüllü tərk edən ermənilərin uşaqları istirahəti - yay tətili Macarıstanda təşkil edilməsi imkanı müzakirə edilir.

Erməni mediası yazır ki, bu günlərdə Əmək və sosial məsələlər üzrə nazir Narek Mkrtçyan Macarıstanın ER-dakı Fövqəladə və səlahiyyətli səfiri Anna Maria Şikonu qəbul edib:" Görüş ərzində əmək və sosial müdafiəsi sahəsindəki əməkdaşlığının gələcək istiqamətləri, xüsusilə Dağlıq Qarabağdan məcburi köçmüş şəxslərə dəstək vermək prosesində birgə proqramların həyata keçirilməsi ilə bağlı bir sıra məsələlər müzakirə edilib.

Anna Maria Şiko da nazirliklə əməkdaşlığı vacib hesab edərək qeyd edib ki, Qarabağdan gələnlərə dəstəyinə yönəlmiş proseslərdə lazımi səylər göstərməyə hazırdırlar. Səfirin təklifi ilə həmin uşaqların istirahəti yay tətil ərzində Macarıstanda təşkil etmək imkanı müzakirə edilib.

Nazir Mkrtçyan səfirin təklifini alqışlayaraq qeyd edib ki, oxşar proqram Sloveniya və Kipr ilə artıq həyata keçirilib ki, onun çərçivəsində həm Qarabağın, həm də Ermənistan Respublikasının sərhədyanı icmalarının uşaqları təhsil və maarifləndirici fərqli tədbirlərdə iştirak edərək bu ölkələri ziyarət etmək imkanı əldə ediblər.

Əntiqə

---

## *Borrel yenə narahatdır*



**Ermənilərin gününə ağlayan Avropa İttifaqının daxili siyasət və təhlükəsizlik komitəsinin rəhbəri Cojep Borrel, gözlərinin yaşı qurumamış, indi də Afrikanın Mali, Niger və Furkina-Faso dövlətlərində Rusiyanın təsirinin artmasından narahat olduğunu bəyan edib.**

Borrel bildirib ki, bu üç Afrika ölkəsi EKOVAS regional təşkilatından çıxmaqla bağlı qərar verərək, yeni yaradılacaq qrupa qoşulmaq istəyirlər.

"Güman edirəm ki, Malidə artıq təsir qüvvəsini artıran Rusiya, digər iki dövlətdə də tezliklə buna nail olacaq. Bu isə, adı çəkilən Afrika regionlarda yeni geosiyasi konfiqurasiyanın yaranmasına gətirib çıxaracaq"-deyə avrodiplomatiyanın rəhbəri bildirib. Borrel və onun kimi digər avropalı siyasilər elə bilirlər ki, guya "harda aş varsa, onlar orda baş olmalıdırlar". Yoxsa o "aşın" dadı ola bilməz.

Rüstəm Hacıyev

---

## *Rusiya XİN-dən Ermənistana xəbərdarlıq*

**Ermənistan NATO ilə yaxınlaşmaq istəyirsə, bunun nəyə gətirib çıxaracağını anlamalıdır.**

Adalet.az xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bu gün keçirdiyi brifinqdə İrəvanın NATO ilə yaxınlaşması haqqında danışarkən bildirib.

Onun sözlərinə görə, əgər kimsə (NATO ilə - red.) yaxınlıq istəyirsə, bunun nə qədər təhlükəsiz olduğunu və nəyə gətirib çıxaracağını başa düşməlidir.

Zaxarova qeyd edib ki, ilk növbədə Ermənistanın özünə, onun milli maraqlarına nəyin sərfəli olduğunu anlamaq lazımdır.

"Xəritəni açıb bu ölkənin hansı regionda, hansı qonşular arasında yerləşdiyini görmək, tarix kitablarını oxumaq lazımdır", - Rusiya XİN sözçüsü vurğulayıb.

# Fransa şirkətlərini və "Abşeron"u "qaz"layan TotalEnergies"i ölkədən qovun! - ANALİZ

**Xəbər verdiyimiz kimi, Fransa Senatı 2023-cü il dekabrın 1-də təklif olunan "Azərbaycanın Dağlıq Qarabağa hərbi təcavüzünü pisləmək və Ermənistan Respublikasına qarşı növbəti təcavüz cəhdlərinin və ərazi bütövlüyünün pozulmasının qarşısının alınmasına" yönəlmiş partiyalararası qətnaməni müzakirə etdi.**

Gözlənildiyi kimi, qətnamə təxminən yekdilliklə - 336 lehinə, 1 əleyhinə səslə qəbul olundu. Qətnamədə ermənilərin Qarabağa qayıtmaq hüququna da təminat verilməsi tələb olundu.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi yubanmadan Fransa Senatının qətnaməsi ilə əlaqədar bəyanat qəbul etdi. Bəyanatda Fransa şirkətlərinin Azərbaycandan çıxarılması istənildi. Bilirsiniz, hazırda Azərbaycanda 40-dan çox Fransa şirkəti fəaliyyət göstərir. Fransa şirkətlərinin Azərbaycan iqtisadiyyatına 2,4 milyard dollar investisiya qoyduğunu, ötən il iki ölkə arasında ticarət dövriyyəsinin 1,1 milyard dollar təşkil etdiyini rəsmən elan edildi. Fransa şirkətləri Azərbaycanda dövlət investisiyaları hesabına reallaşdırılan layihələrdə iştirak edir.

Hətta baxmayaraq ki, Fransa heç vaxt Azərbaycanın xeyrinə heç bir addım atmayıb və 44 günlük Vətən müharibəsindən sonra təcavüskar bəyanat və açıqlamaları ilə Azərbaycana zərbə vurmağa çalışır. Amma yenə də ölkəmizdə önəmli sima olaraq mənfəət qazanmaqdadır. Məsələn, bu ilin iyul ayında Fransanın "TotalEnergies" şirkəti Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə əməkdaşlıq çərçivəsində Xəzər dənizində yerləşən "Abşeron" qazkondensat yatağının işlənməsinin birinci mərhələsi çərçivəsində təbii qaz hasilatına başlandığını elan etdi. "TotalEnergies" şirkətinin iyulun 10-da yaydığı məlumatda deyilirdi ki, "TotalEnergies" və onun tərəfdaşı SOCAR Xəzər dənizində, Bakı şəhərindən təxminən 100 kilometr cənub-şərqdə "Abşeron" qaz-kondensat yatağının işlənməsinin birinci mərhələsində qaz hasilatına




başlayıb. "Birinci mərhələdə sualtı hasilat quyusu SOCAR-ın Neft Daşlarındakı mövcud qurğuları ilə əlaqəli yeni qaz emalı platformasına birləşdirilib.

Gündə 4 milyon kubmetr qaz və 12 min barel kondensat hasilat gücünə malikdir.

Qaz Azərbaycanın daxili bazarında satılacaq". Belə olan halda Fransa şirkətlərinin ölkəmizi tərk etməsi "faciə" ola bilərmi ? Yox!

Azərbaycan Fransa ilə ticarət əlaqələrinə 1993-cü ildə başlanıldığını deyən iqtisadçı alim, millət vəkili Vüqar Bayramov i Yenipress.az-a danışıb ki, bu əlaqələr 2022-2023-cü illərdə pik dövrünü yaşayıb. 2022-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 274 milyon ABŞ dolları olub ki, bunun da 229 milyon dolları Fransadan idxalın payına düşüb. 2023-cü ildə isə dövriyyə 514 milyon dollara çatıb ki, bunun da 382 milyon dolları idxaldır.

O bildirib ki, 2023-cü ildə Fransadan 40 milyon dollar dəyərində dərman preparatları, 10 milyon dollar dəyərində traktorlar, bundan başqa, kərə yağları, müxtəlif qidalar, şərablar, parfümeriya və kosmetika məhsulları idxal edilib. Azərbaycan isə Fransaya enerji sahəsində - xammal və strateji məhsullar göndərib.

V.Bayramov vurğulayıb ki, Fransadan idxal edilən məhsulları digər ölkələrdən də almaq mümkündür:

"Dərman preparatlarını Türkiyə, Rusiya və Almaniyadan, şərab məhsullarını İtaliya, Gürcüstan və Moldovadan idxal etmək olar. Azərbaycanın Fransaya göndərdiyi enerji məhsullarının da regionda böyük bazarı var. Bu məhsullara Türkiyə və Gürcüstanda da tələbat böyükdür. Bir sözlə, Azərbaycanla ticarət əlaqələrinin pozulması Fransa üçün illik 400 milyon dollar ziyana bərabər olacaq".

İndi tək Milli Məclisin üzvləri yox bütün Azərbaycan xalqı tələb edir ki, Fransanın "Acmat" şirkətinin istehsalı olan çoxməqsədli "Bastion" zirehli texnikası, daha sonra SEZAR artilleriya sistemləri və MISTRAL 3 raket komplekslərі Azərbaycanı rahat vurmaq üçün Ermənistana göndərildikdən sonra Total da daxil olmaqla, bütün Fransa şirkətləri Azərbaycandan çıxarılsın! Bəlkə Fransa onun iqtisadiyyatına qəpik qədər qatqısı olmayan Ermənistanı yenə də dəstəkləyəcəkmi?

**Bu qərarı həyata keçirmək isə prinsip məsələsidir!**

**Əntiqə Rəşid**

# Bəşərin ilk fahişəsi, ilahə Anahidin heykəli İrəvana gətirilir

**Hazırda bütün Ermənistan sevincə qərq olub və bu sevinci qürurla yaşayırlar. Bələki, Ermənistan parlamentinin spikeri Alen Simonyan Telegram kanalında sevinclə yazıb:**

"Bu gün məlum oldu ki, 2024-cü ilin sentyabrında Britaniya muzeyində saxlanılan müqəddəs ilahəmiz Anahitin bürünc büstü ilk dəfə İrəvanda sərgilənəcək. Çox şadam ki, biz uzun müddət müzakirə olunan bu təşəbbüsü reallığa çevirə bildik. Biz Ermənistanda Anahit ilahəsini çoxdan gözləyirdik".

Yəqin ki, bilirsiniz, Anahit və ya Anais erməni mifologiyasında bərəkət, sağlamlıq, zəka, təbiət və fahişəlik ilahəsi. Erkən dövrlərdə Anahit müharibə ilahəsi olmuşdur.E.ə. III əsrdən başlayaraq b.e. I əsrinə, yəni xristianlığın yayılmasına qədər bu ilahə Mitra ilə birlikdə hayların əsas tanrıçası olmuşdur ki, bir çox mütəxəssislər həmin dövrü Anahit məbədlərinin təsiri ilə fahişəliyin geniş yayılması dövrü kimi xarakterizə edirlər.

Erməni müəllifləri Anahiti daha çox Afrodita və Artemida ilə müqayisə etsələr də, adları çəkilən iki ilahədən fərqli olaraq Anahit daha çox fahişəlik ilahəsi kimi şöhrət tapmış, onun şərəfinə müxtəlif ərazilərində ucaldılan və yüzlərlə erməni qızlarının və gənc oğlanların saxlandığı məbədlər dünyanın müxtəlif ölkələrindən gələn kişilər tərəfindən ziyarət edilmişdir. Strabondan başlayaraq antik tarixçilərin əksəriyyəti Anahitin





fahişəlik ilahəsi olması və onun şərəfinə inşa edilmiş məbədlər haqqında maraqlı məlumatlar verirlər. Starbon xüsusi olaraq qeyd edir ki,

"Anahitə ibadət edənlər fahişəliyə qurşanmışdılar həmin vaxt Böyük Ermənistan hökmdarı Trdat Anahitə nəcib qadın, erməni xalqının isməti, şöhrəti və canlandırıcısı, böyük Aramazdın qızı və arvadı kimi həmd edirdi. Bu ölkənin qanunlarına görə adlı-sanlı ailələrin qızları yalnız ilahənin məbədində uzun müddət ərzində fahişəliklə məşğul olduqdan sonra ərə gedə bilərdilər. Bundan sonra onların ərə getməsində heç bir problem olmurdu". Rus tədqiqatçısı V.L.Veliçko dediklərini qulağımda sırğa elədim: "Erməni qadınları öz xoşları, bəzən də zor gücünə digər xalqların - İran əsgərlərinin, türklərin, gürcülərin və dağlıların məşuqələri olmuşlar. Erməni qızları və qadınlarının bu məşuqları öz bəkarətini çoxdan itirmiş həmin məşuqələrinə ləyaqətsiz vücudlar kimi baxmışlar. Elə bu səbəbdən də ermənilərin damarlarında həddən artıq müxtəlif millətlərin qanları axır".

**Alman filosofu Fridrix Engels bir erməni "ilk"indən bizi belə xəbərdar edir: "Korinfdə və hətta Hindistan məbədlərində qulluq edən ilk rəqqasələr və fahişələr erməni kənizləri olmuşlar". "Anaların milliyyəti olmur" deyənlərə cavab olaraq söyləyim ki, fahişəliyin banisi , ermənilərin sevimli anası olan Anahit "dünyanın qədim peşəsi"ndə bir "ilk"dir . Dara-bara salıb, "yox, belə deyil" deyənlərə də bildirim ki, ermənilərin fahişəlik ilahəsi barədə fransız tarixçisi Pyer Düfur XIX əsrin ortalarında dərc olunan "Fahişəliyin tarixi" kitabında yazır: "Onun (ilahənin) şərəfinə ətrafında sevgi ayinlərinin icra olunduğu böyük məbəd tikilmişdi. Erməni qızları bu məbəddə yalnız xaricilərlə cinsi əlaqədə olmağa razılıq verirdi. Qazanılmış pulları qadınlar səcdəgahda ilahəyə nəzir qoyurdular".**

**Əntiqə Rəşid**

# Akar: Ciddi itkilər var, Ukrayna darmadağın olub



**Hazırda Ukrayna müharibəsinin uzanmasına dair ciddi siqnallar alırıq. Bunu Ermənistanla əlaqələndirmək üçün qeyd etmək lazımdır ki, hansı səbəbdən olursa-olsun, Ukrayna bir müharibəyə girdi. İndi müharibənin qalibi yoxdur, Ukrayna darmadağın oldu. Yeni Qərb nə verirsə-versin, nə qədər dəstəkləyirsə-dəstəkləsin, Ukrayna xalqı bəlkə də tarixinin ən acı, çətin günlərini yaşayır. Bundan dərs götürmək, dinc, sabitliyə aparan yol və üsulları seçmək lazımdır.**

Adalet.az xəbər verir ki, bu sözləri ARB 24-ə müsahibəsində Türkiyə Böyük Millət Məclisinin Müdafiə komissiyasının sədri, sabiq müdafiə naziri Hulusi Akar deyib.

Akar müharibənin uzanmasının dünyada və Qara dəniz bölgəsində yaradacağı risklərdən danışıb, danışıqların dərhal bərpa edilməsinin vacibliyini vurğulayıb:

"Müharibənin uzanması, bölgəmiz və ətrafımız baxımından çox ciddi risklər doğurur. Son günlərdə daha da şiddətlənərək davam edən raket və dron hücumları müharibənin uzanacağını göstərir. Biz həm Rusiya, həm də Ukrayna ilə danışırıq. İki tərəfə də çox açıq və şəffaf şəkildə diplomatik mərhələni yenidən canlandırmağı, ədalətli və davamlı sülhün təmini üçün hər şeyi etməyin lazım olduğunu deyirik. Toqquşmaların əvvəlindən bu fikri müdafiə edirik. Qlobal ərzaq bazarında taxıl qıtlığı məsələsi var idi. 33-34 milyon ton taxılın ehtiyac sahiblərinə çatdırılmasını təmin etdik. Burada ədalətli olmaq lazımdır. İkitərəfli təmasların davamı üçün Rusiyanın da bəzi təklifləri var, bunlara da əhəmiyyət vermək və dəstəkləmək vacibdir. Digər tərəfdən Türkiyədən əsirlərin dəyişdirilməsi, ikitərəfli əlaqələrin inkişaf etdirilməsi məsələsində bəzi tələblər oldu. Əvvəldən humanitar yardımların verilməsini davam etdiririk".

Onun sözlərinə görə, Türkiyənin istəyi iki ölkənin dərhal razılaşması, dialoq başlaması, diplomatik təmasları davam etdirməsi və Qara dənizin heç bir halda rəqabət mövzusuna çevrilməməsidir: "Çünki burada rəqabət başlasa, ciddi şəkildə problemlər yaşayarıq. Ona görə də əvvəldən Montrö müqaviləsinin çox ciddi nizam-intizam içərisində tətbiqinə nəzarət edirik. Bugünədək heç bir problem olmadan bunu etdik. Qara dənizdə mina təhlükəsi olur. Türkiyə, Ruminiya və Bolqarıstan olaraq birlikdə minaya qarşı tədbirlərlə oradakı problemləri idarə edə biləcəyimizi gördük və protokol imzaladıq. Dolayısı ilə kənardan hansısa bir ünsürün gəlməyinə, girməyinə ehtiyac yoxdur. Çünki Rusiya da buna qarşılıq verə və nəzarətdən çıxacaq rəqabət, eskalasiya başlaya bilər. Buna imkan verilməməlidir. Biz bütün hallarda iki ölkə ilə də görüş və danışıqlar yolu ilə mütəmadi şəkildə diplomatik yolları təklif və təlqin etməklə axan qanın durmasını, sülh danışıqlarına gedən yolun açılmasını istəyirik. Görüşlər keçirilməlidir, olmasa, problemlər yaşanır. Bizim "İnsanı yaşat ki, dövlət yaşasın" düsturumuz var. İnsanı yaşatmasanız, dövləti yaşatmaq mümkün deyil. Çox ciddi itkilər var, insanlar ölür. Tarixdə bu formada dövlətlərin ortadan qalxmasının örnəkləri var. Hər kəs ağlını başına yığmalı, görüş platforması olmalıdır. Qərbdən gələn təşviqləri ağıllı və ölkə mənfəətləri çərçivəsində dəyərləndirmək Ukrayna və Rusiyanın xeyrinədir".

# "Ukraynanı silahla təmin etmək sülhə gedən yoldur"

**"Rusiyanın qələbəsi İranı, Şimali Koreyanı və Çini cəsarətləndirəcək. Bu, Avropanın təhlükəsizliyinə, ABŞ-ın təhlükəsizliyinə təhdiddir. Ona görə də Ukraynanın dəstəyi ABŞ-ın maraqlarına xidmət edir".**

Adalet.az xəbər verir ki, bu sözləri NATO-nun baş katibi Yens Stoltenberq ABŞ dövlət katibi Entoni Blinkenlə birgə mətbuat konfransında deyib. "Birləşmiş Ştatlar Ukraynaya Rusiyanın döyüş qabiliyyətinin böyük hissəsini məhv etməkdə kömək etdi. Mən prezident Bayden və sizin Ukraynanı dəstəkləmək və buna nail olmaq üçün Konqreslə işləmək barədə açıq öhdəliyi alqışlayıram". Onun sözlərinə görə, uzunmüddətli, ədalətli sülh üçün tərəfdaşların Ukraynaya daha çox silah verməsi lazımdır: "Danışıqlar masası ətrafında baş verənlər döyüş meydanındakı vəziyyətlə qırılmaz şəkildə bağlıdır. Beləliklə, əgər biz davamlı, ədalətli sülh istəyiriksə, Ukraynanı daha çox silah və sursatla təmin etməliyik. Ukraynaya silah tədarükü sülhə aparan yoldur", - deyə NATO-nun baş katibi vurğulayıb.



**Onun sözlərinə görə, o, əmindir ki, bütün NATO müttəfiqləri Ukraynanı dəstəkləməkdə davam edəcəklər.**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# Fraqmentlər

## "Üzü dan yerinə"-nin müəllifi Abbas Abdullanın ruhuna sayqılarla

Mənə görə həyatda ən ağrılı an əkib-becərdiyin ağacın quruması, tikdiyin binanın uçması, sevdiyin insanın itirilməsi...Bir sözlə yarpaq tökümüdü. Bunun qarşısını heç nə ilə almaq mümkün deyil. Doğrudur, biz insan olaraq özümüz-özümüzə təsəlli üçün deyirik ki, verən də Allahdı, alan da, yaradan da odur, öldürən də! Bu, doğrudur. Və bu doğru ilə biz barışırıq.

Barışmaya da bilmərik. Çünki başqa bir yol yoxdur. Amma itirdiyimizin kimliyi, nə, nəçi olması vaxtında bilinməyəndə ağrı daha sarsıdıcı olur, daha üzücü olur. Doğru olanlardan biri də budur ki, bununla bağlı xalq şairi Cabir Novruz gözəl bir şeir də yazıb. Və deyib ki, "Sağlığında qiymət verin insanlara!". Çox təəssüf ki, biz bu şeiri də bilirik, hətta əzbər söyləyirik. Lakin əməlimizdə, işimizdə, həyatımızda onu reallaşdırmırıq. Elə bil oturub gözləyirik ki, itirək...və sonra da itirdiyimiz üçün oturub göynəyək...

Yəqin ki, Azərbaycan oxucusu gözəl şairimiz, özünəməxsus koloriti olan Abbas Abdullanı xatırlayır. Onun yaradıcılığına bələddi. Mən şəxsən Abbas müəllimlə "Ulduz" jurnalında redaktor olduğu zaman və sonra Yazıçılar Birliyində işlədiyim illərdə tez-tez zəngləşmişəm, görüşmüşəm, həmsöhbət olmuşam. Buna görə də Abbas müəllimin xatiri də, xatirələri də mənim üçün çox əzizdi, unudulmazdı. Xüsusilə onun mənə müraciəti o qədər isti və doğma idi ki, sanki biz min illər idi ki, bir-birimizə bağlanmışdıq və .... Bu an elə bil hardansa bir meh əsdi deyəsən. O meh xatirə meh idi. Məni Abbas Abdullaya tərəf yönəltdi. Özümdən asılı olmadan əlimi uzadıb onun kitablarından birini götürdüm. Mən üzü Abbas Abdullaya tərəf səmtlənmişdim. Onun kitabı da "Üzü dan yerinə". Bilmirəm bu təsadüfdi, yoxsa elə o doğmalığın diktəsidi. Hər halda iksi də mənim üçün indi xatirələrin ip ucudu. O ip ucundan tutub Abbas müəllimin "Yarpaq tökümü"nü oxuyuram. Abbas Abdulla yazır ki:

*Yarpaq tökümündən*
*yaman qorxuram, əzizim,*
*sən necə?*
*Hər gün yol çəkir gözüm,*
*Yuxuma girirsən hər gecə?*
*Vəfasız yarpaqmı,*
*budaqmı,*
*yoxsa,*
*şıltaq uşaqlar kimi*
*verdiyini geri alan torpaqmı?*

Doğru demisən ,Abbas müəllim! Mən də elə yaşımın bu çağında ruhumun nazilən, qəlbimin üzülən məqamında daha çox və daha tez-tez düşünürəm bu barədə. İtirdiklərim ömrümdən ömür aparır, günümdən gün. Elə bil ki, bütövlüyüm yavaş-yavaş əriyir, ilim aya, ayım günə tərəf əyilir. Və mən bu məqamlarda ən çox ürəyimdə, ruhumda sevgimi düşünürəm. Onun göy üzünə, Tanrı dərgahına doğru yaxınlaşdığını, məndən sonra orda qərar tutacağını indidən hiss edirəm. Və bilirəm ki, nə olur-olsun, Allahım öz verdiyini ortalıqda qoymayacaq. Onu öz himayəsinə alacaqdı. Çünki:

*Ovcuma qızılı xəzəl yığıram,*
*Bu payız özünü çırpır üstümə...*
*Yaydan təngnəfəs - yorğun çıxıram -*
*Bu payız salıbdı cığır üstümə...*

Həqiqətən ömrün payızı öz izini, öz sözünü izinsiz, soruşmadan həkk edir, naxışlayır həyatıma. Bu da təkcə bir ruh, ürək rahatsızlığı yox, həm də sözün bütün mənalarında yaşadığımın bütövlüyü önündə məni baş əyməyə, şükürlər etməyə həvəsləndirir, inandırır. Ona görə ki, bu payıza qədər mən bir yaz yaşamışam, bir yay keçmişəm. Onu misralara köçürmüşəm, ömrümün gününə, çiçəyinə bələmişəm. Bilə-bilə ki, yaydan sonra payız gəlir. Bunu sən də pıçıldayırsan, deyirsən mənə. Özü də o qədər ahəstə və incə bir söz seçimi ilə deyirsən ki, inanmamaq mümkün deyil. Və mən də sənə inananlardan biri kimi qəbul edirəm çəkdiyin mənzərəni də, dinləyirəm dediyin sözləri də:

*Burda yarpaq tökümü*
*yaxınlaşır, əzizim,*
*sizdə necə?*
*Bu gecə gizlicə bizə gəlmişdin.*
*Səni görmədi heç kəs,*
*sən hamını gördün,*
*xoşun gəldi körpələrdən.*
*Doyunca sənə baxmaq üçün*
*iki göz işıq oğurlamışdım səhərdən.*
*Hələ də səni görmək acıyam,*
*Hələ də...*

Görün, daxili tələbat, lap açıq desəm, sevginin gücü nə boydadı. Yaşatdığı həsrətə şair etirazı hansı hikkədədi, hansı üsyandadı! Bunu görmək üçün mütləq sevən gözlə baxmalısan. Əks halda "Şair sözüdür" deyəcəksən. Mən də bunu heç istəmərəm. Çünki şair sözü heç də həmişə yalan olmur. Və bunu yazan, deyən şair də əslində öz sevgisini dolayısı ilə sənin diqqətinə yalan donunda çatdırıb, təqdim edib. Düşünüb ki, bu vasitə ilə könlünə yol tapsın. Necə ki, mən ömrümün payızını sənə belə pıçıldayıram:

*Dağların zirvəsi dumanlanıbdı*
*Ümid də dizini bükübdü səssiz...*
*Gözümü, könlümü duman alıbdı -*
*Mən heç vaxt olmurdum belə həvəssiz...*

Yəqin ki, nədən bu ovqatda olduğumu anladınız. Bildiniz ki, ömür payızının ən böyük zərbəsi təkcə yarpaq tökümü deyil, həm də bilərəkdən, düşünülmüş şəkildə çəkilən çəpərdi, bağlanan yoldu... Gözdən uzaqda dayanmaqdı... Telefonu bağlamaqdı... Bir sözlə unutdurmağa çalışmaqdı...

Amma, sən nə edirsən et, payız öz işindədi, Allahdan gələn sevgi də öz taxtında! Bunu unudulmaz Abbas Abdulla da mənə və hamıya bəyan edib. O yazıb ki:

*Min doqquz yüz filanıncı ilin*
*yarpaq tökümü yadındamı?*
*yaman kövrəldir adamı -*
*sinəsi yaralı,*
*bahardan aralı yarpaqlar*
*yaşıl günlərinin arxasınca*
*qurumuş qollar kimi uzanan budaqlar.*

Mən şeirin bu nöqtəsinə gəlib çatanda bir anlıq isinəndə yumrulanan ahı, hönkürtünü qovub saxladım. Dərindən bir nəfəs almaqla özümü o anın içərisindən çıxarmaq istədim. Amma bacarmadım. Bunun üçün mənə tərəf sənin əlin uzanmalı idi. Və mən də həmişəki kimi o əldən tutub ayaqda dayanmalı, yanında durmalı idim.

Sən əlini uzatmadın... mən də ki...içində olduğum ovqat isə artıq elə içimə də hopmuşdu. İçimdə də payız idi. Yarpaq tökümlü payız. O payız dilimin ucuna gətirdiyi sözlərin də canına, qanına hopmuşdu:

*Sözü də saxlamır dilimin ucu,*
*Kədər iməkləyir bəbəyə tərəf...*
*Elə bil bu payız əlində qayçı -*
*Tələsir, toxunmuş gəbəyə tərəf...*

Dəyərli oxucum, bu nostalji duyğuların sizə nə yaşatdığının fərqindəyəm. Yəqin siz də öz ömrünüzün payızı ilə nəfəs nəfəsə dayanmısınız. Və siz də o payıza qədər olan yolun xəritəsini çəkmisiniz gözünüzün önünə. Hardan başlayıb hara gəldiyinizi özünüz üçün pıçıldayırsınız. Amma unutmayın ki, şair Abbas Abdulla da həmin o xəritəni çəkib, həmin o xatırlatmanı edib. O da ömür payızının yarpaq tökümünə şairanə baxmaqla yanaşı, həm də bu şeir ilə sanki etiraz edib, müqavimət göstərmək istəyib. Necə deyərlər, bir şairlik edib:

*Bir yarpaq tökümündə -*
*Günlərin bir günündə*
*Bürünəcəyəm taleyimə*
*Yansam da, donsam da*
*kimə nə?*
*Baş götürüb çıxacam*
*yaşadığım şəhərdən*
*Gözlə yolumu*
*paralel xətlər kəsişən yerdə.*

Mən də ustadımın, unudulmaz Abbas Abdullanın sözünün işığında öz sözümə, öz misralarıma tərəf baxdım. Elə baxa-baxa da mən də ömür payızımı düşündüm. Təbii ki, baxışımın da, düşüncəmin də qəhrəmanı - QİBLƏSİ SƏN idin! Bunu Allah da bilir, onun bəndələri də. Baxmayaraq ki, sən Allahın verdiyini dilinə gətirmək istəmirsən...amma bu bir gerçəklikdir ki, ömrün payızı öz işini görür . Yarpaq tökümü adamı yaman ağrıdır:

*Sıxıram ovcumda ürəyi didən*
*Ayrılıq ağrısın...amma ki, əbəs...*
*Mənəm bu payızla ürəyi gedən -*
*Bir ovuc su götür yanıma tələs...*

Hə, deyəsən bu yazım kədər notlu doğuldu. Amma mən belə olmasını istəməsəm də, yarpaq tökümü özü öz aurasını yaratdı, öz şəklini çəkdi. Təbii ki, çəkilən şəkilin əsas rəssamı Abbas Abdulla idi. Mən də onun rənglərinə öz rəngimi uyğunlaşdırmaq cəhdləri etdim. İstəyim sadəcə olaraq Abbas müəllimin ruhunu sevdirmək və bir də Sənə yarpaq tökümünü xatırlatmaq... Yavaş-yavaş hazırlaş... o tökülən yarpağın biri də sənin ovcuna düşəcək... Demək istədiyim budur.

Rüstəm Hacıyev

## ABŞ və Avropa Ukrayna ilə məzələnir



*Ukraynanı Rusiya ilə müharibə vəziyyətinə gətirən ABŞ və Qərb üçün bu ölkənin heç bir əhəmiyyət daşımadığını dəfələrlə qeyd etmişik. Onları, Ukrayna və ukraynalıların taleyi qətiyyən maraqlandırmır, yalnız öz maraqları xatirinə bu müharibənin mümkün qədər uzanmasını istəyirlər. Məqsədləri Rusiyanı çökdürməkdir ki, ona da nail ola bilmirlər.*

*Avropa İttifaqı diplomatiyasının başçısı Cozep Borrel etiraf edir ki, onlar uzun müddət Ukraynaya lazımi hərbi yardım göntərməyə tələsməyiblər. "Biz uzun müddət Ukraynaya lazımi hərbi dəstək göstərilməsi üçün qərara gələ bilməmişik. Yalnız Rusiyanın üstünlük qazanmaq imkanları təhlükəsi artdığı vaxtda hərəkətə keçmişik ki, bu da minlərlə insanın həyatı bahasına başa gəlib"- deyə Borrel bildirib.*

*Avrodiplomatın sözlərinə görə, Ukraynaya hərbi yardım göstərilməsi məsələsində dəyişikliklər edilməlidir: "Nə olur olsun, biz bu dəstəyi sonuna qədər davam etdirməliyik".*

*Ümumi vəziyyət isə göstərir ki, Avropanın hərbi sənayesi bu öhtəlikləri yerinə yetirmək gücündə deyil. Ona görə ki, Avropa ölkələri əsasən hər hansı bir təhlükə qarşısında okeanın o tayındakı xozeyinlərinə arxayın olublar. Dünyanın demək olar ki, bütün qaynar nöqtələrində gedən müharibə və münaqişələrdə bu və ya digər formada iştirak edən ABŞ isə bundan istifadə edərək öz hegemonluğunu nümayiş etdirməkdədir.*

*İki ilə yaxındır Ukrayna ərazilərini qanlı döyüş meydanına çevirən, Zelenskiyə "sonadək arxandayıq" deyərək "qaz" verən Co Bayden, bu gün söz verdiyi 60 milyard dollarlıq köməyi etməyi bacarmadı. ABŞ Senatı Ukraynaya hərbi kömək məqsədiylə bu vəsaiyin ayrılmasını əngəllədi. Ukrayna bu gün faktiki olaraq meydanda tək qalmaqdadır.*

*Vəziyyətdən istifadə edərək, cəbhədə hərbi potensialını artıran Rusiyada yenidən canlanma hiss olunmaqdadır. Cıbhə xəttinə əlavə qüvvələrin göndərilməsi məqsədiylə yenidən səfərbərlik elan olunacağı gözlənilir. Ukraynanın şəhər və kəndləri yeni hücumlara məruz qalmaları təhlükələri qarşısındadır.*

*Avrodiplomatiyanın rəhbəri Cozep Borrelin isə, ümidsiz şəkildə həyacan siqnalı çalmaqla, Avropanı "Ukraynaya uzaq məsafəli raketlərin və müasir silah sistemlərinin verilməsinə, onun hava hücumundan müdafiə sistemlərinin möhkəmləndirilməsinə" çağırış etməkdən başqa çarəsi aalmadığı açıq şəkildə görünməkdədir.*

*Avropa dövlətləri isə susur.*

## Bəzi ölkələr Bakıya qarşı qərəzli münasibət göstərir

**Azərbaycan öz torpaqlarını azad, suverenliyini bərpa etdikdən sonra bəzi Avropa dövlətləri ölkəmizə qarşı qərəzli münasibət göstərir.**

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi Səməd Seyidov Türkiyə Böyük Millət Məclisinin(TBMM) Milli Müdafiə Komitəsinin sədri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü zamanı deyib.

S.Seyidov Azərbaycan və Türkiyənin hər zaman bir-birinin yanında olduğunu, hazırda ölkələrimiz arasında əlaqələrin yeni mərhələyə qədəm qoyduğunu, Türk dünyası çərçivəsində münasibətlərin genişləndirildiyini bildirib.

O, bugünlərdə Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin qurumun iclasında bəyanatla çıxış etdiyini diqqətə çatdırıb. Komitə sədri qeyd edib ki, Azərbaycan öz torpaqlarını azad, suverenliyini bərpa etdikdən sonra bəzi Avropa dövlətləri ölkəmizə qarşı qərəzli münasibət göstərir. Bununla əlaqədar Azərbaycan nümayəndə heyəti AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını dayandırmaq qərarına gəlib. Səməd Seyidov Azərbaycana verdiyi dəstəyə görə AŞPA-dakı Türkiyə nümayəndə heyətinə təşəkkürünü ifadə edib.

## "Finlandiya ruslar üçün ikili vətəndaşlıqdan imtina etməlidir"

**Finlandiyanın müdafiə naziri Xyakkyanen bəyan edib ki, ruslara vətəndaşlıq verilməsindən imtina edilməlidir.**

Müdafiə naziri, ikili vətəndaşlıq sisteminfə reformalar aparmağı və bununla da Rusiya vətəndaşlığı daşıyan rusların ikinci vətəndaşlıq almalarının qarşısının alınmasını təklif edib. Daha əvvəl isə, Finlandiya hökuməti, Xyakkyanenin təklifi ilə rusiyalılar üçün əmlak əldə etmək imkanlarından tam imtina eilməsi məsələsi üzərində çalışdığı barədə məlumat verilmişdi. Finlanfiya hökuməti NATO-ya üzvlüyünü əldə edəndən sonra, deyəsən rusları "gözümçıxdıya" salmaq istəyir.

**Rüstəm Hacıyev**



**Fidan Abdurəhmanova**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**

# GÖY ÜZÜNDƏ

Yan otaqdan tez-tez alışqan səsinin gəlməsi onu yaman qorxudurdu. Əvvəl daha çox səslər gəlirdi, kimisi atasını, kimisi qardaşını çağırırdı. İlk ayıldığında gələn səslər daha qorxunc idi və bir-birinə qarışmışdı. Bütün qonşuların səsi qulağında idi. Səslərin tonu, ləhcəsi ilə binada yaşayanların ünvanlarını təyin edirdi. Beləcə özünün neçənci mərtəbədə olduğunu hansı qonşunun evinə düşdüyünü anlamağa çalışırdı. Anidən nəsə xatırladı və yerində ilan kimi qıvrılaraq fırlanmaq istədi. Bir nəfəslik məsafəsi olduğunu gördü. Diqqətini cəmləyib üzərindəki əşyalara baxdı. Bu qabların yığıldığı bir dolab idi ki, buradakı əşyalara heç kimin əl vurmağa ixtiyarı yox idi. Cehizlik fincanları atasının onun üçün almasının tarixini isə anası ən azı əlli dəfə danışmışdı. İndi bu fincanlar üzərinə tökülmüş, çiling-çiling olmuşdu. Kaş ki, anam bu səhnəni görməsin, darıxardı. İllərlə qoruduğu heç özünün də içməyə ürəyi gəlmədiyi fincanlardan yalnız biri qalmışdı. Əlini qaldırıb yeganə fincanı götürməyə cəhd etdi. Sınmış şüşələrlə dolu qollarını özünə tərəf qaldırmaq istədi. Bu sınmış şüşələrdən yerdə səssizcə beton altında ata-anasının və onların arasında yatan balaca qardaşının ayaqlarını gördü. Qışqıraraq haray çəkdi, onları çağırdıqca qolundakı şüşələr töküldü. Şüşələr töküldükcə onları görmək şansı daha da azalırdı. Yanaqlarını köpürdərək səsini çatlamış dodaqları arasında boğmağa çalışdı. Fincanı götürüb özünə tərəf çəkəndə qoluna ilişib qalmış sonuncu şüşə qırığında özünü gördü. Ömründə özünə belə yaxından diqqətlə baxmamışdı. Dünyanı gözlərinə baxışları ilə yığan insanlar öz gözünə yalnız güzgüdə baxa bilərmiş... Və bir də hardansa anidən yanıb sönən bir işıq gördü tez-tez.

Qonşulardan kimsə qışqırırdı. Zəlzələ! Zəlzələ! Kömək edin! O təkliyi ilə yalnız indi barışaraq ağlayaraq huşa gedi... Beləcə dəfələrlə şirin yuxuya gedirdi və tez də ayılırdı. Qabların içində anasının qonaq üçün saxladığı konfetlərdən bir neçəsi yanına dağılmışdı. Bu konfetlər o qədər köhnəlmişdi ki, sabun dadı gəlirdi. O qədər acımışdı ki, sabunun iyi də çox xoş idi. Hətta sabun olsaydı onu da yeyə bilərdi. Bu köhnə konfetlərdən gələn iy anasının onu çimdirdiyi zaman ağzına sabunlu, şampunlu su gedəndə necə hay-küy saldığını xatırlatdı. Bir az kövrələrək xırıltılı səslə - anamı çox incitmişəm deyəndə yenə hardansa işıq yanıb söndü. Artıq bütün diqqətini işıq gələn tərəfə yönəldərək yuxuya getdi və hər dəfə də bu alışqanın səsinə oyanırdı. Hər yuxudan ayılanda səslər daha da azalırdı. Səslər azaldıqca sevinirdi. Az qalıb yeqin qonşuları xilas ediblər indi mənim növbəmdi - deyə öz özünə danışırdı. Bütün səslər azalsa da, alışqanın səsi daima gəlirdi. Saxladığı sonuncu konfeti də yedi. Üst mərtəbədə sinif yoldaşı yaşayırdı. Dərsə həmişə birlikdə gedirdilər. Onlardan səs gəlmirdi. Yəqin xilas ediblər, ya da dərsə gedib. Tez məktəbi düşündü, görəsən məktəbdə dərs olacaq bu gün? Bəlkə də sinif yoldaşları indi dərsdədir, elə qonsusu da?! Məktəbə gedə bilmədiyi üçün çox peşiman oldu. Yenə də hirslə yerindən qalxmaq istədi. Bu dəfə üstündəki bütün şüşələr töküldü. Yaxınlıqdan kimsə qışqırdı: Abi burdan ses geldi. Buraya gelin. Danışan insan sanki qab dolabımızın üzərində dayanmışdı. Səs getdikcə yaxınlaşırdı. Alışqanın səsi isə dayanmadan gəlirdi. Amma artıq işıq yox idi... Qulaqlarına dolan uğultu onu uzaqlara aparmaq istəsə də, alışqanın səsi onu hər dəfə geri qaytarırdı. Növbəti yuxudan Alahu Əkbər səsinə ayıldı.

Üzü göylərə doğru uzanmış binanın üzərindən xərəkdə anasının cehizlik fincanını bərk qucaqlamış vəziyyətdə idi. Sağ tərəfində həkimlər üst mərtəbədə yaşayan sinif yoldaşını aparırdı. Həkimlər ağzına qum dolduğu üçün danışa bilməyən bu qızın əlindəki alışqandan danışırdılar.

O bu alışqanın işığı ilə tez-tez dolabın altındakı rəfiqəsinin üzünə baxır, yuxuya gedəndə isə oyatmağa çalışırdı.

Sinif yoldaşının onu qorumasına və sağ qalmasına sevinərək özünü göylərdə hiss edirdi. Vəziyyəti indi dərk etməyə çalışırdı. Anladı ki, saatlar keçdikcə səslər azalıb, insanların çoxu ruhunu göylərə tapşırıb. Göy üzünün gözəlliyi gözlərini qamaşdırdı. İndi göyün üzü daha gözəl idi. Ailəsinin qonşularının zəlzələdə rəhmətə getmiş bütün tanıdıqlarının narahat ruhu indi göylərdə idi...

# Köhnə maşınlarla bağlı vaxtında qabaqlayıcı tədbirlərin görülməsinə ehtiyac yaranıb

**Bir çox ölkələr və şirkətlər müəyyən bir vaxtdan sonra yalnız elektrik mühərrikli nəqliyyat vasitələri istehsal edəcəklərini bəyan ediblər.**

Bunu Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ekoloji siyasət şöbəsinin əməkdaşı Qızılgül Həsənova nəqliyyat vasitələrinin utilizasiyası, mövcud vəziyyət və qarşıda duran məsələlərlə bağlı keçirilən dəyirmi masada deyib.

O qeyd edib ki, dünyada ənənəvi nəqliyyat vasitələrinin ekoloji cəhətdən təmiz elektrik və hibrid mühərrikli nəqliyyat vasitələri ilə əvəz olunması tendensiyası sürətlə davam edir:

"Azərbaycanda istismar edilən nəqliyyat vasitələrinin əksəriyyətinin xaricdən ixrac edildiyini nəzərə alsaq, bu tendensiyaya uyğun olaraq vaxtında qabaqlayıcı tədbirlərin görülməsinə ehtiyac yaranıb.

Digər ölkələrdə istifadəsi qadağan olunan köhnə nəqliyyat vasitələrinin ölkəmizə axınının qarşısını almaq üçün artıq ötən ildən yaşı 10 ildən çox olan minik avtomobillərinin idxalı məhdudlaşdırılır. Bu qərarlardan biri də köhnə nəqliyyat parkının yenilənməsi, yeni və ekoloji təmiz nəqliyyat vasitələrinin cəlbediciliyinin artırılması məqsədilə utilizasiya prosesinin tətbiqidir".

Q.Həsənovanın sözlərinə görə, ölkəmizdə köhnə və istifadəyə yararsız nəqliyyat vasitələrinin utilizasiyası prosesinin tətbiqi məqsədilə qanunvericilikdə bir sıra dəyişikliklər edilib.

"Belə ki, Azərbaycan Respublikası Prezidentinin 27 yanvar 2024-cü il tarixli sərəncamı ilə nəqliyyat vasitələrinin utilizasiyası fondu yaradılıb, 31 yanvar 2024-cü il tarixli qərarı ilə bu fondun vəsaitinin formalaşdırılması və istifadə Qaydaları təsdiq edilib.

Qaydalara əsasən, Fondun vəsaiti utilizasiya haqqı, kreditlər və qrantlar, könüllü ianələr, beynəlxalq təşkilatların və digər donorların ayırmaları və digər mənbələr hesabına formalaşacaq. Utilizasiya haqqı yalnız yaşı 4 ili keçmiş nəqliyyat vasitələri üçün ödəniləcək".

Məhəmməd Əmin Rəsulzadə - 140

# 28 Aprel işğalı

## M.Ə.Rəsulzadənin əsərləri üzərindən təhlil

**Mühacirət ədəbiyyatını yaradanlar real tarixi həqiqətlərin işıq üzü görməsinə və sonralar problemlə əlaqədar müasir dövrün tarixşünaslığının yaranmasına mühüm təsiri olmuşdur desək, fikrimizcə, yanılmarıq.**

Mühacirət tarixşünaslığını yaradanlar (M.Ə.Rəsulzadə, Ə.M.Topçubaşov, M.B.Məmmədzadə N.Şeyxzamanlı və başqaları) 1917-1920-ci illərin ictimai-siyasi hadisələrində aktiv iştirak etmiş, 1918-ci ildə Şərqdə ilk demokratik Cümhuriyyət qurmuş, 1920-ci ilin aprel çevrilişindən sonra məcburən xarici ölkələrə mühacirətə getmiş və uzun müddət mühacirətdə yaşamalarına rəğmən, Azərbaycanın müstəqilliyinin bərpa olunması uğrunda yorulmadan mübarizə aparmış insanlar idilər. Onların yazdıqları əsərlər həm mənbəşünaslıq, həm də tarixşünaslıq baxımından olduqca qiymətlidir.

1991-ci ildə Azərbaycan öz müstəqilliyinə qovuşduqdan sonra AXC xadimlərinin əsərləri Azərbaycan Respublikasında yenidən və bir neçə dəfə təkrar nəşr olunmuşdur.

70 il ərzində Sovet imperiyasına qarşı mübarizə aparan mühacirət tarixşünaslığı böyük maraq doğurmaqla yanaşı, həm də araşdırılan problemin tarixşünaslığının öyrənilməsində əhəmiyyəti olduqca böyükdür. Lakin mühacirət tarixşünaslığında problemə obyektiv yanaşmanı çətinləşdirən amillər də olmuşdur. Bu amillər onların Ana vətəndən uzaq olmaları, eləcə də elmi-tədqiqat materiallarının və sovet arxiv sənədlərinin əldə etmək çətinlikləri ilə bağlı idi. Bütün bunlarla yanaşı, tam əminliklə qeyd olunmalıdır ki, araşdırılan problemlə əlaqədar olaraq mühacirət ədəbiyyatı 70 il sovet tarix elminə qarşı bir alternativ tarixşünaslıq olmuşdur.

1920-ci ilin aprel işğalından sonra xarici ölkələrə mühacirətə getməyə məcbur olmuş Cümhuriyyət liderləri XX əsrin 20-70-ci illərində yazmış olduqları əsərlərdə AXC-nin süqutunun və Azərbaycanda bolşevik rejiminin qurulmasının səbəblərini dərindən araşdırmağa çalışmışdılar. Onlar 28 aprel işğalı və ondan sonra Azərbaycanda baş vermiş hadisələrə obyektiv münasibət bildirməyə çalışmışdılar.

1923-cü ildən etibarən İstanbulda Məhəmməd Əmin Rəsulzadənin başçılığı ilə "Yeni Qafqaziya" (1923-1927-ci illər), "Azəri türkü" (1928-1931-ci illər), "Odlu yurd" (1929-1931-ci illər), "Azərbaycan yurd bilgisi" (1932-ci il) jurnalları nəşr olunmağa başlamışdır. Bu jurnallarda Azərbaycanın 1917-1920-ci illər tarixinə aid memuar, publisistik məqalələr çap edilmişdir. Eyni zamanda, XX əsrin 20-30-cu illərində araşdırılan problemlə əlaqədar kitablar da nəşr edilmişdir. Lakin 1931-ci ildən sonra Türkiyədə siyasi vəziyyətin müəyyən qədər dəyişməsi səbəbindən Azərbaycan mühacirlərinin böyük bir qismi ölkəni tərk etməyə məcbur olmuş və onların mətbuat orqanlarının fəaliyyəti müvəqqəti olaraq dayandırılmışdır. Lakin ikinci dünya müharibəsindən sonra mühacirlərin Türkiyəyə qayıtmasına rəsmi icazə verilmiş və Türkiyədə Azərbaycan mühacirət ədəbiyyatının nəşri bərpa edilmiş və Azərbaycanın siyasət adamları yurdun qurtuluşu uğrunda öz mübarizələrini davam etdirmişdilər.

M.Ə.Rəsulzadə 1949-cu ilin əvvəlində Ankarada Azərbaycan Kültür Dərnəyi (AKD) yaratmışdır. Onun yaranması ilə Azərbaycanda 1917-1920-ci illərdə baş vermiş ictimai-siyasi hadisələrin tədqiqi və təbliği üçün yeni imkanlar yaranmışdır.



Qeyd etmək lazımdır ki, məqalə hazırlanarkən problemlə əlaqədar M.Ə.Rəsulzadənin bir neçə əsəri təhlil olunub.

M.Ə.Rəsulzadənin "Azərbaycan Cümhuriyyəti" adlı əsərinin araşdırılan problemlə əlaqədar əhəmiyyəti böyükdür. Əsər 1923-cü ildə Türkiyədə, Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra, təkrar olaraq, Azərbaycanda nəşr olunmuşdur. O, əsərin müqəddimə hissəsində Azərbaycan Xalq Cümhuriyyəti ilə Sovet Azərbaycanı arasındakı fərqi izah edərkən yazırdı ki, Milli Azərbaycan ilə şimdiki Azərbaycan (Sovet Azərbaycanı nəzərdə tutulur-V.Ş.) arasındakı fərqi bir çoxları idrak edəmiyorlar. Azərbaycan müstəqil ikən get-gedə bütün hüququnun Rusiyaya nədən tərk edildiyini, azərbaycanlıların buna nə üçün razı olduqlarını sonralar rast gəldik. Bolşeviklərin Azərbaycana millət tərəfindən çağrılmış olduqlarına inananlar var idi (Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti.Bakı:Elm, 1990, 116 s. S. 10.).

Nə qədər ki, bolşeviklərin mövqeyi Mərkəzdə (Moskva və Petroqradda) və əyalətlərdə zəif idi, xalqların öz müqəddəratlarını həll etməsindən, azad, müstəqil dövlətlərini qurmaqdan danışırdılar, elə ki, onlar qüvvətləndilər yuxarıda qeyd olunan azadlıqlardan imtina etməyə başladılar. Hətta, RSFSR hökuməti xalqları öz tərəflərinə cəlb etmək üçün ardıcıl müraciətlər etmişdir. Məsələn, 1917-ci il noyabrın 2-də Sovet hökuməti "Rusiya xalqlarının hüquq Bəyannaməsi"ni qəbul etmişdir. Həmin bəyannamə bütün xalqların bərabərliyini və müstəqilliyini, onların öz müqəddəratını təyin etmək, hətta ayrılmaq və müstəqil dövlət təşkil etmək hüququnu, bütün və hər cür milli və milli-dini imtiyazların və məhdudiyyətlərin ləğv edilməsini elan edirdi. Lakin sonradan Leninin başçılıq etdiyi RSFSR hökumətinin xalqlara verdiyi vədlərin yalan olduğu üzə çıxdı. Çünki Rusiyanın bolşevik hökuməti keçmiş imperiyanın sərhədlərini bərpa etmək niyyətində idi.

1917-ci il noyabrın 22-də elan edilmiş başqa bir sənəddə - "Rusiyanın və Şərqin bütün müsəlman zəhmətkeşlərinə" adlı müraciətnamədə Sovet hökuməti müsəlman zəhmətkeşlərinə öz həyatlarını azad və sərbəst olaraq qurmaq hüququ olduğu bildirilirdi (Azərbaycan tarixi. 3 cilddə, III c., Bakı: Elm, 1973, 598 s. S. 84).

Lakin Azərbaycanda fəaliyyət göstərən bolşeviklər həmin dövrdə milli məsələnin həllinə lazimi diqqət verməmişdilər. Onlar Sovet respublikasının federasiya və keçmiş çar Rusiyası ərazisində məskunlaşan bütün xalqların, o cümlədən, Türk-müsəlman xalqların öz müqəddəratlarını azad təyin etmək prinsiplərini zəhmətkeşlərə kifayət qədər izah etmirdilər. Bununla bağlı M.Ə.Rəsulzadə yazırdı ki, millətlərin tabe olduqları bir dövlətdən ayrılmağa belə haqlı olduqlarını elan edərkən bolşeviklər, şübhəsiz ki, səmimi deyildilər. Onlar bu haqqı millətin təbiətindən doğan bir qiymət kimi dəyərləndirməyir. Zamanın ən təsirli bir şüarı olan bu fikri öz məqsədlərinə xidmət etdirmək üçün hiyləgər bir manevra ilə istifadə edirdilər (Rəsulzadə M.Ə. Bolşeviklərin şərq siyasəti". Bakı: Sabah, 1994, 134 s. s. 48). Daha sonra M.Ə.Rəsulzadə yazırdı: "Azərbaycan muxtariyyəti demokrasinin deyil, xanların, bəylərin, ağalarındır"-deyə iddia deyişdi. Lenin mərkəzdə mövqeyini möhkəmləndirdikcə vilayətlərdəki "həvarisi" həman birər mərkəziyyətçi və böyük rusiyaçı şəkil və simasını almağa başladılar" (Rəsulzadə M.Ə. Bolşeviklərin şərq siyasəti". Bakı: Sabah, 1994, 134 s. S. 32).

M.Ə.Rəsulzadə bolşeviklərin daxili və xarici siyasətini, milli məsələyə münasibətini və s. məsələləri təhlil edərkən, xalqların öz müqəddəratını azad surətdə həll edə biləcək siyasətinə münasibət bildirərək yazırdı ki, millətlərin tabe olduqları bir dövlətdən ayrılmağa belə haqlı olduqlarını elan edərkən bolşeviklər, şübhəsiz ki, səmimi deyildilər. Onlar bu haqqı millətin təbiətindən nəşət edən bir qiymət kimi dəyərləndirməyir. Zamanın ən təsirli bir şüarı olan bu fikri öz məqsədlərinə xidmət etdirmək üçün hiyləgər bir manevra ilə istifadə edirlərdi (Rəsulzadə M.Ə. Bolşeviklərin şərq siyasəti. Bakı: Sabah, 1994, 134 s. S. 48).

O, bolşeviklərin qurduğu sosializm cəmiyyətini xarakterizə edərkən onu "kəndliyə torpaq verib məhsulunu verməyən kommunizm" kimi dəyərləndirmişdi.

(ardı 14-cü səhifədə)

# Təhsil fəlsəfəsi və praqmatik təlim prosesi



*Kərim Novruzov,*
*Ağdam rayon 95 nömrəli məktəbin tarix müəllimi*

**"Tarix boyu cəmiyyətin inkişafında müəllimin rolu və əhəmiyyəti əvəzedilməz olmuşdur. Müasir dövrdə müəllimlik anlayışı yeni-yeni keyfiyyətlər hesabına daha da zənginləşmişdir. Müasir cəmiyyətdə müəllim yüksək nəzəri biliklərə, mədəniyyət və mərifətə, pedaqoji etikaya malik yetkin bir şəxsiyyətdir. Müəllim elə mötəbər, elə aqil, elə kamil adamdır ki, hər bir valideyn öz övladlarının tərbiyəsini onlara etibar edir. Müəllim keçmiş nəslin ən yaxşı həyati təcrübəsini, elmi bilikləri və özünün əldə etdiyi elmi nailiyyətləri yeni nəslə verir. Müəllim gənc mütəxəssislərin şəxsiyyətini formalaşdırır, dünyagörüşünün təşəkkül etməsinə və inkişafına şərait yaradır. Pedaqoji fəaliyyət müəllimin təlim, tərbiyə, inkişaf, şagirdlərin təşkili zamanı cəmiyyət tərəfindən irəli sürülən sifarişə müvafiq olaraq məktəblilərdə şəxsiyyətin keyfiyyətinin formalaşmasına yönəldilmiş peşə fəallığından ibarətdir. Pedaqoji fəaliyyət pedaqoji elmlərin müxtəlif sahələri tərəfindən öyrənilir, tədqiq olunur. Burada birinci növbədə müəllim əməyinin psixoloji qanunauyğunluqları diqqəti cəlb edir. Ona görə də pedaqoji fəaliyyətin psixologiyasından danışarkən müəllim əməyinin, müəllimin cəmiyyət tərəfindən irəli sürülən məqsədləri və pedaqoji fəaliyyət sistemini necə qavraması və həyata keçirməsi, konkret şəraitdən asılı olaraq öz fəaliyyətinin vəzifə, forma və metodlarının aktuallığını necə dərk etməsinin psixoloji qanunauyğunluqlarını öyrənən psixoloji bilik sahəsini nəzərdə tuturuq.**

***Pedaqoji fəaliyyətin nəticəsi - şagird şəxsiyyətinin əlamət və keyfiyyətlərinin formalaşması.*** Bu cəhətlərin hər biri pedaqoji fəaliyyətin səmərəliliyi üçün əsas amil rolunu oynayır. Müəllim əməyi çoxcəhətli reallıqdır. Burada bir-biri ilə vəhdətdə olan üç cəhət diqqəti xüsusi olaraq cəlb edir. Bunlar pedaqoji fəaliyyət, pedaqoji ünsiyyət və müəllim şəxsiyyətinin xüsusiyyətlərindən ibarətdir. Pedaqoji fəaliyyət müəllimin şagirdlərə təsirini əhatə edir. Pedaqoji ünsiyyət - birgə fəaliyyət zamanı müəllim və şagirdlərin əməkdaşlığından ibarətdir. Psixoloji tədqiqatlar əsasında müəyyən edilmişdir ki, pedaqoji fəaliyyət zamanı müəllim bir deyil, bir neçə məqsəd və vəzifəni yerinə yetirir.

Pedaqoji fəaliyyətin əsas subyekti müəllim olduğuna görə burada müəllim əməyinin motivləri, məqsədləri və vəzifələri əsas yer tutur. Pedaqoji fəaliyyətin məzmunu və psixologiyası bir tərəfdən sosial amillərlə, digər tərəfdən sosial psixoloji amillərlə müəyyən edilir. Pedaqoji fəaliyyət şagirdlərə bilik, bacarıq və vərdişlər aşılamaqla məhdudlaşmır, eyni zamanda onlara dünyagörüşü, əqidə və inam aşılayır. Bu prosesdə şagirdlər zəruri davranış formalarına yiyələnirlər.

Onlarda fəallıq, biliyə hərislik inkişaf edir. Pedaqoji fəaliyyətin müvəffəqiyyəti üçün hər bir müəllim təbiət və cəmiyyət haqqında dərin biliklərə yiyələnməklə, yüksək inam, yüksək ideyalılığa görə fərqlənməklə yanaşı, bir sıra mühüm keyfiyyətlərə də malik olmalıdır.

Müəllimin şəxsiyyəti onun pedaqoji əməyinə istiqamət, məna verir. Müəllim şəxsiyyətinin strukturuna gəldikdə buraya onun əməyinin xarakterini müəyyənləşdirən psixi keyfiyyətlərin, qabiliyyətlərin, halətlərin mürəkkəb vəhdətini və s. aid etmək olar. Müəllim şəxsiyyəti özünün istiqamət və motivasiyası, qabiliyyətləri, xarakteri, yaradıcı mövqeyi, fərdi üslubi və s. ilə xarakterizə olunur. Təcrübələr göstərir ki, şagirdlərlə qarşılıqlı münasibətdə pedaqoji ünsiyyətin demokratik üslubundan istifadə edən müəllimlərlə şagirdlər arasında olduqca səmərəli təmas yaranır və müəllimlər şagirdlərin sevimlisinə çevrilirlər.

Müəllimlərlə şagirdlər arasındakı qarşılıqlı təsir dörd əsas psixoloji prinsipə ayrılır:

**1.** Pedaqoji qarşılıqlı təsirin dialoqlaşdırılması, yeni dialoq səviyyəsində həyata keçirilməsi. Ənənəvi monoloqlaşdırılmış, yəni monoloq səviyyəsində həyata keçirilən pedaqoji qarşılıqlı təsir zamanı müəllimlə şagird arasında həm şəxsiyyətlərarası qarşılıqlı münasibətlər planında, həm rollu sosial qarşılıqlı təsir planında, həm də informasiya mübadiləsi planında qarşılıqlı təsirdə bərabərhüquqluluq pozulur və müəllim dominant rolda çıxış edir. Belə ki, o, informasiya mənbəyi hesab edilir, şagirdlərə sual verir, şagirdlərin cavablarına nəzarət edir və onları qiymətləndirir. Müəllimlər üçün heç bir məhdudiyyət yoxdur və onlar ən böyük şəxsiyyətlərdir, şagirdlər üçün şəxsiyyət etalonudur.

Monoloq səviyyəsində qurulan pedaqoji qarşılıqlı təsir prosesində müəllimdən şagird şəxsiyyətini qismən başa düşmək və qəbul etmək tələb olunur ki, bu da ona diktator mövqeyində çıxış etməyə imkan verir.

Pedaqoji qarşılıqlı təsirin dialoqlaşdırılması isə müəllim qarşısında öz mövqeyini dəyişdirmək tələbi qoyur və o, şagirdlərlə bərabərhüquqlu mövqedə durur. Bu, öz növbəsində onlar arasında əməkdaşlıq yaranmasına gətirib çıxarır. Bu gün müəllimlərlə şagirdlər arasında əməkdaşlığın yaranması, onun apardığı təlim-tərbiyə işini optimallaşdırmağa şərait yarada bilər.

**2.** Pedaqoji qarşılıqlı təsirin problemləşdirilməsi. Ənənəvi problemsizləşdirilmiş pedaqoji qarşılıqlı təsir zamanı müəllim şagirdlərə müəyyən biliklər verir, sonuncu isə onları mənimsəyir, bir növ biliklər müəllimin beynindən şagirdlərin beyninə axır. Bu zaman şagirdlərin müstəqilliyi heçə endirilir və onlardan hazır biliklərə yiyələnmək tələb olunur. Tərbiyə işi də elə qurulur ki, şagirdlər yalnız müəllimin qoyduğu qaydalara əməl etməli olur.

Hətta müəllimin qoyduğu qaydalara əməl etməyənlər tərbiyəsiz hesab edilirlər. Deməli, müəllim tələb edən, şagird isə icra edən rolunda çıxış edir. Problemləşdirilmiş pedaqoji qarşılıqlı təsir zamanı isə təlim və tərbiyə prosesində müəllimin və şagirdlərin rolları və funksiyaları dəyişir. Müəllim şagirdin şəxsiyyətinin inkişafı üçün şərait yaradır, ona təlim işində müstəqillik verir, fəallığını stimullaşdırır, müstəqil əqli iş aparmaq imkanı verir.



**3.** Pedaqoji qarşılıqlı təsirin personallaşdırılması.

Qeyri-personallaşdırılmış pedaqoji qarşılıqlı təsir - rollar arasında mövcud olan qarşılıqlı təsirdir. Ənənəvi qeyri-personallaşdırılmış pedaqoji qarşılıqlı təsir zamanı müəllim tərbiyə edən rolunda, şagird isə tərbiyə olunan rolunda çıxış edir.

Bu rolların çərçivəsinə uyğun gəlməyənlər rədd edilir, yəni hər iki tərəf rol gözləmələrindən kənara çıxa bilmir. Bu yolların üzərində bir tərəfdən ağır yük qoyur, digər tərəfdən isə şəxsiyyət-şəxsiyyət münasibətləri kənarda qalır, rollar arasında qarşılıqlı münasibətlər ön plana çəkilir. Rolların icraçılarının davranışı onların icra etdiyi rolların mövqeyi ilkə determinasiya olunur. Pedaqoji qarşılıqlı təsirin personallaşdırılması isə vəziyyəti kökündən dəyişir. Bu, ilk növbədə həm müəllimdən, həm də şagirdlərdən onların icra etdiyi rol maskasından azad olmaq imkanı verir və şəxsiyyətlər arasında azad qarşılıqlı münasibətlər ön plana çəkilir.

**4.** Pedaqoji qarşılıqlı təsirin fərdiləşdirilməsi.

Qeyri-fərdiləşdirilmiş pedaqoji qarşılıqlı təsir şagirdin fərdiliyinə yönəlmiş qarşılıqlı təsir deyildir. Bu, şagirdin fərdiliyini, yəni onun maraqlarının və qabiliyyətlərinin özünəməxsusluğunu nəzərə almayan frontal qarşılıqlılıq təsiri ön plana çəkir. Fərdiləşdirilmiş pedaqoji qarşılıqlı təsir isə əksinə, bir şagirdin ümumi və xüsusi qabiliyyətlərini üzə çıxarmağa yönəlir, təlim və tərbiyə metodikasını seçərkən şagirdlərin fərdi, yaş xüsusiyyətlərini, qabiliyyətlərini və meyllərini nəzərə alır.

Məlum olduğu kimi, təhsil cəmiyyətin həyatında prioritet sahə olmaqla, insanın inkişafında və formalaşmasında mühüm rol oynayır. O, yalnız bilik və bacarıqlar əldə etmək üçün deyil, təhsil alanın və bütövlükdə insanın inkişafını təmin etmək üçün lazımdır. Təhsil prosesinin əsas subyekti öyrənəndir (şagird, tələbə və s.). Öyrənən bilik və bacarıqların daşıyıcısı kimi nəzəri biliklər qazanıb inkişaf etməklə yanaşı, bacarıq və vərdişlərə yiyələnməli, aldığı bilikləri təcrübədə, həyatda tətbiq etməyi bacarmalı, bununla da müstəqil fəaliyyətə, peşə seçməyə hazır, bazar iqtisadiyyatı şəraitində rəqabətqabiliyyətli olmalıdır. Öz həyatını müstəqil qurmağı bacarmalıdır.

Təhsilin keyfiyyəti səmərəli təhsil və təlim mühitinin yaradılması işindən xeyli asılıdır. Təhsil mühiti təlim mühiti ilə müqayisədə ümumi, mücərrəd, geniş, əhatəli olmaqla öyrənəni azad inkişaf etməyə, yaradıcı fərd olmağa həvəsləndirməli, həyatın özü olmalı, öyrənənlər həyatın içində olmalıdır.

Təlim mühiti elə olmalıdır ki, şagirdlər məktəbdə həyat həqiqətlərini tapa bilmək üçün müstəqil düşünsün, qrup halında, kollektiv şəkildə əməkdaşlıq edə bilsin, qarşılıqlı hörmət və ünsiyyət şəraitində irəli sürülmüş problemləri (qoyulmuş sualları) həll edə bilsinlər.

Düzgün təhsil və təlim mühiti şəraitində məktəb bütün diqqətini şagirdlərin hərtərəfli inkişafına, onların maraq və ehtiyaclarının təmin olunmasına istiqamətləndirməlidir. Belə olduqda, təhsilin məqsədi şagirdlərə biliklərin yalnız nəzəri cəhətdən deyil, praktikaya əsaslanmaqla, inkişafetdirici xarakterdə verilməsini təmin edə bilər.

Təhsilin xüsusiyyəti, əhəmiyyəti, məqsədi, vəzifələri, şagirdin iştirakı baxımından təlimin təşkili, müəllimin məqsədi (bilikləri çatdırmaq, müstəqil öyrənənlər yetişdirmək, mənəvi və siyasi dəyərlər aşılamaq), təhsil konsepsiyalarının xüsusiyyəti, təhsilin idarə edilməsinin qanunauyğunluqları və s. amillər təhsilin fəlsəfəsini təşkil edir.

Ənənəvi təhsil passiv öyrənməyə qarşıdır. Ən tanınmış təmsilçiləri Con Dyui, H. Kilpatrik və Body.H.Bodedir. Təhsil cəmiyyətdə ənənəvi olaraq davam edən standartları, dəyişməzlikləri deyil, davamlı olaraq dəyişən həyatı öyrətməlidir. Təhsillənmiş insan həyata uyğun deyil, həyata istiqamət verən, onu inkişaf etdirən olmalıdır.

Xüsusilə, ABŞ təhsilində bu nəzəriyyə uşağın maraqlarına istiqamətlənməli, şəxsi problemlərinin həllinə, uşağın öz həyatını qurmasına doğru məqsədlənməlidir. Proqressivizmin əksinə olaraq təhsil məqsədlərinin dəyişməz olduğunu, davamlı olması lazım olduğunu müdafiə edən bir nəzəriyyədir. Sürətli dəyişmə içərisində insanın təbiətinin eyni qalması, əsas əxlaqi dəyər və prinsiplər təhsilin əsasını təşkil etməlidir. Dünyanın hər yerində insan eyni olduğu üçün təhsilin məqsədi də hər yerdə eyni olmalıdır. Fiziki və mədəni fərqliliklər vacib deyildir. Təhsil proqramları dövrlər və mədəniyyətləri üstələməlidir. Bilik insana ən qısa yoldan verilməlidir.

Təhsilin məqsədi bizə qədər yığılmış biliklərin ötürülməsinə dayanmalıdır. Bunlar müəllim vasitəsilə şagirdlərə ötürülməlidir. Təhsil uşağın maraqlarına dayana bilməz, çünki bu, keçicidir, təhsildə disiplin olmalıdır. Təhsilin mərkəzində müəllim var. Uşaq dünyanı tanımaq, həyata hazırlanmaq üçün məktəbə gedir, onu öz halına buraxa bilmərik. Çünki tarix boyunca yığılmış biliklər onun öz yaşayışı ilə tapacaqlarından daha vacibdir. Bu fəlsəfəyə görə təhsil mədəniyyəti qorumalı, davamlılığına imkan yaratmalı, cəmiyyətin qəbul etdiyi dəyərlər təhsil vasitəsilə yeni nəsillərə ötürülməlidir.

**Təhsilin vəzifəsi əsrimizin mədəni krizini aşmaq üçün cəmiyyətin yenidən qurulmasıdır. Bu qurulma əsnasında bütün əsas dəyərlər yenidən araşdırılmalıdır. Yeni bir cəmiyyət yaratmaq üçün məktəb liderlik etməlidir. Müasir həyat içində sənaye sistemi, maddi və mədəni mənbələrin insanlar tərəfindən istifadəsi nəzarət altına alınmalıdır. Köhnə təhsilin işə yaramayan tərəfləri atılmalı, təhsildə məqsəd və vasitələr yenidən qurulmalıdır. İçində olduğumuz sənaye dövrünə uyğun bir mədəniyyət yaratmalı və yeni cəmiyyət demokratik olmalıdır. Müəllim şagirdləri demokratik şəkildə dəyişməyə hazırlamalıdır.**



**ŞƏDDAT CƏFƏROV**
*İqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü Beynəlxalq Yazıçılar Birliyinin üzvü*

# QAFAR CƏFƏRLİNİN ÜÇ HEKAYƏSİ HAQQINDA

**(əvvəli ötən sayımızda)**

### *2. Sevgi mənəvi tələbatdır*

**Qafar Cəfərlinin hekayələrindəki həyatilik artıq qeyd etdiyimiz kimi oxucu cazibəsini kifayət qədər təmin edir. Hətta yaşa uyğun hər hansı bir oxucu bu hekayələri mənən həzm etdikcə nostalji hisslər yaşayır; həyatının bir çox məqamlarını xatırlamalı olur. Bəzən elə olur ki, epizodların ayrı-ayrı hissələrini hər kəs öz həyatının yaşantısı kimi qəbul edir. Əslində elə yazıçının istedadı ilə bağlı olan bu keyfiyyət dəqiq müşahidə imkanları ilə üzə çıxırsa, hekayənin uğuru təmin olunur.**

"Yaşamaq eşqi" hekayəsini maraqla oxudum. Əvvəlcə mənə elə gəldi ki, hekayənin xətti bayağı istəklərlə daha çox bağlıdır. Amma oxu prosesi bitdikdən, düşüncəyə yön verdikdən sonra sanki gözlərimin qabağında maraqlı bir mənzərə açıldı. Hekayənin qəhrəmanı Qəribi, onun arvadı Cəmiləni yaxından tanıyırmış kimi hər biri haqqında düşünməyə başladım.

Hələ təfərrüata varmamış onu qeyd edim ki, bu ailədəki mühit kifayət qədər sağlamdır. Bəs çatmayan nədir? Bu ritorik sual olsa da, hər halda oxucu üçün müəyyən cavab tələb edir.

İlk baxışdan hekayənin qəhrəmanı Qəribin ailə həyatından gileylənməyə heç bir haqqı yoxdur. Çünki yaxşı tanıdığı ailənin qızı Cəmilə ilə evlənib. Doğrudur, ilk gənclik dövründə, yəni gəncliyin mənəvi mühitinin sevgi ilə çiçəkləndiyi çağlarda onlar bu hissi demək olar ki, dada bilməyiblər.

Qafar Cəfərli tanıdığı mühitdən yazır. O mühitdən yazır ki, onun içərisində böyüyüb. Adamların həyata münasibətini, kişilərin qadına, gənclərin bir-birinə olan münasibətini kifayət qədər görüb, müşahidə edib. Qərib də belələrindən biridir. Lap elə Cəmilənin də ailəsini hiss olunur ki, yazıçı yaxşı tanıyır. Onun tanıdığı həmin ailədə gənc qızın ərə gedəcəyi oğlanla görüşünə sərt qadağa qoyulub. Doğrudur, gənclər sərt qadağalara, dəqiq tələblərə baxmayaraq, evlənməmişdən əvvəl bir-iki dəfə ayaq üstü görüşüblər. Bu da onu göstərir ki, hər hansı bir qadağa, sərt tələb gəncliyin hisslərinin qarşısını kəsə bilməz. Əslində gənclərə sərbəst mühit yaratmaqla onların öz arzularına çatması üçün daha aydın mənəvi mühit yaratmış olarlar.

Axır ki, Qəriblə Cəmilə evlənir. Hekayənin başlanğıcında biz artıq Qəribin həyatının narahat tərəflərini duymağa başlayırıq. Bunu da Qafar Cəfərli daxili monoloq vasitəsi ilə təqdim edir. Zənnimcə, Qəribin ilk daxili monoloqundan onun hansı hisslərlə, hansı duyğularla yaşadığını hər hansı bir oxucu dəqiq təsəvvür edə bilər:

"Görəsən, nəsə hiss edib? Yox, hiss edə bilməz, xəbər tutmağı mümkünsüzdür. Münasibətdə də heç bir qəribəliyə, şübhəyə yol verməmişəm.Yox, bilmir. Bəs, bilmirsə gözlərindəki bu qayğı, narahatçılıq nədəndir? Nəsə ürəyim narahatdır. Axı, qadınlar bu məsələdə çox ayıq və həssas olurlar".

Qərib doğru düşünür. Çünki özü də hiss edir ki, get-gedə ailəyə yadlaşmaqdadır. Onun gileyinin mahiyyəti də aydın olur. Qərib yaşamadığı sevgi hisslərini axtarır. İllər boyu baş yoldaşı Cəmilə ilə birgə sağlam bir ailənin taleyi uğrunda mübarizə aparıb. Onlar iki oğul, iki qız dünyaya gətiriblər. Övladlarını cəmiyyət üçün faydalı vətəndaşlar kimi böyüdüblər.

35 illik ömür az deyil. Onlar 35 il bir evdə, bir ailədə yaşayıblar. Demək olar ki, heç bir ziddiyət, intriqa da olmayıb. Amma yazıçının Qəribin mənəvi mühitində axtardığı həqiqətin mahiyyətinə vardıqca onun nə istədiyini bütün aydınlığı ilə görmək mümkündür. Uşaqlar böyüyüb, indi də nəvələr var. Hələ yeni nəvələr də doğulmaqdadır. Cəmilə bütün varlığı ilə özünü övladlarına həsr edir, nəvələrinin qayğısını çəkir. Gəlinlərin nə istədiyini, qızının nəyə ehtiyacı olduğunu izləyir. Və təbii ki, burada Qərib artıq arxa plandadır.

Qərib isə az qala 60 yaşına çatmaqda olduğu ömrünün sevgi tamarzısını yaşayır. Onun içərisindən bu hiss daxili bir tələbat kimi baş qaldırır və təbii ki, Cəmilədən bu sevgi diqqətini və qayğısını görə bilmədiyi üçün umduğunu kənarda axtarır. Ancaq bütün məqamlarda özünü günahkar hiss edir, sanki vicdanı ona rahatlıq vermir. Hətta arvadının tezliklə onu hiss edəcəyini, onun daxili aləmindəki dəyişilmələri nəinki hiss etmək, hətta görə biləcəyini belə ağlına gətirəndə vahimələnir.

Hər dəfə Cəmilədən sevgi duyğulu bir söz eşitmək istəyi ilə onun sorğusuna diqqət kəsilir. Amma görür ki, yox, Cəmilə övladları haqqında danışır, onların nigarançılığını çəkir. Qərib daxili vuruşdan keçməli olur və özünə də daxili monoloqu yaşantılarında bəraət qazandırır:

"-Nəsildə bir adam saxlamayıb danışmasın. Bütün günü beynində uşaqları, nəvələridir.Mən başı daşlı qalmışam ortalıqda. Artıq altmışa yaxınlaşıram. Ömrümə nə qalıb ki? Yetmiş yaşayanı barmaqla göstərirlər. Allah məni yenidən bu dünyaya qaytaracaq ki, yenidən yaşayım? Eh... Bax, bir azdan onların istəklərini deyəcək: filan uşağa bu lazımdır, filan nəvəyə o".

Əslində biz Qəribin düşüncələri ilə barışmaq istəmirik. Cəmiləni daha ali məqam səviyyədə görürük. Amma sevgi tələbatı, sevgisizlik əzabı Qəribi Cəmiləyə qarşı münasibətdə dəyişdirmək gücündədir. Elə təsadüfi demir ki, Cəmilənin qayğıkeşliyi, diqqəti bütün nəsli, övladlarını, nəvələrini əhatə edir. Amma Qəribə çatanda bu qayğı, bu diqqət sanki qurtarmış olur. Bütün hallarda hər bir insanın taleyi orijinal, fərqli yollardan keçməli olur. Bu da istər-istəməz Qəribin də həyatında özünü göstərən əsas amil kimi ortalığa çıxır. Qərib yaşın ötdüyünü, zamanın keçdiyini fərq etməkdədir. Elə bil ki, onun sinəsində bir göynəmlə ona əzab verən bir yara var.

Qərib daxilən Cəmiləni qınamalı olur, yaşadıqları həyatı məqbul hesab etmir. Amma iş burasındadır ki, hekayənin müəyyən mərhələləri ötdükcə dəyişən mənzərəsi oxucuda Cəmiləyə qarşı heç bir narazılıq hissi yaratmır. Əksinə, biz Cəmiləni fədakar kimi görürük. Sanki ana xaqan kimi ailənin bütün taleyi ondan asılıdır.

Qərib isə artıq öz aləmindədir. Onun könlünün quşu uçub. Ümumiyyətlə, hekayənin bütün məğzi Qəribin düşüncələri şəklində qələmə alınıb. Biz məhz Qəribin düşüncələri ilə onun həyatında gedən dəyişiklikləri görə bilirik. O artıq Ülkər adlı bir qızla görüşür. Onların arasında məhz Qəribin arzuladığı sevgi hissləri yaranıb. Qərib çox kəskin bir savaş arasındadır. Bir tərəfdən Ülkərə sevgi, digər tərəfdən Cəmiləyə qarşı vicdani münasibət məsələsi. Qərib üçün tərəflərdən birini qəbul etmək, ailədən üzüləşmək çətindir, hətta lap ölümə bərabərdir. Amma onun ruhunun, varlığının, mənəvi tələbatının əsasında dayanan hiss bütün kəskinliyi ilə özünü göstərir:



"Saata baxdım, altıya beş dəqiqə qalırdı. Payızın üçüncü ayı başladığından günlər tamam qısalmışdı.

Bir tərəfdən bu mənim işimə yarayırdı. Səbəbi isə mənə çox əziz, çox doğma idi. Son iki ildə tanış olduğum, son iki ayda isə daha çox yaxın olduğum həyatı mənim üçün zinətləndirən,mənə sevdirən Ülkərimlə bağlı idi. Bir həftə əvvəl ilk dəfə onu öpdüm. İlahi, mən necə xoşbəxt idim. Bu yaşda kişiyəm, öpüş vaxtı bütün bədənimi əsmədə tutmuşdu. Tir-tir əsirdim. Yaxşı ki, utanmağıma imkan vermədi. Aramızda müəyyən yaş fərqi olsa da onu sezdirməməyə çalışıb, hətta bunun təbii bir hiss olduğunu deməklə dünyanın sevincini mənə yaşatdığını özü də bildi".

Qəribin gözlərinin qabağında ailəsi üçün çıraq kimi yanan bir qadın var. Bu qadın üçün ideal övladları qorumaq, çətinliklərdən keçirməkdir.

Amma sevgi hissləri tamam başqa mətləbləri diktə edir. Elə mühitindəki gərginliyin içərisində o Ülkəri bir an da unutmur. Özü də maraqlıdır ki, Qərib Ülkərlə görüşə şəhvani hisslərini söndürmək üçün yox, məhz mənəvi tələbat kimi, sevgi hisslərinin şirinliyini duymaq üçün can atır. O bütün qəlbi ilə artıq Ülkərə bağlanıb. Sevgi hissləri ilə öpüşün mahiyyətini məhz Ülkərlə görüşdə görüb.

Burada yazıçının Cəmilənin yaşı, durumu ilə bağlı məqamları təsvir etməsi də maraqlıdır. Cəmilənin saçları artıq ağarıb, üzündə, gözündə müəyyən qırışlar əmələ gəlib. Bir sözlə, yaş öz sözünü deyir. Və artıq Qərib axtardığını onun simasında görə bilmir.

İstər-istəməz Qəribi bu çətin mərhələni keçmək üçün heç nə saxlaya bilmir və telefonunda nə vaxt görüşəcəyini yazır.

Axı biz dedik ki, Qərib vicdani mühakimə qarşısındadır və özünü günahkar bilmir. Biz istər-istəməz Qəribi günahlandırmağı düşünsək də, onun Cəmiləyə münasibətində qəlbindən gələn hisslərinin sözlə, düşüncəylə təqdimindən onun da günahsız olduğunu düşünmək məcburiyyətində qalırıq. Və bunu Qərib daxili monoloqu ilə daha dəqiq verir:

"- Nə deyim ay Cəmilə. Deyim ki, bu hala düşməyimdə günahkar sənsən. Deyim ki, mən bu cür yaşaya bilmirəm. Mən də qadın nəvazişi, qadın sığalı istəyirəm. Mən də qadını sinəmə sıxıb doyunca öpmək, onu sevmək, onu oxşamaq, onu əzizləmək istəyirəm. Axı, sevgi hissi yaşa deyil, ruha bağlıdır".

Artıq gizləmək mümkün deyil. Onların arasında fərq, məsafə get-gedə çoxalmaqdadır. Biz istər-istəməz Qəribin düşüncələri ilə barışmalı oluruq.

Əlbəttə, hər hansl bir ailənin dağılması böyük faciədir. Heç yazıçı özü də, hətta oxucu da bunu istəməz. Bəs günah kimdədir - məsələsinə diqqət eləməli olsaq, müəyyən mənada Cəmilənin səhvlərini də gərək ortaya qoyaq.

Axı Cəmilə onu da bilməli idi ki, qəlbinin hərarətini övladlarına verir versin, nə qədər olmasa da, ömür-gün yoldaşı üçün də bir pay saxlamalı idi. Şübhəsiz, bu duyğulanmaların arasında həqiqətin acılığı kifayət qədər görünür.

Doğru deyirlər ki, bir çox hallarda şirin yalan acı həqiqətdən üstündür. Bu şərtlə ki, həmin şirin yalan insan taleyini qəzaya aparmaya. İnsan ruh etibarı ilə həyatla mübarizədə öz iradəsinə, gücünə güvənə bilə.

Qərib bir çox hallada susmağı ilə, mövcud situasiyanı şərh etməməyi ilə, Cəmilə ilə açıq-aydın danışmamağı ilə sanki tufanın qarşısını müvəqqəti də olsa kəsir. Amma buna baxmayaraq, Qəribin daxili aləmindəki dəyişilmələrə vicdani münasibəti istər-istəməz onu çox narahat edir.

Bəlkə də Qəribin seçməkdə olduğu yoldan qayıtmağa da gücü çatardı, əgər Cəmilə onu başa düşsəydi. Çox təəssüf ki, Cəmilə ərinin mənəvi tələbatını başa düşmür. Nəinki başa düşmür, heç onun ağlına da gəlmir ki, Qərib sevgi aclığı çəkir.

Biz Qəribin gərgin psixoloji məqamlarını onun öz düşüncələrində görür və onun həyatının harada, necə, hansı qəzaya tuş gələ biləcəyini də istər-istəməz hiss edirik. Qərib mənəvi gərginlik altındadır, o belə düşünür:

"Özümdən asılı olmayaraq bu iki kəlmə söz içimi-içalatımı yandırdı, hətta kövrəldim də. Bacarıb tez üzümü kənara çəkdim. Əslində son iki ayda buna oxşar halımı Cəmilə bir-iki dəfə görmüşdü. Düzdü dirəşib səbəbini soruşmamışdı, amma qadınlarda olan güclü hissiyata əsaslansam mənimlə nəsə baş verdiyini duymuş olardı.Üzümə vurmamışdı. Qərarım bu idi ki, əgər soruşsa hər şeyi danışım. İstər kişilərin, istərsə də qadınların evdən uzaqlaşmalarının səbəbkarı əks tərəfin olduğunu deyərdim. Heç kim buna dana bilməz. Bu olmadı və mən bu sözləri Cəmiləyə demədim. Desəydim nə olacaqdı, bilmirəm, hər halda qanqaraçılıq sössüz idi. Bəlkə elə bu cür davam etməyi yaxşıdı. Bilmirəm.Tamam gicəlib qalmışam".

Çox aydın düşüncələrdir. Qərib yolunu haraya apardığını artıq özü də hiss edir. Amma yaşadığı həyatın onun mənəvi tələbatına heç vaxt cavab verməyəcəyini də duymaqdadır. Ona görə də tərəddüdlər içərisində boğulur, özü demişkən gicəlib qalmaqda davam edir.

Cəmilə isə başqa aləmdədir. Ona elə gəlir ki, Qərib ailə qayğısından pəjmürdədir. Çətinliklərə görə narahatdır. Ancaq bilmir ki, Qəribin daxili-mənəvi aləmində hansı çarpışmalar və hansı mübarizələr gedir.

Bir sözlə, artıq qəti addım ata bilməyin məqamı gəlib çatıb. Qərib ya geri durmalıdır, ya da irəli addım atmalıdır. Geridə onu sakit ailə həyatı gözləyir. O bu həyata təzədən qayıtmaq istəyirmi? Qabaqda isə tufanlar, qasırğalar var.

Yazıçı Qafar Cəfərli Qəribin daxili aləmindəki dəyişmələri elə onun düşüncələri ilə əsaslandırmağa çalışır və zənnimcə, bu əsaslandırmalar kifayət qədər yetərlidir. Qərib Cəmilədən də keçə bilmir. O düşünür ki, olanları Cəmiləyə danışmalıdır, ancaq necə danışsın? Bunu onun öz daxili monoloqundan daha aydın duymaq olar:

"-Nə deyim, necə deyim Cəmilə? Ürəyi yerindən çıxarıb sənə göstərə bilmirəm axı? Mən miras qalmış adətləri, ənənələri qəbul edə bilmirəm. Mən insan kimi öz həyatımı yaşamaq istəyirəm. Niyə Allahın bəxş etdiyi o müqəddəs hisslərimi gizlədim, onları yaşaya bilməyim? Niyə axı, niyə? İnan mənə Ülkərdən sonra bu həyatı daha çox sevməyə başladım. Bunu axı sənə necə deyim? Halımı görmürsənmi? Görmürsən ki, içimdə yanıb kül oluram?".

Bax, Qərib bu yanıb kül olmaq əzabına dözə bilmir. Və nəhayət, o öz sevgisinə yetmək yolunu seçir.

Qafar Cəfərlinin məqsədi nədir? O bu hekayədə insanlara nəyi təlqin etməyə çalışır?

Doğrudur, əsərin qəhrəmanı Qərib sakit ailə həyatını sevgi mühitində yaşamağa dəyişməkdə qərarlıdır. Şübhəsiz, o bu yoldadır və onu geri qaytarmaq daha mümkün deyil. Onun başına hansı faciələr gələcək, övladları tərəfindən atılacaq, aiəyə qayıtmağa üzü olmayacaq - bütün bunlar haqqında yazıçı məlumat vermir. Çünki bundan gerisini ən fəhmsiz oxucu belə yaxşı başa düşür.

Yazıçı insanlara təlqin edir ki, həyatın ən gözəl iksiri sevgidir. Əgər insanlar bir-birinə sevgini əsirgəməsələr, bu duyğuları bir-birinə məmnunluqla bəxş etsələr, onda heç bir təzədə, ziddiyyətə, mənəvi gərginliyə yer qalmaz.

Cəmilə öz səhvini başa düşəcəkmi - bu barədə yazıçı heç nə demir. Sənətkar bunu da oxucunun ixtiyarına buraxır.

Qafar Cəfərlinin hekayələrini ümumi bir cəhət birləşdirir. O sanki öz qəhrəmanları ilə cəmiyyətdə psixoloji tədqiqat aparır. İnsanların daxili-mənəvi aləmlərinə inadla nüfuz edir və həyat həqiqətlərinin açılmasının, cəmiyyətə çatdırılmasının əsas yolunu da elə hər kəsin daxili-mənəvi mühitindən başlandığını bildirmək istəyir.

**Hər kəs özünə baxsın. Hər kəs özünə baxa bilsə, həyatın ən örtülü sirlərini belə görə bilər.**




*Yusif Həsənbəy*
*Əməkdar İncəsənət xadimi*


# CAN SAĞLIĞININ SORAĞINDA

**(HEKAYƏ)**

**(əvvəli ötən sayımızda)**

-Xəzəllər quruyub, əldən düşüb! Onlara ikinci həyat necə vermək olar?

-İşimizi bilirik. Bir gün sanatoriyanın böyüyü Bəhram direktor bizi ”petiminutka” iclasına çağırdı. -Xalq şairimiz bütün dünya insanlarının, bizim də sağlam yaşamağımızı istəyir- dedi. -Reşotkların o tərəfindəki asfalt yolun mazut nəfəsi, maşınlardan çıxan qazlar həyətimizə dolur, xəstə qonaqlarımızı zəhərləyir. Amma a yoldaş. Biz də nəsə bir iş görməliyik ya yox! Atmosferdəki ”Ozon qatı” yırtılıb dağılır. İstiləşmə yergöyü yandırır. Bunun qabağını necə alaq? Qulaqları da papağının içində itib-batan Mədət kişi əlini qaldırdı. -Məni utandırma, qadan alım, ay direktor. O qazların, tüstülərin, zəhərlərin canını almağa zambaqlarıma nə gəlib? Bağbanı mənəm bu tərəflərin. Mənim tədbirimi özün görəcəksən! İndi də icazə ver gedim işimin dalınca - deyib yanlara basa-basa qapıdan çıxdı, -A yoldaşlar, gəlin, başımızın üstündəki aydan arı, sudan duru o səmanı təkcə qazlarla demirəm, lap siqaret tüstüləriylə də zədələməyək - deyib söhbətini yekunlaşdırdı direktor. O gündübu gündü sutkada iki paçka siqaret sümürən şef pover Kamran indi heç bir dənə də çəkmir. -Bəlkə and içib? Qurana əl basıb? Siqaret çəksə, Quran qənim olar, o da ölər?

-Yox, şef ölməyindən qorxmur. Direktordan qorxur.

-Niyə? İşdən qovar onu?

-Yox. Direktor çörəyə bais adam deyil. Kamran o direktorun danlağından qorxur. Direktor hərdən elə ağır söz deyir ki, onu heç qatır da çəkə bilməz. Ona görə də stalovanın bacasına kərənaya oxşayan bir tüstü təmizləyən qoydurub.

-Min dəfə ”sağ ol” deyirəm mən də baş aşbaz Kamrana. Yaxşı, bəs sən yığdığın xəzəlləri neyləyəcəksən? Bayaq dedin ki, yandırmayacaqsan! Göydəki buludları da zəhərləməyəcəksən? Bəlkə aparıb yığasan seyfə! Bəzi nazirlər qızıl-brilyant yığır seyfə!

Sifəti allandı cavan oğlanın. Gözümə zillədi gözlərini. Səhvə yol vermişdim. Heysiyyətinə toxunmuşdum.

-Mən süpürgəçiyəm. Qızılım, brilyantım da xəzəldi. O xəzəllər mənim köməyimlə ikinci həyatlarını yaşayacaqlar. Mən o xəzəl topalarını torpağın altına basdıracam . Xəzəllər orda kübrəyə çevriləcək. Zambaqlarımız da bu təbii gübrələrlə mayalanıb daha yaxşı qol -budaq atacaqlar! Zambaqların oksigen nəfəsinə ”Ozon qatı”nın da ehtiyacı var -dedi, gülərüz oğlan və məni utandırdı.

Bakıda adamım cığını çıxaran istilərdən qaçıb, Qubanın ”Qız bənövşə”, ”Qəçrəş” meşələrinin sərinliklərinə qısılmışdım.

Şəhərin ”Orta” məhəlləsindən havalanan ”Aptekçi Xanbababanın qızı Xurşud Bakıdakı doktorluq institutuna öz başınan girib” xəbəri ildırım sürətilə bütün məhlələrə yayıldı. Hər ağızdan bir avaz gəlirdi. ”Xurşud instituta öz başınnan girib?! İnanan daşa dönsün”. ”Eh, sözdü də danışırlar. Həkimlik institutu əlli min rubladı. Apteklərdə alver ölüdü. Xanbaba beş-on köpüklük xinni, aspirin, öskürək dərmanı satıb əlli mini yığa bilməz”. ”Amma türkə-çarə həkimliyi o nəsildə allah vergisidi. Qızın nənəsi Cirə Məsmənin həyətində sirli-sehirli bir ağac var. Xərəkdə gətirilən xəstələri arvad, o ağaca bağlayır, sonra üzünü qibləyə tutub elə bir dua oxuyur ki, xəstə yerindən qalxıb ”lezginka” oynaya-oynaya gedir evlərinə. O, Xurşud da çoxbilmişdi. Nənəsinin tökdüklərini yığa-yığa gedəndi” -deyib, qızı tərifləyirdilər.

Bakıda Voroşilov (indiki Səbail) rayonunun Komsomol Komitəsində işləyirdim. Bu hadisə barədə ”Azərbaycan gəncləri” qazetində bir oçerk çap etdirib, ”Ali məktəblərə qəbul əlli minədi” Bu, və buna bənzər böhtanlara son qoymaq istəyirdim. ”Orta” məhələnin ortasında ora-bura boylanır, mənə heyrətlə baxanlardan Xanbabanın evini soruşurdum.

-Xanbabanın qapısı ”Jenklubun” yanında göy çernil rəngli qapıdı - dedilər. Addımlarını yeyinlətdi... ”Jenklubun” tinindən vedrələrlə su aparan bir qadın çıxdı. Qollarımı irəli uzadıb arvadın vedrələrini götürmək istədim. O, əlindəkiləri yerə qoyub, sifətinə dağılmış saçlarını ləçəyinin altına yeritdi. -Dəymə, üstbaşın islanar. Ayaqqabıların da zaymay olar!

-”Nazlı” gölündən gətirirsiz bu suları? Uşaqlıqda çox içmişəm, yayın cırcıramasında buz kimi olur, dadı- tamı da ürəyə yatandı.

-Hə... Qədrini bilmədik - əlini sinəsinə qoyub bir -”ah” ötürdü. -O gölü qurudublar. Ayaqlarım yerə yapışdı.

-Üzü ayna kimi işıqlıydı. Qamışların arasında arabir qaz, yaşılbaş da görünürdü. Hansı əli qurumuş qurudub onu? Axı, kimə nə pisliyi dəyib? Daşıb, sellənib, evləri yıxıb, əkinləri batırıb?

-Yox daşmayıb.Qadın məni doğma nəzərlərlə təpədən dırnağı kimi süzdü. -Səməd Vurğunu tanıyırsan yəqin ki?

-Bəs necə? O, sənət müəllimimdi. O, həm də təbiətin vurğunudu. Ovçudu! Gecə-gündüz çöllərdədi. O gölü qurutmaz, başına güllə çaxsalar da!

-Amma görüm ki, kökləri kəsilsin!

-Sən kimi qarğıyırsan, ay xala!

-Bu şəhərin xaxaları, başbilənləri gölə axan suların başını öz bağlarına, bostanlarına çevirdilər. Göl bataqlığa döndü. Quş-muş görünmədi ara-bərədə. Dedilər ki, qaz çıxır gölün yerindən. Lax yumurta iyi basdı şəhəri. Oğlum, elə o qara günlərimizdə də Səməd Vurğunun vəsiyyəti barədə söhbətlər oldu televizorda. Sonra Bakıdan gələnlər ”gölün yerindən qalxan qaz zolaqları göydəki ”Ozon qatı”nı yekələyib, sökür” deyib, çay daşlarıynan doldurdular gölü. Hə! Hə! O şairin xeyri çox dəyib bizə. Bu şəhərdə ”qamaxoz” həyətləri var. İt qursağı yağ götürmür, ay bala! Bir az bolluq oldu. Adamlar qudurdular. Nimdaş paltarları, sırınmalı yorğanları, şüşəsi qırıq şkafları da həyətin ortasında üst-üstə yığıb, altını oddadılar. Birdən elə olurdu ki, bir neçə həyətdə tonqal yanırdı. Eyvanda oturanda da elə bilirdim təndirxanadayam. Bir gün də komoxozun naçalniki Dümbək Rza camaatı başına yığıb dedi ki, burda tonqal yandıranlar, hispaslı tüstülərlə göydəki ”Ozon qatı”nın atasını yandırırlar. Biz də istilərdən əziyyət çəkirik. O, zibil yandıranları ”ştraf” elədi. Suda verilənlərə iş kəsildi. O cənnətdik Səməd Vurğunun vəsiyyəti Qubalıların ömrünə ömür caladı.

- Ay xala, buralarda aptekçi Xanbabanın evi olmalıdı. Qapısını mənə göstərərsənmi? Müsahibim əlini qaşının üstünə qoydu. -Bura bax! Səni bir şairə oxşadıram. Televizorda da görürəm arabir. Neynirsən Xanbabanı? Qızı Bakıda doktorluq institutuna girib. Sən də yüyürtnbə gəlmisən ki... Başımı razılıqla tərpədib -Hə, -dedim. Arvad bir-iki addım irəli gəldi. Üzü güldü: - Harda işləyirsən? -Bakıda, raykom komsomolda. Raykom sözünü eşidən arvadın dodaqları qaçdı.

-Hə! Xanbaba oğlumdu. Evdə olmasa da yerin deşiyindən çıxardaram! Raykom basıb-kəsən idarədi. Raykomun gəliri seldi, dənizdi. Oğlum, yaxşı daş-başın da var da. Eveşik eləmisənmi özünçün? -Evim yoxdu, xala - dedim. -Amma hökümət verəcək. Hələ kirəçiyəm.

Əlbətdə ya bir zavod direktorunun, ya bir zavmağın çəkərsən məşər ayağına. ”Dom Sovet” boyda ev tikdirər səninçin. İçini də importnu mebelnən doldurar.

-Yaxşı , ay bala, maaşın da çox güclüdü də!

-Ayda yetmiş rubl! İyirmi beşini kirəyə verirəm. Qırx beş rubl qalır. Hər günə bir rubl yarım. Arvad iki addım geri çəkildi. Yumruqlarını şalının altından çıxartdı. Boksçu döyüş vəziyyəti götürdü: -Hə! Yoxdu, yoxdu! Xanbaba evdə yoxdu! Ay, hay! İştahına da qoz halvası! Hesab eləyirsən ki, Xurşud altı dolu Xanbabanın qızıdı. Atası ev alar, altına maşın qoyar! Sən də yüyürüb gəlmisən ki, nişanlayasan qızı. Sən yoxey, lap Allahın bacısı oğlu gəlsə də, nəvəmi verən deyləm. Oxuyub qurtarar, sonra da ürəyi istəyənə gedər. ”Oğlan evinin xəbəri yox, qız evində toydu” dedim ürəyimdə. Ancaq məni bu qapıya gətirən nişan qoymaq həvəsi deyildi. Mən Xurşudu Bakıda bizim komsomol komitəmizə büro üzvü seçdirər, az sonra instruktorluğa irəli çəkdirərdim. ”Bəlkə Xurşud nənəsinin vedrələrini aparmağa gələr”düşünür, tez-tez geri boylanır, məhlədən uzaqlaşırdım.

İcraçı binaya aparan qaratorpaq cığır, zambaq talasının ortasından keçirdi. Gövdələri köklərdə bir-birinə söykənib sıxlaşır, cığırla tala arasında keçilməz səddə çevrilirdi. Yumşaq, çılğın mehlər əllərimin üstünü, üz-gözümü də zərif-zərif dalayırdı. Göyün üzü sarıya çalırdı. Zambaqların sarı tozuna bürünmüşdü üfüqlər də. Səmada ulu şairin tövsiyəsinə uyğun proflaktik işlər gedirdi. Zambaqların oksigen zərrəcikləri göylərin dərinliklərinə işləyərək, ”Ozon qatını” zəhərli qaz -tüstü həmlələrindən qoruyurlar. Dərindən nəfəs alanda ciyərlərimin qırışları şaqqa-şaqla açılır, içərilərimdə at çapırdılar sanki. Gözlərimin böyüdüyünü, dodaqlarımın səyrişdiyini görürdüm. Həyətin ağaclarında, yarpaqlarında da daş sükut yaşanırdı. İşdi-şayət, bir quş uçsaydı, qanadlarının çap-çapı İnzibati binanın divarlarında əks səda verər, zambaq ləçəklərində günəş vannası qəbul edən kəpənəkləri çərəm-pərəm salardı. İrəliləyirdim. Taq-tuq səslərinə ayaq saxladım. Pəhləvan cüssəli dalğanaxış köynəkli bir kişi gah çömbəlir, gah dizləri üstə oturur, maşaya oxşayan budama qayçısını kolların altına yeridirdi. Matros, Fidel Kastronun beretkasına oxşayan ”günlüksüz”ünü qamarlayıb alın qırışlarında yırğalanan tər damcılarının üstünə basdı. Birdən noldusa qayçını kənara tulladı. Pəncələri üstə qalxaraq, İcraçı binanın tüstülənən bacasına zilləndi. Başını bulaya-bulaya bamaq silkələdi korun-korun tüstülənən bacaya. Burnunu tez-tez çəkir, dodaqlarını marçıldadır, tüstünün acılığını, şirinliyini yoxlayırdı sanki. Başını razılıqla tərpədib, kolların altına yeritdi qayçısını.

Dənizçinin qəribə hərəkətləri, - kolları ”uf” demədən qırması, tüstülənən bacaya barmaq silkələməsi, öz-özünə danışması da təəccüb doğururdu.

-Niyə belə narahatsan, ay matros əmi? Yaxınlaşıb qolundan tutdum. Dartıb, qolunu əlindən çıxartdı.

-Matros deyləm. Bosman olmuşam ”Aşıq Ələsgər” gəmisində. Göyərtə komendasının naçalniki, - bosman! Gəminin ”prixod”u, ”atxod”u mənim komandalarımla aparılıb. Deyərsən ki, bu kişi dəlidi, nədi, tez-tez bacaya baxıb, burnunu çəkir. Havanı niyə yoxlayır? Londonda ”Orion” limanının uzaq reydində yük gözləyirdik. Kalpitimizi, poçtumuzu gətirən Şipşandr qoltuğunun altına bir qazet itələdi. - Burda sizin Xalq şairimizin dərin məzmunlu bir məqaləsi var. Şair qlobal istiləşmənin qabağını almağa çağırır bütün dünyanı. Hər kimdisə zor iş görür - deyib əlimi sıxdı. Qazetin qatını açırdım ki, gəmimizi körpüyə dəvət elədilər. Trumlara kimyəvi amyak gübrəsi yükləyəcəkdilər. Özü də ”nasıp”, yəni toz halında. Evimiz yıxıldı ki? Gəmi heyəti bir-iki həftə bu amyakın zəhərini udmalıdı? Düşündüm. Kapitana dirəndim ki, gəl biz bu yükü götürməyək.

-Niyə, ay Bosman? Yük tapmaq da asan deyil! Bunu əldən buraxsaq bilirsən gəmiçilik başımıza nə oyun açar?

-Əlbətdə, bilirəm. Ancaq o kübrə xüsusi kisələrdə daşınmalıdı. Toz halında xata-baladı. İki saatdan bir tryumların qapıları açılmalıdı. Əgər açmasaq qazlar gəmini partladar.

-Hə! Neynək? Açarıq da. Qazlar uçub, rədd olar! -Xeyr, dedim! Qazlar uçmazdan əvvəl kayutlara dolacaq. Biz zəhərlənəcəyik! Başıma gəlib də. Elə bu gəminin matrosuydum. Azot gübrəsi aparırdıq. Körpücükdə düyməni basıb tryumların qapısını aşdılar. Külək bir neçə cəngə azot tozunu çəkdi başıma. Gözlərim tutuldu. Nəfəstənglikdən indi də əziyyət çəkirəm. Heç düşmənimə də qıymaram çəkdiyim zülmü. Gəmimizdən qalxan ammonyak qazları buludlara çökəcək. Zəhərli yağışlar buğda zəmilərini, bağların, bostanların bəhrə- barını da ağuya döndərəcək. Ən pisi odur ki, o qazlar ”Ozon qatı” nın qəzalı sahələrini də genişləndirəcək. O boyda İngiltərə şairimizin sözünü eşidir, amma biz gəmimizdə qaz bolluğu yaradıb, ”Ozon qatı”nın kələyini kəsirik. Bu hərəkətinə görə gəmiçilik şurasından yağlı şapalaq yeyəcəyəmi bilirdim. Amma yoldaşlarımın gözləri nurdan düşməyəcək, qaşınmadan əziyyət çəkməyəcəklər. Nazim Hikmətin ”Mən”, ”Sən”, ”Biz” deyən çağırışına xalqların necə qoşulduğunu görəcəkdi dünya. Kapitan yuxudan ayıldı elə bil. Gözlərini ovuşdurub, çox sərt danışdı. -O xatalı yükə, - ammonyak gübrəsinə arest qoyduracam -dedi.

Bakıya boş qayıtdıq. Gəmiçilik Şurasında kapitana şiddətli töhmət verdilər. Məni işdən qovdular. Bekar otura bilməzdim. Hər yana səs salan Naftalan ”zambaqlarından” mənim də xəbərim vardı. Gəldim, Bəhram direktor mənə müxtəlif vəzifələr təklif elədi. Mən, ocaqçı - koçaqarlığı seçdim.Havanın sağlamlığı bizim əlimizdədir. Çörəksiz, susuz beş-altı gün yaşamaq olar. Amma havasız bir dəqiqə də mümkün deyil. Bu gün smenimin qurtarhaqurtarında Bakıdan bir sisterna yanacaq gətirdilər. İndi peçlər gurgur yanır. Mən də tüstülü havanı burnuma çəkib, bilmək istəyirdim ki, bu solyarkaya mazut qalıblar, ya yox?

-Mazutu kim qatır? -Ekspertlər, fəhlə, sürücü. -Nəyə görə, axı? -Vallah, deməyə də xəcalət çəkirəm. Bir ton solyarkaya iki yüz litr mazut qatan, az-maz pul qazana bilir.

-Necə oldu? Yoxlama nə göstərdi?

-Təmizdi yanacaq!

-Heyran olmamaq mümkün deyil bu cöv-cəlala. Yəqin akademiklərin, alimlərin əməyi var bu bağ-bağçanının salınmağında. - Xeyr, əşi! Bağban Mədət bağçılıq işində Miçurini cibində gəzdirər. Burdakı bütün işçilər ekologiyanı qoruyanlardı. - Aşpaz Kamranın eqzotik kəşfləri hamımızı mat qoyur. Bir dəfə də yeməkxananın ortasında iki təndir qalatdırdı. Birində toyuq ləvəngisi, o birində təndir çörəyi bişirdilər. Təndir çörəyi, motal pendiri! Ye ki, yeyəsən! O gün qazan xörəkləri bişmədi. Ərzağa qənaət direktor fonduna xeyli gəlir gətirdi. Ən böyük xeyrimiz o oldu ki, bacamızdan tüstü çıxmadı. Xalq şairimiz Səməd Vurğunun ruhu şad oldu. Həkim personalının işi yaxşı qurulub burda. Qlavvraç Xurşud xanım çox tələbkardı. ”Xurşud” sözünü eşidcək yerimdən oldum. ”Ayə, bəlkə bu qlavvraç Qubalı Xanbabanın qızıdı? Eh! Xurşud adında qız nə çox! Amma, kim nə deyir desin, ayağımı yerə vurub, yumruğunu masaya çırpıb, israr eləyirəm ki, bu Xurşud öz başınnan AMİ-yə girən həmin o Xurşuddu. Axı, ay qardaş, ancaq bilikli, savadlı kadrları rəhbər vəzifələrə çəkirlər. Amma ”bosman əmi” əllərini ölçə-ölçə söhbətini davam etdirirdi. -Polşanın, Bolqarıstanın bəzi zavod direktorları da, daş atıb başlarını tuturlar ki, təcili zambaq tinkləri göndərməsəniz zəhərli qazlar bizi öldürəcək! Ancaq tinglər öz başına cücərmir. Bunun parniki, gübrəsi, işçisi olmalıdı. Zambaqların xeyrini yaxşı başa düşən direktor Bəhrəm Raykomun birinci katibinə bir raport göndərdi. Rayonun başçısı ərazimizdə bir Zanbaq Kombinatı tikməyi qərarlaşdırıb. Arada söhbət gəzir ki, Mədət kişini o Kombinata direktor qoyacaqlar.

-Yaxşı, ay Bosman müəllim, danışığından belə başa düşdüm ki, sən buranın ətraf mühitini saflaşdırmağa çalışırsan! Soruşmaq ayıb olmasın, bəs axı, budama qayçısıyla qaratikan kollarını niyə qırırsan?

-A tövbə, bir ota, bir yarpağa da əl vurmaram! -Bilirsənmi- deyib, - ”künlüksüzünü” gözünün üstündə yanəki oturtdu. - Az-para sağalan xəstələr gəzə-gəzə bu yerlərə də gəlirlər. O, budama qayçısını xəndəkdəki qaratikanlara tuşladı. -Az qala adamın gözünə girələr. Niyə qara adlanır bu qaratikanlar? Ona görə ki, həm böyükdülər, həm də ucları çox itidi. Qonaqlarımızı qıcıqlandırar, əsəbləşdirə bilər, bu ağrı, sancı dolu tikanlar.

**(ardı var)**

# HƏSRƏT ACISINDAN ZƏFƏR ŞİRİNLİYİNƏ



*Vaqif OSMANLI,*
*araşdırmaçı, yazar*

**Qarabağın həsrətindən zəfərinə doğru uzun, ancaq incə olmayan yolun uzunluğunun ölçü vahidi, nə yaxşı ki metrlərlə deyilmiş. Metrlərlə olsaydı, orta və ahıl yaşlı zəfər təşnəlilərin zəfər sevincini dadmağa ömürləri çatmazdı. Qarabağ həsrətimizin zəfər vüsalına doğru yolu bir qərinədən uzun oldu. Təqribən orta insan ömrünün tən yarısı. Qarabağla qovuşmamızın ölçü vahidi qərinə imiş. Nə yaxşı ki, bir neçə yox, bir qərinə.**

Qarşımda qaralı-qırmızılı bir kitab var: "Qarabağ - həsrətdən zəfərə". Kitabın üzünə baxan kimi düşündüm: "Ey müdrik Məmməd Araz, sən doğrudan da dahisən. Özünlə oynadığın şahmata görə".

Müdrik xalqımız da 35 il şahmat oynadı. Ancaq özüylə yox, Qərbin havadarlıq etdiyi xain, bədxah, başıboş düşmənlə. Rəqibimizə çoxgedişli kombinasiyalar öyrədənlər, əlindən yapışıb zəif füqurları irəligeri itələyənlər çox oldu. Ancaq... Haqq nazilər, üzülməz. Bu da dədəbabalarımızın inamıydı. Onların inamı qalib gəldi.

Qüvvələr nisbəti qeyri-bərabər olan qanlı-qadalı şahmat oyununun nəticəsini qazi şair, publisist, tərcüməçi Rəfail Tağızadə müəllifi olduğu "Qarabağ - həsrətdən zəfərə" kitabının üz qapağındakı şəkillə və içərisindəki publisistik yazılarla, esselərlə, müxtəlif zamanlarda yazdığı şeirlərlə bizə bəyan edir. "Qarabağ - həsrətdən zəfərə" sözlərinin altında hiyləgər düşmənin şahı kəlləmayallaq qalıb, yox, təkcə mat olmayıb, ölüb.

Bəs kitabın içindəkilər bizə hansı ismarışları ötürür? Burada hıçqırtı da var, haray da, zəfər "URA!"sı da. "Sahibsizlik dərdi" də, "Həsrət yolçusu"nun nisgili də, "Ağdamsızlıq" da, "qəbri bölünən qardaş"ın "qıç başdaşı"nın sahibinin yolunu intizarla gözləməyi də var, analara gözaydınlığı da, "əsgərə məktub" da, "sevinc nəşəsi" də, "bizi qaytaran yollar"la gedib "Şuşada yaşananlar" da. Rəfail Tağızadə "qaraqırmızı" 35 ili bir kitaba sığışdırıb hərb tarixi yaradıb.

Bu Vətən sevdalısı qanlı-qadalı yoldan keçən yolçuya - doğmayamı, yadamı ilahi xahiş edir: "Yolçu mənə quş göndər, dimdiyində torpağım". Bu torpaq həsrətinin kulminasiya nöqtəsidir. Bir quş dimdiyi torpağın qüdrətini, ətrini, dəyərini onun yolunda canını qoyanlardan yaxşı kim bilər? Beləlarindən Vətən darda olanda "başqa sevgi gözləmək" mümkün deyil.

Və nəhayət, zəfərin də zirvəsinə qalxdıq. Bundan uca duyğu, sevinc, qürur, başıucalıq, üzüağlıq tanımıram. Mən bu hisslərlə yaşadımsa, görün Rəfail müəllimin hisslərinin ölçüsü, biçisi, dərəcəsi hansı miqyasda olub. O, hətta neçə-neçə illərdi narahat idi ki, "görən kötüklər bizi öz kölgəsinə qoyacaqmı, sönmüş ocaqları kim yandıracaq?"

Bəli, müharibənin hər üzünü görən qazı şair bilirdi ki, qarşımızdakı qəvi düşmən kəmfürsətdi, yurd yerlərimizdə daşın daş üstündə qalmasına, həyətlərdəki məsum qızılgüllərin açılmasına, ətir yaymasına imkan verə bilməzdi. Həyətlərindəki doqquz qoz ağacının, nəinki, uca boyuna, heç kötüklərinin belə qalmasına inanmasa da, onların xəyali kölgəsinə bir doğması kimi sığınmaqla evin, bağ-bağatın ətrini alacağı, ilahi təsəlli tapacağı günə inanırdı. Elə hey düşünürdü, görəsən doqquz kötük də düşmənin tamahına tuş gəlibmi?

"Qarabağın Xirosiması"nın payızına, qışına bahar gəldi, yurd yerləri daha xəzan görməyəcək. Rəfail Tağızadə yeni bahar yaşayır - Qarabağ baharını. Bir qönçədə ümid görmək, yaşam eşqi yaşamaq! Hətta həsrətli yurdda "qanad çalan quş da, yarısökük divarda oxuyan bayquş" da (əlbəttə oxuyan, ulayan yox, bayquş da bilir ki, o yerlər abadlaşacaq, laləzara çevriləcək, ona görə oxuyur) artıq yaşam stimuludur.



***Nə gördün, söylə görüm?***
***Nə dedi qalanlarım?***
***Duydumu ayaq səsin***
***Qəbirdə olanlarım?***

Önəmlisi doğmaların addım səsləridir. Torpaq bir qərinəlik həsrəti çiynindən atıb ayağa qalxır. Elə əzizlərinin yolunu gözləyən qəbirlər də.

"Qarabağ - həsrətdən zəfərə" "Qarabağ ağrısı", "Qarabağ dərdim"iz, "Torpaq sevgimiz ilə başlayır, "Yaralı azadlıq"la, "Yoxluğa yazılan məktublar"la, "Kimsəsiz evlər"lə davam edir, "Şuşa zirvəsi", "Kəlbəcər ucalığı", "Zəfər günü", "Son kadans"la (musiqidə tamamlama) yekunlaşır. Hələlik yekunlaşır, "məğlub adı üstündən götürülmüşlərin" ürəkləri doludu, hələ "sevinc nəşəsi"ndən, Qələbə şirinliyindən cild-cild əsərlər yazılacaq.

Rəfail Tağızadə hisslərini birərbirər, ardıcıllıqla, lap elə durna qatarı nizamı ilə çözür. Bu hərb salnaməsi utanc tariximiz - "Tarixə çevrilən 8 may"dan 8 noyabra qədər uzanan Vətən tariximizdir. Bir ucu zülmət, həsrət, itki, qan-qada, o biri ucu işıq, azadlıq, bütövlük, qələbə, zəfər tariximiz. Əks qütblü uzun yolun işıqlı ucundakıları görmək bizim üçün taleyin ərmağanıdır. Biz bunu görmək üçün yaşadıq. Bizi başıaşağı yaşamaq əzabından "məğrur ordumuz" xilas etdi. "Sabahı gözəl Şuşamız"a yollar açıldı, "Ağdamsızlıq"dan, "Ağdam - varlığın yoxluq səhnəsi"ndən Ağdamın və başqa Vətən torpaqlarımızın varlıq səhnəsinə gedib çata bildik. Nə olsun ki, varlıq səhnəsində gördüklərimiz, tamaşa etdiklərimiz bizi məyus etdi. Torpağı Vətən etmək ulu Türkün alın yazısıdır. Biz Qarabağda daha uca, gözoxşayan "İmarət"lər tikəcəyik.

"Həyatda qovuşmaq qədər gözəl heç nə yoxdur. Ayağın torpağına dəyəndə özün olursan. Varlığını hiss edirsən. Bu, özünəqayıdışdır. Özünə baxıb ürəkdən "Bu mənəm!" - deyə bilirsən. Səssiz dediyin bu "mən", hərbdə cərgədə qışqırdığın "Mən!"dən daha uca və əzəmətli səslənir".

Bu, ana torpağın insana verdiyi qüvvətdir, inamdır, qüdrətdir!

"Qarabağ - həsrətdən zəfərə" kitabının bir özəlliyi də odur ki, müəllif uzun illər yaşadığı hisslərini nəsrlə başlayıb, şeirlə möhkəmləndirib yaddaşlara həkk edir. Nəsrlə poeziyanı əkizləşdirir, hətta Siam əkizləri kimi bir can edir. Sözün həmrəyliyi ilə Vətən, torpaq sevgimizi artırır, dəyərlərimizə sahib çıxmağı, "Qara-qırmızı Xocalı" yaramıza məlhəm qoymağı öyrədir, "Kəlbəcər ucalığı"na səsləyir. Anladır ki, Vətənsiz yaşamaq yaşamaq deyil.

Özünəqayıdışımız başlandı. Sevgimizin, inamımızın, ruhumuzun özünəqayıdışı. Bu gün nigaran ruhlar da sevinir.

Bu kitabın qəhrəmanları yazıçı təxəyyülünün, fantaziyasının yaratdığı insanlar deyil. Bir vaxtlar - keçən yüzilliyin 90-cı illərində qaçqın şəhərciklərində "vaqonun altından asılan beşiklər"də böyüyən Vətən oğullarıdır - "başqaları üçün yaşayanları - saçında Vətən yuxuları gizlənən" Hacı Əkbər Rüstəmovun, "payız taleli" şəhid mayor Vitali Salamovun, "Qəbri də Vətəni kimi iki yerə bölünən" Etimad Əsədovun, "Kod adı Rey" Rey Kərimoğlunun, birinci Qarabağ Müharibəsinin şəhid və qazilərinin müqəddəs yolunun davamçıları.

"Yoxluqda var olan şəhərim"də - Ağdamda Rəfail Tağızadənin duyğularının dadı bir başqadı - dadlılıqla dadsızlıq arasındadır:

"Ağdama baxdıqca, ətrafa əl uzatdıqca ancaq "...vardı" deyirsən. Yoxluğun içində varlıq axtararaq.

Dağılan otaqların içində xırda ağaclar, kollar bitib. Yəqin, adamları əvəz edən yaşıllığın boy atması bu evlərin, otaqların boş qalmaması, burda mütləq yaşayış olacağı anlamındadır. Yaşayışa nişanədir"...

Düşünürəm... Ağaclar, körpə pöhrələr insanlardan vəfalıdır. Özünün həyat mənbəyini heç vaxt yalqız qoymur. Düşməndən qorxmur. Doğmalarına yeni, təmiz hava, nəfəs vermək üçün həyatdan küsmədən, yalqızlıqdan bezmədən yaşayır ki, doğmaları qayıdanda - torpağı Vətən edəndə onlara yeni həyat versin. Qazi şairin təbiriylə desək, "əsas var olan Torpaqdır".

2022-ci ilin iyulunda "Şuşada yaşananlar" da qəribə və qərib duyğulardı:

"Qayası barıt qoxulu, evləri xatirə yuxulu, səması ağ buludlu, gözü Ağdamda olan" Şuşada yaşanan qeyri-müəyyənliklə müəyyənlik, naməlumluqla məlumluq arasında vurnuxan düşüncələr heç bir il keçməmiş müsbətə doğru dəyişdi. Şuşa qoynuna doğmalarını çağırdı, barıt qoxulu şəhər yenidən poeziyalı, muğamlı, Xarıbülbül ətirli "Qarabağ incisi"nə çevrildi.

Şuşanın "sabahını gözəl" görən Rəfail müəllim, əlbəttə yanılmayıb. Son 2-3 il buna sübutdur. Şuşanın bu gün "sükutlu gecələri" də muğam, poeziya kökünə köklənib. Zirvələrdəki qartallar Cıdır düzündəki zəngulələrə, şeir məclislərinə səs verir. Üzeyir bəy, Xan qızı Natəvan, Bülbül Şuşaya qayıdıb. Natəvanın gözü yoldaydı. Daha "qoyubdur intizarda, neçin gəlməz, neçin gəlməz" yazmayacaq. Xan qızının yarasını Zəfər sağaltdı.

"Zirvə gözəldir. Adamı özü kimi dikəldir. Özünəinamını artırır. Zirvənin səninki olması sənə əlavə güc verir. Bəlkə də, bunun adı məğrurluqdur.

Qalxa-qalxa ordan aşağılara baxırsan. Özgələr ayaq altında, səninkilər əl çatan qədər yaxın".

Bu hisslərlə yaşamaq, "Şuşa zirvəsi"nə ucalmaq varmış taleyimizdə.

Uzun, intizarlı, ağrılı həsrətdən Zəfərə yolun qürur dayanacağı - Zəfər günü. Həsrətin dadını "bəsdir" deyincə daddıq. Zəfərin dadı isə hər an şirinləşir. Qələbə şirinliyini bizə bəxş edənlər heç vaxt unudulmayacaq. Unutmağa haqqımız da yoxdur.

"Şəhidlər qanlarıyla, Qazilər əzalarıyla, mübarizliyi ilə qazandılar bu Zəfəri.

Bu Zəfər Günündə şəhidlərin büküldüyü bayraqları başımız üstündə dalğalandıran, şəhidlərin sevinən, şad olan ruhlarıdı. Yoxsa, bayraq belə möhtəşəm, sevinərək dalğalanmazdı".




"Qarabağ - həsrətdən zəfərə" Rəfail Tağızadənin "ürəyinin qanıyla yazılmış" (Adil Mirseyid) növbəti "Qarabağnamə"sidir. Qazı şair üçün Qarabağ onu "harda olsa Ana kimi qoynuna çəkən torpaqdı, ciyərlərinin süzgəcsiz sorub qəbul etdiyi havadı". Gecələr onu darıxmağa qoymayan "gecə xəyalları"dır, ulduzlu, əsrarəngiz səmadı, hərdən dərdlərimizə dözməyib bizə qoşulan, göz yaşları tökən kövrək buludlardı. Neçə illərdi şair təxəyyülü "Bakı-Ağdam-Xankəndi" xəyal qatarıyla yollarda idi. "Nə yayı yay, nə qışı qış çadır şəhərciyində günahsız uşaqların baxışları", qaçqın şəhərciyinin qara atributları - "yükünü sürüyüb apara bilməyən bəxtsiz dəmir, taxta vaqonlarda ömrə yazılmayan ömür artıran bəxtsiz adamlar"ın taleyinə düşən qara günlər uzandıqca uzandı.

***Vaqonun altında böyüyən uşaq,***
***mənzilə çatmayan vaqon nədi ki,***
***sən ondan sallaşıb hələ yatırsan.***
***Gedə bilmədiyin yurd yerinə sən,***
***şirin röyalarda gedib çatırsan.***

Yaman günün ömrü az olar, deyiblər. Bu "az" bir şəhid ömründən çox çəkdi. Gün o gün gəldi ki, başımız dikəldi. Üzümüzün qaralığını Vətən oğulları təmizlədi. Əsir torpaqlarımızın qapıları açıldı. Şəhid ruhlarının, qazilərin qarşısında baş əydik. Bu Zəfər qazilərin yaralarına məlhəm oldu. Vətənin, anaların zəfər sevincini gördük, artıq bütövük, qalibik. Rəfail müəllim demişkən, artıq məğlub məmləkətin vətəndaşı deyilik.

El-obalarımızda toy-düyün başlayıb. Həm də qeyri-adi qazi toyları. İndi ürəyimizi qazi toyları sızladır. Həyatın bu üzü də varmış. Amansız müharibə izləri. Bunu ancaq onu duyanlar belə yaza bilər. Bu ovqata köklənmək asan olmasa da, bu günümüzün həqiqətləridir. Həqiqətin üzü bütün halıyla bizi yaşamağa öyrədir. Əslində "ovqat" sözü müsbət assosiasiya yaradır. Ancaq "Qazi toyu"ndakı ovqata "müsbət" etiketi yapışdıra bilmədim.

***Bu qazi toyunda, bu ər toyunda,***
***yerində oynayan süzənindən çox,***
***yerdən təbrik edən gəzənindən çox,***
***saqqallı gəlini bəzənəndən çox.***
***Bu qazi toyunda, bu ər toyunda,***
***tək əl ovcun döyür çəpik yerinə,***
***çəliklər səs salır təpik yerinə.***
***Qazilər oynayır, qazilər indi -***
***başları üstündə qoltuq ağacı,***
***yellənir boş, qıçsız şalvar balağı....***
***...Dolaşan ruhlar da oynayır bu gün,***
***itən arzular da oynayır bu gün,***
***bu qazi toyunda, bu ər toyunda...***

Nə vaxtsa Rəfail müəllimin yaradıcılığı haqqında düşüncələrimdə qeyd etmişdim ki, ağırdı, çox ağırdı ağrıları yazmaq. Doğrudan da elədi. Təvəzökarlıqdan uzaq zənn eləməyin məni, "Qarabağ - həsrətdən zəfərə" hərb salnaməsini oxuyandan sonra özüm öz fikrimi tam təsdiqləyirəm. Çox-çox ağırdı. Xüsusilə, Vətən, torpaq, xalqın ağrılarını yazmaq. Vətən havasından "Ağdamın iyi gəldiyini" hiss edəsən, ancaq onu doyunca uda bimәyәsən. Çəkiləsi dərd deyil. Ancaq çəkməlisən. Sən çəkməsən, kim çəkəcək? Vətən kimlərindi? Ağrısını, dərdini duyanın. Ürəyin atlana-atlana doğma yurda gedəsən. Görəsən ki, ora 1945-ci ilin Xirosiması, "mina xəritəsi"di. Ancaq nə edəsən? Onun qara günlərinin də havasını ciyərlərimiz qəbul etməlidir.

O hissləri, ağrıları yaşamalısan, yazmalısan, tarixin bir səhifəsinə çevirməlisən, nə fərqi ki, kədərli tarixdir, yoxsa, qürurlu. Tarix bizim tariximizdir. Hər ikisi taleyimizdi. Taledən qaçmaq olmur.

Tale insanlara elə sürprizlər göndərir ki... "Özü qaçqın qəbiristanlığında, qıçı Qarabağda". "Qıç başdaşı" var, torpağı kimi qəbri bölünən qardaş"ın - Vətənin baş qazisi Etimad Əsədovun. O, Vətənin Qarabağ zəfərini yaşamağa layiq Vətən oğluydu. Rəfail Tağızadənin "Qıç başdaşı" şeiri 11 misralıq kiçik kədər hekayəti deyil, nəhəng ağrı heykəlidi.

"Qarabağ - həsrətdən zəfərə" səngər və zəfər nəğmələridi. Bu kitabı yazmaq həm də niyə çətindi? Həsrətdən zəfərə köklənməlisən, birdən-birə 180 dərəcə dəyişməlisən? Bu, əlbəttə, dönüklük deyil. Vətənin kədərini və sevicini yaşamaq üçün dəyişmək əsl vətəndaşlıqdı...

"Vətən sevdalıları"nın Vətən, torpaq, xalq sevgisini yaradan tükənməz verib.

"Hər şey sevgidən doğur", qazi şair...

"Azərbaycanın İsveçrəsi" sayılan Kəlbəcərə çatıb ordan o yana - köhnə dədə-baba yurdlarımıza yeni baxışla, yeni düşüncəylə baxacağıq"...

**Nəhayət, yeni baxışın, yeni düşüncənin də vaxtı çatdı...**

# 28 Aprel işğalı

(əvvəli 9-cu səhifədə)

1920-ci ilin yanvar-mart aylarında RSFSR hökumətinin xarici işlər komissarı Çiçerinin Denikinə qarşı birgə mübarizə aparmaq üçün göndərdiyi teleqramı Azərbaycan və Gürcüstan Cümhuriyyətlərinə təzyiq kimi qiymətləndirən və Denikinə nisbətən Lenini daha qorxulu qüvvə olduğunu qeyd edən M.Ə.Rəsulzadə, Azərbaycanın üzərinə gələn bolşevik Rusiyası ilə 1918-ci il bolşevik Rusiyasını fərqləndirmiş və bunun "ondan daha qorxunc bir qüvvət" olduğunu bildirmişdi.

İmperialistlərə qarşı mübarizə aparan Türkiyənin ağır vəziyyətini yaxşı başa düşən M.Ə.Rəsulzadə, bolşeviklərin "Türkiyə dərdi ilə yanan Azərbaycanın gəlbinin həssas nöqtəsinə" vurduğunu dilə gətirmişdir. Daha sonra o, bolşeviklərin Türkiyəyə yardım etmək şüarına aldanan bir qrup türk zabitlərinin bolşevikləri dərindən tanımadıqlarını və bu şüarın "bilxassə bolşevikləri yalnız sözləri ilə tanıyan və kəndləri ilə hesabları bulunmayan bəzi türk siyasi xadimləri və zabitləri üzərində pək böyük bir təsir"i olduğunu vurğulamışdır (Rəsulzadə M.Ə. Bolşeviklərin şərq siyasəti". Bakı: Sabah, 1994, 134 s. S. 62).

Türklüyünü anlamış Azərbaycan ilə türklük üçün qan tökən, can verən Anadolu arasındakı qardaşlıq bağının tarixini nə indiki Türk-Rus təsadüfü münasibətləri, nə də bir qrup şəxsin siyasi xətaları həll edə bilməyəcəyini yazan (Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti.Bakı:Elm, 1990, 116 s. S.78) M.Ə.Rəsulzadə, Türkiyə məsələsi heç bir zaman biz azərbaycanlılar üçün ürəyimizin ən nazik pərdələri ilə hiss olunan bir məsələ halında xaric olmadığını qeyd etmişdir (Rəsulzadə M.Ə. Əsərləri 1918 - aprel 1920. V c., Bakı: Qanun nəşriyyatı, 2014, 564 s. S. 437).

M.Ə.Rəsulzadə "Əsrimizin Siyavuşu" adlı əsərində yazırdı ki, Rusiya ölüm-qalım mücadiləsində olan Türkiyəyə yardıma gedirmiş və ingilis tərəfdarı Azərbaycan hökuməti ona yol vermirmiş - deyə apardığı təbliğatları bolşevik sui-qəsdlərinin ortaq günahkarı olub, Qafqasiyanın Rusiya tərəfindən təkrar istilasını hazırlayırdı (Rəsulzadə M.Ə. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, 112 s. S. 46.). O, vəziyyətin belə bir halda olduğu vaxtda qəflətən bolşevik əsgəri aprelin 26-da sərhədə təcavüz etdiyinin xəbəri alındığını və sərhəddə durmalı olan əsgərlər Qarabağ və Qazax cəbhələrində məşğul olduğundan (həmin vaxt Azərbaycan ordusunun böyük bir qismi torpaqlarımıza hərbi təcavüz etmiş erməni silahlı dəstələrinə qarşı döyüşürdü-V.Ş.) 60 min miqdarında təcavüz edən düşmənə qarşı iki saata qədər müqavimət göstərdikdən sonra geri çəkilmək məcburiyyətində qaldıqlarını göstərmişdir (Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti.Bakı:Elm, 1990, 116 s. S. 66).

Məlumdur ki, Güzey Azərbaycan rus qoşunları tərəfindən işğal olunduqdan sonra üç rəngli Azərbaycan bayrağı qismən Qırmızı sovet bayrağı ilə əvəz edilmişdir. Bakının Qırmızı Ordu tərəfindən işğalından iki gün sonra Türk komandanlar ruslarla əvəz edilmişdi. Hökumətin ən məsul mövqeləri rus, erməni, gürcü və türk olmayan əmələ ilə xaricdən gələn yabançılara verilmişdir. İxtiladan bir ay sonra artıq bütün Azərbaycan məmləkətinin müdhiş bir istilaya məruz qaldığını acı bir surətdə dərs eyləmişdir.

M.Ə.Rəsulzadə Azərbaycan sovet hökumətinin və üsyan etmiş xalqın Qırmızı ordunun Azərbayacana dəvət edilməsinə də münasibət bildirmiş və bunu bolşevik siyasi manevrlərindən biri hesab etmişdir. O, "dəvət edən də özləri, icra edən də özləri" olduğunu yazmışdı.

O, Rusiyanın daxili və xarici idarə sisteminin mahiyyətindən bəhs edərkən yazırdı: "Rus hankı dinə girirsə-girsin yenə rusdur. Qara da olsa, qızıl da olsa rus imperializmi-imperializmdir. Rusiyada təbəddül edəcək şey, onun üsuli-idarəsidir. Qızıl imperializm böyük Rusiya inqilabının doğurduğu bir sistemdir" (Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti.Bakı:Elm, 1990, 116 s. S.91).

O, Azərbaycan Xalq Cümhuriyyəti dövründə bolşeviklərin "Müsavat dövrü" demələrinə də münasibət bildirmiş və "xalq bu dövrə Azərbaycan dövrü" dediyini, "İstiqlal xaricində onun üçün bir Azərbaycan" olmadığını bildirmişdir.

M.Ə.Rəsulzadə tərəfindən AXC-nin ildönümü ilə bağlı yazılmış "Çağdaş Azərbaycan tarixi" adlı digər bir əsəri, 1918-ci il 28 maydan keçən 32 il sonrakı hadisələrə diqqəti cəlb edir. Əsərdə M.Ə.Rəsulzadə 1917-ci ildə Bakıda bolşeviklərin apardığı siyasi mübarizəyə toxunarkən, onların 1917-ci ildə Bakı Sovetində çoxluğu əldə etmək üçün hiylə və müdaxiləyə əl atdıqlarını, onların sosial dayağı yalnız rus və erməni əhalisi, eyni zamanda əsgər və matrosların bir hissəsinin olduğunu göstərmişdir (Rəsulzadə M.Ə. Çağdaş Azərbaycan tarixi. Bakı: Gənclik, 1991, 112 s. S. 4-5).

M.Ə.Rəsulzadə Şimali Azərbaycanın və o cümlədən Cənubi Qafqazın 1918-ci il istiqlalı və işğalından bəhs edərkən yazırdı ki, Azərbaycan, onla bərabər bütün Qafqasiya Cümhuriyyətləri həqiqi azadlıq və istiqlalına 1918-ci ilin Mayısında qovuşdular. 1920-ci ildə isə bu azadlıq və istiqlal qızıl rus ordusu tərəfindən üstün qüvvətlərlə qanla və atəşlə basdırıldı.

O, Cənubi Qafqazın işğalında xarici amili doğru olaraq belə dəyərləndirmişdi: "o zaman İngilis baş naziri lord Corc, Londonda onu ziyarət edən Sovet xarici ticarət komissarı Krasinə Krallıq hökumətinin Qafqaz işlərilə maraqlanmadığını bildirmişdi. Qafqazın ən yaxın qonşuları bulunan İran və Türkiyə, xüsusilə sonuncusu, bu zaman milli varlıqlarını qorumaq üçün bolşeviklərə dostluq və hətta ittifaq bağlamaq zorunda idilər. Millətlərarası durumun bu şəkildə olması ən gənc Azərbaycan Cümhuriyyəti üçün çox faciəli sonluqlar doğurdu".

Beləliklə, problemlə əlaqədar olaraq M.Ə.Rəsulzadənin əsərlərinin bir qisminin qısa təhlilini ümumləşdirərkən, yazılanlanların təkrar yazmağın yaddaşların xatirəsini yeniləmək üçün xeyirli olacağı düşüncəsi ilə, aşağıdakılarını qeyd etmək istəyirəm:

1. Mərkəzdə və əyalətlərdə V.İ.Lenin hökumətinin 1917-ci il noyabrın 2-də "Rusiya xalqlarının hüquq Bəyannaməsi"ndə və 1917-ci il noyabrın 22-də "Rusiyanın və Şərqin bütün müsəlman zəhmətkeşlərinə" adlı müraciətində xalqların öz müqəddəratlarını həll etməsindən, azad, müstəqil dövlətlərini qurmaqdan danışırdılar, elə ki, bolşeviklər qüvvətləndilər yuxarıda qeyd olunan azadlıqlardan imtina etdilər və xalqları yenidən zorla rus-sovet müstəmləkəsi altına saldılar.

2. Denikinə nisbətən Lenini daha qorxulu qüvvə olduğunu qeyd edən M.Ə.Rəsulzadə, Azərbaycanın üzərinə gələn bolşevik Rusiyası ilə 1918-ci il bolşevik Rusiyasını fərqləndirmiş və bunun "ondan daha qorxunc bir qüvvət" olduğunu bildirmişdi.

3. M.Ə.Rəsulzadə Qırmızı ordunun Azərbaycana dəvət edilməsinə münasibət bildirərkən bunu bolşevik siyasi manevrlərindən biri hesab etmiş və "dəvət edən də özləri, icra edən də özləri" olduğunu göstərmişdir. O, haqlı olaraq yazırdı ki, rus hankı dinə girirsə-girsin yenə rusdur. Qara da olsa, qızıl da olsa rus imperializmi-imperializmdir. Rusiyada təbəddül edəcək şey, onun üsuli-idarəsidir.

4. O, bolşeviklərin qurduğu sosializm cəmiyyətini xarakterizə edərkən onu "kəndliyə torpaq verib məhsulunu verməyən kommunizm" kimi dəyərləndirmişdi.

**VAQİF ŞİRİNOĞLU**
**AMEA A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu, tarix elmləri doktoru**

# Təhsil ocağı

**Ağcabədi şəhərinin mərkəzində yerləşən M.F. Axundov adına şəhər 3 saylı orta məktəb - lisey təkcə rayonun yox, həm də respublikanın ən qədim təhsil ocaqlarından biridir. Bu məktəb 141 il əvvəl, 1883-cü ildə Ağcabədi şəhərinin orta hissəsindən axan çay ilə iki hissəyə bölünən Xalfərəddində fəaliyyətə başlamışdır. Həmin il 11 nəfər şagirdi olan məktəbin 1983-cü ildə 100 illik yubileyi respublika səviyyəsində geniş qeyd olunmuşdur. Elə həmin ildən məktəb tam orta məktəbə çevrilmişdir. Məktəb ildən ilə hərtərəfli inkişaf mərhələsi keçmişdir. Təhsildə qazandığı uğurlara görə Təhsil Nazirliyinin əmri ilə 3 saylı orta məktəb 2007-ci ildə məktəb-liseyə çevrildi. Müxtəlif olimpiadalarda, müsabiqə və yarışlarda məktəb-liseyn şagird və müəllim kollektivi xeyli uğurlara imza atdı. 2009-cu ildə 3 saylı məktəb-lisey Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Ən yaxşı ümumitəhsil məktəb " i adını aldı və 10 min manat pul mükafatı qazandı. Cənab Prezidentin başqa bir Sərəncamı ilə məktəbin qabaqcıl müəllimləri Camal Abbasov, Zəhra İbrahimova, Həcər Əliyeva "Əməkdar müəllim" adına laiq görüldülər. Müəllim Tofiq Zeynalov isə "Tərəqqi medal"ı ilə təltif olundu.**

Məktəbin binası müasir tələbələrə uyğun olmadığına görə Azərbaycan Respublikasının Birinci vitse-Prezidenti Mehriban Əliyevanın qayğısı nəticəsində 2005-ci ildə 10 sinif otağından ibarət yardımçı bina, Respublika Prezidenti İlham Əliyevin əmri ilə 2012-ci ildə 4 mərtəbəli 960 şagird yerlik müasir məktəb tikilib istifadəyə verildi.

Məktəbin çalışqan, əzmkar və savadlı müəllim kollektivinin səyi nəticəsində şagirdlərin bilik səviyyəsi daima yüksəldilir, gələcək nəslin bacarıqlı, layiqli yetişməsi üçün bir çox mühüm işlər həyata keçirilir. Bunun bariz nümunəsidir ki, məktəbin məzunu Şirin Məmmədli 2009-cu ildə 686 bal toplayaraq rayonda ilk Prezident təqaüdünə layiq görüldü.

Məktəbin məzunu Anar Mütəllimov məktəbi fərqlənmə attestatı və qızıl medalla bitirərək 683 bal toplayıb Azərbaycan Tibb Unversitetinə daxil oldu və 10 baldan 9-nu qazanaraq hər il dövlət tərəfindən 15 min pul köçürülərək Türkiyədə Gülhanə adına Hərbi Akademiyanın Tibb fakultəsində oxumağa başladı.

Nəhayət, 2017-ci ildə rayon məktəbliləri arasında Arzu Məmmədzadə ilk olaraq rekord göstərici göstərdi, 700 bal topladı.

Bundan başqa hər il məktəbin onlarla məzunu qəbul imtahanlarında 500-700 arası bal toplayaraq ölkənin və bir çox xarici dövlətlərin ali məktəblərinə qəbul oldular.

Məktəbdə pandemiya dövründə məktəbin şagirdlərinin göstəriciləri həm 9 illik, həm də 11 illik buraxılış imtahanları zamanı 80 faiz göstəriciyə nail olmuşlar.



3 saylı məktəb - liseyin təhsil sahəsində göstəriciləri müntəzəm olaraq davam edir. Belə ki, 2018-2019-cu tədris ilində məktəbin XI sinif şagirdi Anar Məmmədov Fənn Olimpiadasının Respublika turunda 1-ci yeri tutmaqla qızıl medala layiq görülmüş və 684 bal toplayaraq Bakı Dövlət Universitetinin Hüquq fakultəsinə daxil olmuşdur. 2020-2021-ci tədris ilində isə XI sinif şagirdi Mahnur Hacıyeva Fənn Olimpiyadasına Respublika turunda 3-cü yeri qazanmış, bürünc medala layiq görülmüş və 643 balla Bakı Dövlət Universitetinin Hüquq fakültəsinə daxil olmuşur. Bundan başqa məktəbin bir çox şagirdi inşa müsabiqələrində 1, 2, 3-cü yerləri tutmuş və intellektual yarışlarda fərqləndirici yerlərə layiq görülmüşlər.

5-9 dekabr 2022-ci il tarixlərində Bakı Ekspo mərkəzində keçirilən 10 ölkənin qatıldığı Beynəlxalq Steam Azərbaycan festivalında Ağcabədi 3 saylı məktəb-liseyin fizika və Steam müəllimi Şəbnəm Məmmədova və onun komandası, VIIa sinif şagirdi Səyyid Fərəcli və VIIIb sinif şagirdi Validə Oruclu iştirak etmişlər. " Təhsil dronları" kateqoriyası üzrə yarışda finala yüksələn komanda 3-cü yerə çıxaraq bürünc medala layiq görülmüşdür.

3 saylı Ağcabədi şəhər məktəb-liseyin şagirdləri təcrübəli və bilikli müəllimlərin böyük səyi nəticəsində həm də torpağı sevir, vətənpərvər Vətən övladı kimi böyüyürlər. Müəllimlərin onlara ötürdüyü, aşıladığı Vətən sevgisini ürəklərinin dərin guşəsində daşıyan məktəbin şagirdləri orta məktəbi bitirdikdən sonra əsl Vətən övladları olaraq doğma torpağa olan sonsuz sevgilərini hər zaman göstərmiş və sübuta yetirmişlər.

Erməni işğalçı və qəsbkarlarının bizə qarşı elan olunmamış, həm də 1988-ci ildə torpaqlarımızı zəbt etməyə başladığı Birinci Qarabağ müharibəsində 3 saylı məktəb - liseyi bitirən Sərdar Nəsir oğlu Xasıyev qarı düşmənə qarşı qəhrəmanlıqla vuruşmuş, Vətən yolunda canından keçərək şəhidlik zirvəsinə yüksəlmişdir.




Müzəffər Ali Baş Komandan, Prezidentimiz İlham Əliyevin Çağrışına qoşulan məktəbin məzunlarından Həsən İsmayıl oğlu Əliyev, Emin Elnur oğlu Fərzəliyev İkinci Qarabağ müharibəsində Vətən uğrunda vuruşaraq şəhid olub şəhadətə qovuşublar.

Məktəbin məzunlarından Samir Eldəniz oğlu Mamedov, Nurlan Elşən oğlu Abbasov, Elgiz Hümbət oğlu Ağamalıyev, müəllim Elçin Sadiq oğlu Allahverdiyev isə müharibə qazileridir.

Təcrübəli müəllim Mətanət Quliyevanın direktor, "Əməkdar müəllim" Camal Abbasovun tədrisi işləri üzrə direktor müavini işlədikləri M.F. Axundov adına Ağcabədi şəhər 3 saylı məktəb-liseyin qabaqcıl müəllimləri Arzu Əsədova, Saragül Həsənova, Vüsalə Quliyeva, Vəfa Bağırova, Şəbnəm Məmmədova, Asim Mirzəxanlı və digər peşəkar, səriştəli pedoqoqların yorulmaz əməyi, tükənməz səyi nəticəsində məktəbdə dərslər əyani vəsaitlərdən geniş istifadə olunaraq günün tələbələri səviyyəsində qurulur və keçirilir.

3 saylı məktəb - lisey təkcə Ağcabədi deyil, onun hüdudlarından çoxçox uzaqlarda qabaqcıl tədris mərkəzi kimi tanınır və sevilir. Məktəbin belə tanınmasında onun tanınmış məzunları-kimya elmləri doktoru Əyyub Əzimov, texnika elmləri doktorları Kamran Məmmədov, Rza Məmmədov, Cahid Kərimov (professor), filologiya elmləri doktoru Rasim Tağıyev, cərrah-yazıçı Nurəddin Qənbər (Mirzəyev), dilçi alim, filologiya elmləri doktoru Şamil Cəmşid, xalq artisti Ağakişi Kazimov, yazıçı-dramaturq İsi Məlikzadə, xalq artisti , görkəmli xanəndə Yaqub Məmmədovun böyük əməkləri olumuşdur.

Onlar həmişə bu məktəbin məzunu olduqları ilə fəxr etmiş, doğma təhsil ocağının adını qürur və məsuliyyətlə daşımışlar.

**Məktəb elə bir unudulmaz məkandır ki, illər öncə ondan ayrılsan da heç vaxt onu yaddan çıxarmır, onunla bağlı xatirələrini həmişə, hər yerdə ürəyinin ən əziz yerində saxlayır, gəzdirirsən. Çünki məktəb gələcək həyatımızda onsuz keçinə bilməydiyimiz bir çox amil və keyfiyyəti bizə öyrədir, aşılayır. Məktəbdə aldığımız bilik, keçdiyimiz həyat dərsi həmişə gərəyimiz olur, əlimizdən tutur. Bizi ömrün, həyatın keşməkeşli yollarında büdrəməyə qoymur. Odur ki, biz hər zaman bizim üçün doğma, əziz olan bu məkanla ayrılarkən əlivda yox, görüşənə qədər deyirik. Görüşənə qədər, doğma məktəb!**

**Adil Misirli,**
**Qarabağ üzrə bölgə müxbiri**

**Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması**

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

№ 4 (2378) 2 fevral 2024-cü il

# QƏLƏBƏMİZ AVROPANIN GÖZÜNƏ GİRİR



**Azərbaycan son 20 ildə elə yüksək sürətlə inkişaf edib ki, bunu görməyən və hiss etməyən kordur. Çünki Azərbaycanın çox zəngin yeraltı və yerüstü sərvətləri olmaqla yanaşı, həm də uzaqgörən, dünyaşöhrətli, müdrik İlham Əliyev kimi Prezidenti var. Təbii ki, ölkəmizin çox sürətli inkişafı və beynəlxalq aləmdə nüfuz qazanması bizim düşmənlərimizi narahat etməklə yanaşı, həm də gözlərinə girir. Başqa sözlə demiş olsaq, onlar 44 günlük II Qarabağ Savaşında və eləcə də antiterror əməliyyatı aparılması zamanı ölkəmizin ərazi bütövlüyünün bərpasını həzm edə bilmirlər. Ona görə də müxtəlif vasitələrlə Azərbaycana təzyiqlər etməyə başlayır, hətta iqtisadi sanksiyalarla bizi qorxutmaq istəyirlər. Amma bu cahil və nadan Avropa dövlətlərinin başçıları bir şeyi anlamırlar ki, haqq-ədalət və düz yol bütün gücdən, bütün qüvvədən daha üstündür və Azərbaycan da tutduğu haqq yolla addımlayıb və addımlayır.**

Onlar 30 il torpaqlarımızın erməni işğalçıları tərəfindən zəbt edilməsinə və talan olunmasına göz yumdular. İndi birdən-birə ayılıb haqdan, ədalətdən və ermənilərin pozulmayan hüquqlarından danışırlar. O, 30 ildə bir dəfə nə Avropa Şurası, nə də digər beynəlxalq qurumlar Ermənistanı işğalçı dövlət kimi tanımadılar, onların qəsbkarlıq siyasətinə münasibət bildirmədilər və əksinə ona çalışdılar ki, Qarabağ problemini dondursunlar və bununla da Azərbaycan hər şeylə razılaşsın, Avropanın və Amerikanın dediklərini qəbul eləsin.

Amma Azərbaycan Prezidenti İlham Əliyev bütün beynəlxalq kürsülərdən dəfələrlə bəyan etdi ki, Azərbaycan torpaqlarından işğalçı erməni ordusu çıxmalıdır.

Çünki BMT-nin bu barədə 4 qətnaməsi var, bu qətnamələr də 30 ildir ki, icra edilmir. Çox təəssüf ki, cənab Prezidentin yüksək kürsüdən səslənirdiyi bu fikirlər beynəlxalq təşkilatlar və ermənilərin havadarları tərəfindən qulaqardına vuruldu və Azərbaycan da çıxış yolunu işğal altında olan torpaqları öz qüvvəsi ilə azad etməkə gördü.

Ona görə də 2020-ci ilin sentyabrın 27-də ermənilərin fasiləsiz hücumlarına cavab verildi və Azərbaycan ordusu əks hücuma keçdi.

Ağır döyüşlər başlandı. Sentaybrın 27-dən 30-na kimi Füzulinin və Cəbrayılın 10-a yaxın yaşayış məntəqəsi erməni işğalından azad olundu. Ermənilərin 30 il bar-bar bağıraraq dedikləri "Ohanyan səddi" darmadağın edildi.

Təbii ki, ermənilər belə güclü hücumları gözləmirdilər, düşünürdülər ki, yəqin Azərbaycan ordusu ötən əsrin 90-cı illərində olan zəif bir qüvvədir. Ancaq bir neçə gün keçəndən sonra hiss etdilər ki, Azərbaycan ordusu həmin ordu deyil, daha güclü və daha qüvvətli, yenilənmiş qüdrətli bir ordudur və bu ordu yüksək döyüş qabiliyyətinə, peşəkarlığa malik olmaqla yanaşı, həm də ən müasir ağır texnika və silahlarla təchiz edilib. Bax, onda ermənilərin başbilnləri və generalları anladılar ki, göydən onların başına daha dəhşətli od töküləcək. Ona görə də Ermənistanın baş naziri Nikol Paşinyan "dayılarına" zəng etməyə başladı. Öncə Putinə telefon açdı. Putin də heç onun zənginə cavab vermədi. Telefonun susduğunu görəndə o, ümid yerini Avropada, daha doğrusu, Fransada, onun Prezidenti Makronda axtardı.



Çünki ağızlarında şirə yeri qalmışdı, həmişə bizimkilər əks hücuma keçəndə "dayılarına" zəng edib, bizim hücumun qarşısını almağa çalışmışdılar. Amma bu dəfə onlara heç bir "dayı", heç bir zəng kömək etmədi. Bu dəfə gördülər ki, Azərbaycan Ordusunun qarşısını heç bir qüvvə ala bilməyəcək, ən azından ona görə ki, bu ordu təpədəndırnağa qədər ən müasir silahlarla təchiz edilib və ən döyüşkən əsgərlərimiz, zabitlərimiz, xüsusi təyinatlılarımız var.

Azərbaycan ordusunun ildırım sürətli hərbi əməliyyatı erməniləri elə çaşdırmışdı ki, onlar döyüş meydanında nəinki yüngül silahlarını, hətta ağır texnikalarını - tanklarını, BTR-lərini və silah daşıyan yük maşınlarını qoyub qaçırdılar.

Qaçmaqan başqa digər çıxış yolu yox idi; ya ölməli idilər, ya da əsir düşməli idilər. Çünki ermənilər çox yaxşı bilirdilər ki, Qarabağ torpağı onların vətəni deyil və bu torpaq yolunda da erməni əsgərləri qan tökmək istəmirdilər.

Amma Azərbaycan əsgəri qan tökməkdən, ölməkdən qətiyyən qorxmurdu. Çünki Azərbaycan əsgəri yaxşı bilirdi ki, qan tökmədən, şəhid olmadan bu torpaqları azad eləmək çox çətin olacaq. Ona görə də Azərbaycan Ordusu və Azərbaycan əsgəri döyüşə sevinə-sevinə gedirdi. Ya şəhid olmalı idi, ya qalib olmalı idi, ya da Qazi olmalı idi. Bax, bu Vətən müharibəsində Azərbaycan əsgəri şəhid də oldu, qalib də oldu, Qazi də oldu.

Hətta erməni zabitləri və əsgərləri bizim xüsusi təyinatlıların döyüşünə və mübarizəsinə məəttəl qalmışdılır. Onlar müharibə bitəndən sonra deyirdilər ki, Azərbaycanın xüsusi təyinatlılarının adını eşidəndə biz qorxumuzdan tir-tir titrəyirdik, çünki onları bəzən güllə ilə vurub yaralayırdıq, amma onlar zombilər kimi yenidən ayağa qalxır, bizə tərəf gəlir, atəş açıb bizi qırırdılar.

Ona görə də onların adını eşidən kimi, görən kimi silahı səngərə atıb qaçırdıq. Qalanlar isə ya öldürülürdü, ya da əsir götürülürdü.

Bax, Azərbaycan əsgəri belə döyüşüb, belə mücadilə aparıb. 44 günlük İkinici Qarabağ savaşında. Çünki onların hər biri Vətən olmaq üçün canlarından belə keçməyə hazır idilər.

Bu döyüşlərdə Cəbrayıl azad olundu, Hadrut azad olundu, Füzuli azad olundu, Qubadlı azad olundu, Zəngilan azad olundu, Şuşa azad olundu. Sonra 44 günlük müharibədən sonra danışıqlar yolu ilə və əvvəldən imzalanmış üçtərəfli bəyanata görə Ağdam, Kəlbəcər, Laçın azad olundu

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusu möhtəşəm Qələbə qazandı. Həmin rayonlara və şəhərlərə Azərbaycan Bayrağı sancıldı. Bu döyüşlər bir daha göstərdi ki, qüdrətli və güclü Azərbaycyan Ordusunun qarşısında heç bir qüvvə dayana bilməz, hətta ermənilərin havadarları və "dayıları" güclü olsa belə, bu ordunun heç bir qorxusu yoxdur.

Çünki ordu Azərbaycan xalqına, Azərbaycan dövlətinə güvənib. Bu güvəncin qarşısını isə bayaq dediyimiz kimi, heç bir düşmən qüvvəsi ala bilmədi.

**44 günlük Böyük Qarabağ Savaşının ardı 2023-cü il sentyabrın 19-u və 20-də oldu. 23 saat 43 dəqiqə ərzində Azərbaycan Ordusu işğal altında olan Qarabağın Xankəndi, Xocalı, Xocavənd, Əsgəran, Ağdərə və digər yaşayış mənqələrimizi də yağı düşməndən azad etdi və bu möhtəşəm anti-terror əməliyyatı nəticəsində Azərbaycanın ərazi bütövlüyü tamamilə bərpa olundu və həmin şəhərlərdə Azərbaycan Bayrağı ucaldıldı. İndi bu şəhərlərdə təhlükəsizliyi Daxili Qoşunlar və Azərbaycan Ordusu qoruyur. İndi cəmi Qarabağ torpağı rahat nəfəs alır!**

**FAİQ QİSMƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ
MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# İncəsənətdəki "ayrı - seçkilik" sindromu, yoxsa, "qədiri bilinməyənlər" qrupu?

**Danılmaz faktdır ki, Azərbaycanın milli rəssamlıq sənətinin inkişafında qadın rəssamların rolu böyükdür. Azərbaycanın ilk qadın rəssamı Reyhan Topçubaşova, görkəmli fırça ustaları Vəcihə Səmədova, Maral Rəhmanzadə, Elmira Şahtaxtinskaya və başqalarının müxtəlif janrlarında yaratdıqları əsərlər bu gün də muzeylərimizin ekspozisiyalarını bəzəməkdədir. Vəcihə Səmədova, Maral Rəhmanzadə, Elmira Şahtaxtinskaya Azərbaycan rəssamlıq sənətində bir məktəbdirlər.**

Məsələn, professional rəssamlıq təhsili görmüş ilk azərbaycanlı qadın rəssam, qrafika ustası, Azərbaycan SSR Xalq rəssamı, M. F. Axundov adına Azərbaycan SSR Dövlət mükafatı laureatı Maral Rəhmanzadənin əsərləri xarici ölkələrdəki incəsənət sərgilərində (İngiltərə, Fransa, İtaliya, Yaponiya, Avstraliya, Belçika, Suriya, Livan və s.) nümayiş etdirilib. Dəfələrlə Moskvada, Bakıda və Azərbaycanın digər şəhərlərində, eləcə də Şri-Lankada (1958), Kubada (1964) və İranda (1991) fərdi sərgiləri göstərilib.

Əsərləri Tretyakov qalereyası (Moskva), R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi, Azərbaycan Dövlət Rəsm Qalereyası və s. muzeylərdə, ABŞ və İngiltərədə şəxsi kolleksiyalarda saxlanılır. ”Azərbaycan neft ölkəsidir”, ”Bizim Xəzərdə”



və ”Avtoportret” tabloları rəssamın ən məşhur əsərləridir.

Azərbaycan SSR əməkdar incəsənət xadimi Vəcihə Səmədovanın (vəfatından az sonra adı əbədiləşdirilib - Azərbaycan Rəssamlar İttifaqının sərgi salonuna verilib-red-Ə.R), 1957-1963-cü illər yaradıcılıq fəaliyyətində ən məhsuldar illər olub. O, ”Lənkəranda toy”, ”Toya hazırlıq”, ”Mahnı” kimi maraqlı əsərlərini bu dövrdə yaradıb. Vəcihə Səmədovanın 1962-ci ildə Bolqarıstana yaradıcılıq ezamiyyəti yeni istiqamətin inkişafına təkan verir. Rəssamın bu silsiləyə daxil olan əsərlərinə ”Sofiya bazarında”, ”Qoca bolqar qadınları”, ”Plovdiv qayaları”, ”Türk qızı”, ”Tırnovo”, ”Sozopolun dənizdən görüntüsü ” və başqalarını qeyd edə bilərik.

Vəcihə Səmədova həmkarı və həyat yoldaşı Lətif Feyzullayevlə birgə yaradıcılıq ezamiyyətlərinə çıxaraq Azərbaycanı qarış-qarış gəzir. Bunun bəhrəsi olaraq ”Kür qırağında”, ”Mahnı”, ”İntizarda”, ”Toya hazırlıq”









tematik tabloları, ”Qoşqar yaylağında”, ”Göy göl”, ”Kəpəz”, ”Kür sahillərində” silsilə mənzərələri, ”Aktrisa Leyla Bədirbəylinin portreti”, ”Pambıqçı”, ”Şamama Həsənovanın portreti”, ”Geoloq Minirə Məmmədbəylinin portreti” kimi əsərlər yaranır.Onun da hər bir əsəri böyük zövqlə baxılır.

Azərbaycan SSR xalq rəssamı və əməkdar incəsənət xadimi Elmira Şahtaxtinskaya da Azərbaycan mədəniyyətini təkrarolunmaz əsərləri ilə zənginləşdirib. O, daha çox plakat və dəzgah rəsmlərinin müəllifi kimi şöhrət tapıb. XX əsrin 70-ci illərində ”Azərbaycan qədim mədəniyyət diyarıdır” plakat silsiləsini, Azərbaycanın elm, ədəbiyyat və incəsənət xadimlərinin portretlər qalereyasını, dəzgah rəsmləri və akvarellərindən ”Çexoslovakiyada” (1957), ”Sosialist Bakısı” seriyası (1958-1959), ”Bolqarıstanda” (1963), ”Qutablar” (1963) və ”Novruz bayramı” (1970) tablolarını yaratmışdır. Moskva (1957), Kaunas (1967) və s. şəhərlərdə fərdi sərgisi nümayiş etdirilib.

Rəssamın yaradıcılığında sülh və xalqlar dostluğu, əmək mövzusu əhəmiyyətli yer tutur. 70-ci illərdə çəkdiyi ”Azərbaycan qədim mədəniyyət diyarıdır” plakatlar silsiləsində Azərbaycanın orta əsrlərdə yaşayıb yaratmış elm və mədəniyyət xadimlərinin (Nəsirəddin Tusi, Məhsəti Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Əcəmi Naxçıvani, Sultan Məhəmməd və başqaları), 70-80-ci illərdə isə müasir sənətkarların (Üzeyir Hacıbəyli, Hüseyn Cavid, Səməd Vurğun, Səttar Bəhlulzadə, Qara Qarayev, Fikrət Əmirov və başqaları) portretlərini yaratmışdır.Bəli, hər bir rəssam qadın mədəniyyətimizə bir çiçək bəxş edib.Hər 3 rəssam xanımın adına Bakıda küçə var. Çox ürəkaçan hal!

Amma bu yolu ilk açan Azərbaycan SSR əməkdar incəsənət xadimi, Azərbaycanın ilk qadın rəssamı Reyhan xanım Topçubaşova olub. Yəqin rəsm sevərlər bilir ki, o, portret, məişət, mənzərə janrlarında işləyib, eləcə də süjetli kompoziyalar və natürmortlar çəkib. Mənzərələrində Abşeron təbiətinin təsviri əsas yer tutur. Mahnı və rəqs ansamblları üçün geyim eskizləri də hazırlayıb.

Onun ”Köhnə Bakı küçəsi” (1935), ”Köhnə bazar”, ”İlk təbliğatçı Mina xanım”, ”İki sahil”, ”Qoca zalım şahın hüzurunda”, ”Qız qalası”, ”Dəniz”, ”Mərdəkanın görünüşü” adlı süjetli tabloları və ”Balerina Qəmər Almaszadənin portreti”, ”M. Ə. Sabirin portreti”, ”Avtoportret” və ”Nizami Gəncəvi” kimi portretləri var. Sənət əsərləri müxtəlif Bakı muzeylərinin kolleksiyasında saxlanılır.

Boyakarlığın portret (”M. Ə. Sabir”, ”Q. Almaszadə” və s.), məişət (”Köhnə bazar”, ”Toy”, ”Küçə” və s.) və mənzərə (”Qız qalası”, ”Dəniz”, ”Mərdəkanın görünüşü”, ”Gecə vaxtı dənizin mənzərəsi” və s.) janrlarında fəaliyyət göstərib. Reyhan xanım 8 mart 1938-ci ildə ilk dəfə Azərbaycan qadın rəssamlarının əsərlərindən ibarət sərgini təşkil edib.

Anlamaqda çətinlik çəkirəm, Azərbaycan ictimaiyyətinin, xüsusən də, əlaqədar orqanların böyük sənətkarların bəzilərinə soyuq münasibətinə...Axı, niyə sənətkarları biri-birindən seçirlər, onlara ikili standarlarla yanaşırlar? Niyə, Vəcihə Səmədova, Maral Rəhmanzadə, Elmira Şahtaxtinskaya adına Bakıda küçə var, amma rəssamlığa ilk imza qoyan Reyhan Topçubaşovanın adına nəinki bir küçə, hətta kiçik bir rəssamlıq emalatxanası da yoxdur. Reyhan xanım Azərbaycan rəssamlıq sənətinə o qədər töhvə verməsinə baxmayaraq onun təbliğatı da çox zəif şəkildə aparılır. ”Aparılmır” deyilsə, bu daha düzgün olar. Halbuki, Reyhan xanımın adı orta məktəb dərsliklərinə ”ilk rəssam qadın” kimi salınmalı idi.

Amma ki, gözəgörünməz bir əl elə hey, haqsızlıqla məşğuldur. 46 illik ömrünün 36 ilini Azərbaycan kinomatoqrafiyasına həsr edən, Azərbaycanın sevilən kino aktyoru və rejissoru Ceyhun Mirzəyev Azərbaycanda kino sənətinin inkişafında inqilab edəcək filimlərə imza atıb. Təəssüf ki, hələ də- bu günə qədər heç bir fəxri ada layiq görülməyib.

Yəni, haqsızlığın bu boydası da mümkündürmü? Bəs niyə C. Mirzəyevi sevən tamaşaçılar, onun filməri ilə böyüyən cəmiyyət, yaxud kino işçiləri, aktyor adı daşıyan böyük kütlə bir dəfə də olsun bu haqda etiraz etməyib, əlaqədar orqanlara Mirzəyevin fəxri ad alması ilə bağlı bir xahişnamə göndərməyib?

Tünzalə Ağayeva , Aygün Kazımova, Mir Yusif , Röya Ayxan Azərbaycan incəsənətinə hansı ”böyük” xidmətləri ilə ”Azərbaycanın Xalq Artisti” adına layiq görülüb ki, o xidməti Ceyhun Mirzəyev göstərə bilməyib?

***P.S.** Əlaqədar qurumlar, incəsənət həssas bir sahədir. Bütün sahələrdəki haqsızlıq insanları qəlbən yorur, amma mədəniyyət sahəsindəki haqsızlıq həm insanlı yorur, həm də gələcəyə, inkişafa olan ümidlərini qırır. Heç olmasa, bu sahədə ikili standarları ortaya qoymayın!*

**Əntiqə Rəşid**

---

*Qalib Şəfahət*



***TURAN YOLU***

*Xankəndində,*
*Rəsulzadə*
*Prospekti ilə*
*Heydər Əliyev*
*prospektinin*
*kəsişdiyi yerdən,*
*durub*
*baxıram sabaha.*
*Hazırlıq görürəm,*
*Səhər tezdən çıxmağa*
*Turan yoluna*
*İlhamla...*
*Qoşulun mənə*
*sahib çıxaq cahana!*

---

## *Zaur Rzayev: “Adaşlarımdan təzminat alacam”*

**Xalq artisti Zaur Rzayev maraqlı açıqlaması ilə gündəm olub.**



Adalet.az xəbər verir ki, sənətçi ondan sonra dünyaya gələn Zaur adlı adamlardam təzminat alacağını bildirib:

”Ən yaşlı Zaur mənəm. Məndən sonra çox adam uşağına Zaur adı verib. Zaur Baxşəliyevdən başqa, digər Zaurlardan təzminat alacam.”

Məsələyən fikir bildirən Zaur Baxşəliyev isə adının sırf olaraq Zaur Rzayevin adından götürüldüyünü qeyd edib:

”O vaxt Zaur Rzayevin ifasında ”Dilbər” mahnısı çox sevilirdi. Anam da o ifanı çox sevdiyi üçün adımı Zaur qoyub. Mənim adım sırf Zaur Rzayevə görə qoyulub”.

## *Aygün Kazımova Namiqə təşəkkür etdi*



**Xalq artisti Aygün Kazımova uzun illər duet ortağı olan meyxanaçı Namiq Qaraçuxurlu haqda danışıb.**

Adalet.az xəbər verir ki, o, ötən günləri ” 7 tamam ” proqramında xatırlayıb:

”Yaşadığımız hər şeyə görə Namiqə minnətdaram. Bizi musiqi birləşdirdi. Musiqiyə olan sevgimiz bizi sevimli cütlüyə çevirdi. Yenə də musiqi bizi birləşdirdi, amma səhnədə. Çoxları üçün çox şey maraqlıdır, amma elə maraqlı olaraq da qalsın”.

## *Aparıcı: “Orda işləməkdən zövq alıram”*

**Aparıcı Zümrüd Bədəlova öz bacarığından söz açıb. Adalet.az xəbər verir ki, o, mətbəxdə işləməyindən həvəslə danışıb:**

”Mətbəxi çox sevirəm. Orda iş görməkdən zövq alıram

Təsəvvür et ki, toydan gecə saat 2-də gəlib, başlayəram keks bişirməyə. Onda beynim sakitləşir”.

## *Vəfa: “Ona təklif məndən gəldi”*

**Vəfa Şərifovanın açıqlaması yenə də diqqət çəkib. Adalet.az xəbər verir ki, sənətçi duet ortaqlarından danışıb:**

”Uzun zamandır şou-biznesdə iki xanım müğənni duet oxumurdu. Ona təklif məndən gəldi. Bütün xərcləri isə tam yarı böldük. Kişi-qadın dueti həmişə var. Amma qadınla qadının duet çox fərqli və maraqlı alındı. Nəfəslə duetimi çox bəyənirəm. Birinci ”Vəfa və Nəfəs” ,sonra ”Zeynəb və Vəfa” dueti olub”.

**Əntiqə**


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS
Baş redaktor:
İradə TUNCAY

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N:
38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 165
Çapa imzalanmışdır:
01.02.2024